**Hər kəs ədalətli olacaq**

www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | *İctimai-siyasi, hüquq qəzeti* | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 28 (6121) 1 avqust 2025-ci il | Qiyməti 40 qəpik

## İran Prezidenti: "Təqsir bizdədir"



**Azərbaycan Respublikası ilə əlaqə qura bilməməkdə müqəssir İrandır.**

**"Report" xəbər verir ki, bunu İran Prezidenti Məsud Pezeşkian Zəncana səfəri zamanı keçirdiyi görüşdə deyib.**

**"Biz qonşu müsəlman dövlətlərlə əlaqə qura bilmirik. Səfər etdiyim Azərbaycanla münasibət qura bilmirik, ancaq o tərəfdən İsrail gəlib, orada əlaqə qurur", - Prezident vurğulayıb.**

**O, Azərbaycanla əlaqə qura bilməməyə görə təqsirin İranda olduğunu bildirib.**

## Vilayət Eyvazov Astarada vətəndaş qəbulu və sıra baxışı keçirib



**Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov iyulun 29-da və 30-da Astara Rayon Polis Şöbəsinin inzibati binasında vətəndaş qəbulu keçirib.**

Adalet.az xəbər verir ki, bu barədə Daxili İşlər Nazirliyindən məlumat verilib. Bildirilib ki, Vilayət Eyvazov Polis Şöbəsinin inzibati binasında Yardımlı, Astara, Lerik, Masallı, Lənkəran şəhər və rayonlarından qəbula gələn 454 vətəndaşın müraciətini dinləyən nazir onların problemlərinin həlli üçün Nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib. Müraciətlərin əksəriyyətinin yerində həlli ilə bağlı tədbirlər görülüb. Daxili işlər naziri general-polkovnik V.Eyvazov qeyd olunan rayonların polis rəislərinə ictimai asayişin qorunmasında, cinayətkarlığa qarşı mübarizədə daha səmərəli tədbirlərin tətbiqi, vətəndaşların müraciətlərinə operativ və obyektiv baxılmasına dair tapşırıqlarını verib. Səfər çərçivəsində general-polkovnik V.Eyvazov DİN Daxili Qoşunlarının Lənkəran rayonunda yerləşən hərbi hissəsinə gedib, orada ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş hərbi qulluqçuların xatirəsinə ucaldılmış abidəni ziyarət edib. Sonda general-polkovnik Vilayət Eyvazov Daxili Qoşunların hərbi hissəsinin sıra meydanında polis orqanlarında xidmət etmək arzusunda olan gənclərin sıra baxışını keçirib. Vətən müharibəsinin 19 iştirakçısının da qatıldığı sıra baxışında xidmətə qəbulun şərtlərinə uyğun gələn 297 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

## SUDA BOĞULAN UŞAĞI XİLAS EDƏRKƏN HƏLAK OLAN POLİSİMİZ




**İyulun 29-da Pirşağı çimərliyində 8 yaşlı uşağı xilas edərkən həlak olan polis serjantı Rüfət Cabbarov "Azərbaycan" nəşriyyatında xidmət keçən mühafizə polisinin əməkdaşı idi. 1994-cü il təvəllüdlü Rüfət Cabbarov Pirşağı çimərliyində səkkiz yaşlı uşağın boğulduğunu görüb, onu xilas etməyə çalışıb. 2017-ci il təvəllüdlü Arif Rüstəmovu xilas edə bilməyən Rüfət Cabbarov özü də dənizdə batıb. Həlak olan polis serjantı Rüfət Cabbarov ailənin tək oğlu olub. Ailəli idi, 2 övladı var.**

**Allah rəhmət eləsin, yaxınlarına səbr versin!**

## "Ədalət" qəzetinin iki əməkdaşı MEDİA-nın müsabiqəsində qalib oldu





**Medianın İnkişafı Agentliyinin (MEDİA) elan etdiyi fərdi jurnalist müsabiqəsinin nəticələri açıqlanıb.**

"Ədalət" qəzetinin iki əməkdaşı "Fərdi jurnalist müsabiqəsi"nin qalibi olub.

Belə ki, Nicat Rüstəmov (Novruzoğlu) "Ən yaxşı sosial-iqtisadi təhlil" nominasiyasında, Sübhan Mahmudlu isə "Ən yaxşı oçerk" nominasiyası üzrə qalib olub.

Qeyd edək ki, qalib gəlmiş jurnalistlərə pul mükafatı təqdim olunacaq.

## Türkiyə öz mesajlaşma tətbiqini təqdim edəcək



**"Baykar"ın İdarə Heyətinin sədri Selçuk Bayraktar NEXT Teknofest Sosial hesabında maraqlı paylaşımla Türkiyənin yerli mesajlaşma proqramının gəldiyini açıqlayıb.**

Adalet.az TRT News-a istinadən verdiyi xəbərə görə, bu yaxınlarda istifadəyə verilən yerli sosial media platforması "NEXT Teknofest Social" türk istifadəçilərinin böyük marağına səbəb olub və rəqəmsal dünyada sürətlə nüfuz qazanıb. Yerli platforma App Store-un "Sosial Şəbəkə" kateqoriyasında populyar pulsuz proqramlar siyahısında birinci yeri tutmaqla böyük uğur qazanıb.

Güclü istifadəçi marağını nümayiş etdirən hazırkı reytinqə əsasən, "NEXT Teknofest Social" birinci, qlobal nəhəng Telegram və Facebook ikinci və üçüncü yerdədir. OmeTV dördüncü, sosial hadisəyə yönəlmiş "hadisə proqramı" isə beşinci yerdə qərarlaşıb.

## AI Ukraynaya maliyyə yardımını dayandırıb



**Avropa İttifaqı Ukrayna Milli Antikorrupsiya Bürosu (NABU) və İxtisaslaşdırılmış Korrupsiyaya Qarşı Mübarizə Prokurorluğu (SAPO) ilə bağlı yaranmış vəziyyətlə əlaqədar Ukraynaya maliyyə yardımının göstərilməsinə "pauza verib".**

Adalet.az xəbər verir ki, bu barədə Ukraynanın "Ekonomichna Pravda" nəşri məlumat yayıb. "Vəziyyət düzələnə qədər hər şeyə fasilə verilib", - nəşr yazıb.

Qeyd olunur ki, bu, ERA proqramı (dondurulmuş Rusiya aktivlərindən istifadə etməklə təcili kreditləşdirmə proqramı) çərçivəsində ilin sonuna qədər 17,2 milyard avro, Ukrayna Mexanizmi proqramı kontekstində isə 12,5 milyard avro məbləğində yardımdan gedir.

*Əbülfət MƏDƏTOĞLU*

## Sən Allaha əmanətim

Bax:səh-8

## *Pezeşkian: "Dəhliz tamamlansa, sensasiya olacaq"*

**Şimal-Cənub dəhlizi tamamlanarsa, bizə sanksiya tətbiq edə bilməyəcəklər.**

Adalet.az xəbər verir ki, bunu İran Prezidenti Məsud Pezeşkian deyib. "Əgər mövcud üsullardan istifadə edərək İranın Şimal-Cənub dəhlizini aça bilsək, Özbəkistan, Türkmənistan, Rusiya və Azərbaycan arasında yarana biləcək nəqliyyat sensasiya olacaq, o zaman bizi sanksiyalara məruz qoymaq mümkün olmayacaq", - Pezeşkian bildirib.

# Mədəniyyət Nazirliyinə Azərbaycan dili və ədəbiyyatı ilə bağlı vəzifələr tapşırılıb



**Mədəniyyət Nazirliyinə Azərbaycan dili və ədəbiyyatı ilə bağlı vəzifələr tapşırılıb.**

Bununla bağlı Prezident İlham Əliyev Fərman imzalayıb.

Fərmana əsasən, nazirliyin vəzifələri sırasına müvafiq sahədə Azərbaycan dilinin tətbiqinə, Azərbaycan dili haqqında normativ hüquqi aktlara, o cümlədən Azərbaycan dilinin normalarına əməl olunmasına nəzarəti həyata keçirmək və Azərbaycan dilinin inkişafının təmin edilməsi, habelə Azərbaycan ədəbiyyatının xaricdə, xarici ədəbiyyatın Azərbaycan Respublikasında tanıdılması və təbliği işini həyata keçirmək daxil edilib.

# Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidməti direktorunun müavinləri artırılıb

**Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidməti direktorunun müavinləri artırılıb.**

Bu, Prezident İlham Əliyevin imzaladığı Fərmanla "Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin Nizamnaməsi"ndə edilən dəyişiklikdə əksini tapıb. Dəyişikliyə əsasən, Xidmətin İcraçı direktorunun üç müavini olacaq. Bundan əvvəl müavinlərin sayı bir idi. Xidmətin cari fəaliyyətinə rəhbərliyi İcraçı direktor həyata keçirir. İcraçı direktor Şura tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilir. İcraçı direktorun onun təqdimatı əsasında Şura tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən üç müavini var.

# Prezident Sərəncam imzaladı

**Gəncə şəhərində inşa olunan Gəncə Memorial Kompleksində tikinti-quraşdırma işlərinin tamamlanması və muzey ekspozisiyasının təşkili məqsədilə Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə 10,5 milyon (on milyon beş yüz min) manat vəsait ayrılıb.**

Bununla bağlı Prezident İlham Əliyev Sərəncam imzalayıb. Sərəncama əsasən, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etməlidir.

Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etməlidir.

# Prezident İlham Əliyev Mərakeşin Kralını təbrik edib

**Prezident İlham Əliyev Mərakeşin Kralı VI Məhəmmədə təbrik məktubu ünvanlayıb.**

Məktubda deyilir:

"Əlahəzrət,

Əziz Qardaşım,

30 İyul - Mərakeş Krallığının milli bayramı münasibətilə Sizi və Sizin simanızda qardaş xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edir, ən xoş arzularımı çatdırıram. İslam həmrəyliyi, ortaq dini-mənəvi dəyərlər ilə bir-birinə bağlı olan xalqlarımız və ölkələrimiz arasında əlaqələr bizim üçün böyük əhəmiyyət daşıyır. Qarşılıqlı hörmət və etimad ruhunda inkişaf edən dövlətlərarası münasibətlərimizin bugünkü səviyyəsi məmnunluq doğurur.

Əminəm ki, ənənəvi dostluq əlaqələrimiz, həm ikitərəfli, həm də çoxtərəfli əsasda qarşılıqlı faydalı əməkdaşlığımız xalqlarımızın mənafelərinə uyğun olaraq birgə səylərimizlə bundan sonra da möhkəmlənəcək və yeni məzmunla zənginləşəcəkdir. Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, qardaş xalqınıza daim əmin-amanlıq və rifah arzulayıram".

# Cenevrədə Qadın Parlament Sədrlərinin Sammiti keçirilib, Milli Məclisin sədri çıxış edib




**İsveçrə Konfederasiyasının Cenevrə şəhərində Qadın Parlament Sədrlərinin 15-ci Sammiti keçirilib.**

Bu barədə Adalet.az-a Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən xəbər verilib. 29 ölkənin qadın spikerləri, bir sıra beynəlxalq təşkilatların qadın rəhbərləri daxili olmaqla, ümumilikdə 350-yə yaxın nümayəndənin iştirak etdiyi tədbirdə çıxış edən Milli Məclisin sədri Sahibə Qafarova hazırda dünyanın bir sıra münaqişələr, müharibələr və humanitar böhranlarla üz-üzə qaldığı şəraitdə qadınların xüsusilə həssas vəziyyətdə olduqlarını söyləyib.

Azərbaycanda qadınların bu acı həqiqəti yaxşı bildiklərini qeyd edən Milli Məclisin sədri xatırladıb ki, ötən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycan ərazilərinin 20 faizinin qonşu Ermənistan tərəfindən işğalı, təkcə bu ərazilərin tamamilə məhv edilməsi ilə deyil, həm də etnik təmizləmə, əhalinin məcburi köçü və humanitar böhranla nəticələnib. Təxminən 1 milyon soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Onların 52 faizini qızlar və qadınlar təşkil edib. Bu qadınlar evlərini, ailələrini və təhlükəsizliklərini itirdilər.

Azərbaycanın 1918-ci ildə əksər Avropa ölkələrini qabaqlayaraq, qadınlara səsvermə hüququ verən ölkə olduğunu deyən Sahibə Qafarova ölkəmizin qadınların hüquqlarının və onların ictimai həyatın bütün sahələrində fəal iştirakının təmin edilməyinə sadiq olduğunu söyləyib. Qeyd olunub ki, bu mənada, keçmiş məcburi köçkün və qaçqın qadınlar da istisna deyil.

Milli Məclisin sədri deyib ki, Azərbaycan 2020-ci ildə ərazi bütövlüyünü bərpa etdikdən sonra işğaldan azad edilmiş ərazilərin bərpası, keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına qaytarılması ilə bağlı tədbirləri uğurla həyata keçirir. Bu gün bu ərazilərdə 50 mindən çox insan yaşayır, işləyir və təhsil alır. Qadınlar isə sosial-iqtisadi infrastrukturun yaradılmasında, təhsil və tibb müəssisələrinin fəaliyyətində, davamlı inkişaf, işğaldan azad olunmuş ərazilərdə mədəni irsin bərpası təşəbbüslərinin həyata keçirilməsində fəal rol oynayırlar.

Sahibə Qafarova, vurğulayıb ki, Ermənistan tərəfindən basdırılan 1,5 milyon mina hələ də görülən işlərə əsas maneə olaraq qalır.

**Sahibə Qafarova qeyd edib ki, bütün çətinliklərə baxmayaraq, qadınların iştirakı olmadan dayanıqlı dünya qurmaq mümkün deyil.**

# *Orban: Üçüncü dünya müharibəsi təhlükəsi durmadan artır*



**Beynəlxalq vəziyyətin kəskinləşməsi üçüncü dünya müharibəsinə çevrilə biləcək qlobal münaqişə ehtimalını artırır.**

Adalet.az xarici mediaya istinadən xəbər verir ki, bunu Macarıstanın Baş naziri Viktor Orban Rumıniyanın Beile-Tuşnad şəhərində bildirib.

O vurğulayıb ki, Donald Trampın ABŞ prezidenti seçilməsindən sonra qlobal münaqişə ehtimalı azalsa da, tamamilə aradan qalxmayıb.

"Gərginliyin artmasına səbəb olan amillər arasında beynəlxalq münaqişələrin sayının artması, silahlanma yarışını, ticarət məhdudiyyətlərinin və iqtisadi sanksiyaların güclənməsini, dünyanın hərbi bloklara bölünməsini və kasıb ölkələrdən daha inkişaf etmiş regionlara miqrasiyanın artmasını göstərmək olar", - baş nazir qeyd edib.

**V.Orban əmindir ki, NATO sammitindən sonra alyansla Rusiya arasında hər hansı silahlı münaqişənin üçüncü dünya müharibəsinə gətirib çıxaracağından ehtiyatlanan əksəriyyət formalaşır. O, belə bir eskalasiyaya yol verməməyə çağırıb.**

***AQİL ABBAS***

# "ZA RODİNU! ZA STALİNA!"



**Böyük Vətən Müharibəsində 20 milyon insan bu sözlər uğrunda həlak oldu. Tankların üstünə də yazmışdılar. Özünü tankın altına atan oğlanlar da bu sözləri deyib həlak olurdular.**

Üç ildir davam edən Rusiya-Ukrayna müharibəsində nədənsə heç bir tankın, "Qrad"ın, BMP-nin üstündə "Za Rodinu! Za Putina!" sözlərini oxuya bilmədik. Səngərlərdən atlanıb çıxan, sinələrini gülləyə qabağına verən oğlanlardan da bu sözləri eşitmədik.

Savaşın bu qədər uzanmasına səbəb bəlkə elə budur? Rusiya əsgərləri "Za Rodinu" uğrunda ölürlər, amma deyəsən, "Za Putina" uğrunda ölmək istəmirlər.

## *GÖRƏN, TRAMP UDDU, YOXSA UDUZDU?*



**Dünyanın bir nömrəli "vor zakon" dövlətinin prezidenti Tramp qolf oynamaq üçün Şotlandiyaya beş günlük səfər etdi. Televizyonlar onun təyyarədən düşməyini, müsahibələrini, Fələstin məsələsinə görə Makronu hədələməsini, Avropaya miqrantların köçünün qarşısını almaq üçün verdiyi tövsiyyələri və sair və ilaxır göstərdilər, amma qolf oyunundan reportaj vermədilər. Bilmədik uddu, yoxsa uduzdu.**

Gərək ki, "Qorxulu Tehran"da belə bir yer var. İran şahı bir əyanı ilə nərd taxta oynayır. Şeşxanada dörd daşı qalıb, yalnız qoşa şeş atsa oyunu uda bilər. Gözünü yumub zərləri atır və əyanına deyir ki, gör nə düşüb? Əyan görür ki, "du bir" atıb, tez zərləri dəyişib qoşa şeş düzəldir və təəccüblə deyir:

**- Qibleyi-aləm, şeş qoşa atmısınız.**

## *PAŞİNYAN MƏZUNİYYƏTƏ ÇIXIB*



**Ermənistanın baş naziri Rusiyaya səfərindən sonra, xüsusilə də Mişustinlə söz-söhbətdən sonra deyəsən, bərk yorulub, bəlkə də usanıb. Ona görə də İrəvana dönən kimi məzuniyyət götürüb. Bu onun bir ayın içində götürdüyü ikinci məzuniyyətdir.**

## *TİFLİSDƏ RUSİYA İDMANÇILARINA ETİRAZ NÜMAYİŞİ*



**İyulun 22-dən 30-na qədər qardaş Gürcüstanın başkəndi Tiflisdə Qılıncoynatma üzrə Dünya çempionatı keçirilir. Ayın 27-də Rusiya idmançılarının qaldıqları otelin önündə gecə saat 4-də etiraz nümayişi keçirilib. Göyə fişənglər atılıb, plakatlarda da yazıblar ki, "bu fişəng raket də ola bilər".**

Amma nümayişçilərin atılıb-düşməsinə baxmayaraq, Rusiya qılıncoynadanlarının ikisi qızıl medal alıblar. Özü də ən maraqlısı budur ki, qızıl medal alanlar milliyyətcə ermənidilər.

## *AĞASƏLİM KİŞİNİN OTELİNİ SÖKDÜLƏR*

**Əvvəllər bu otel "Azərbaycan" adlanırdı, sonra adını dəyişib elədilər "Naxçıvan". Deyəsən, bu oteli Paolo Parviz aldı, o da adını qoydu "Hyatt Regensy". Sonra Ulu Öndər bu məsələyə qarışdı, "Naxçıvan" adını yenidən bərpa elədilər, otel oldu "Naxçıvan - Hyatt Regensy".**

Bütün Bakı bilir ki, bu otelin sahibi rəhmətlik Ağasəlim kişi idi. Ağasəlim kişi milyarder İsgəndər Xəlilovun atası idi. Otellə üzbəüz körpünün sağ tərəfində Ağasəlim kişi bir "Çənlibel" restoranı da tikdirmişdi. Sonra Bakı Sovetinin o vaxtkı sədri Aydın Məmmədovu bu restoranda KQB-nin polkovnikləri əməlli-başlı çırpmışdılar. Bundan əsəbləşən Aydın Məmmədov restoranı bağlatdı və yerində şahmat məktəbi açdı. Daha sonra şahmat məktəbini də sökdülər, yerində bağ saldılar, bir də saat quraşdırdılar.

Belə-belə işlər...

# Palata Dövlət Turizm Agentliyində 18,5 milyonluq pozuntu aşkarladı

**Azərbaycan Respublikası Hesablama Palatasının 2025-ci il üçün İş Planına əsasən Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyində (Agentlik) həyata keçirdiyi kənar dövlət maliyyə nəzarəti tədbiri dövlət vəsaitinin və digər dövlət əmlakının idarə olunmasının hüquqi aktlara uyğunluğunun qiymətləndirilməsi məqsədi daşıyıb. Audit 2021-2024-cü illəri əhatə edub.**

Adalet.az xəbər verir ki, auditlə aşağıdakılar müəyyən olunub.

- Auditin əhatə etdiyi 2021-2024-cü illərdə dövlət büdcəsindən ayrılmış vəsaitlərin icrası zamanı bir sıra hallarda Agentliyin tabeliyindəki qurumların fəaliyyətinin maliyyələşdirilməsi ilə bağlı zəruri vəsaitlərin ayrılması fonunda funksiyaların digər qurumlara ötürülməsi hallarına rast gəlinib.

- "Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi haqqında Əsasnamə"də Agentliyin funksional fəaliyyəti və vəzifələri üzrə mütəxəssis (kadr) hazırlığı nəzərdə tutulmadığı halda, Azərbaycan Turizm və Menecment Universiteti ilə Avstriya Respublikasının İMC KREMS Tətbiqi Elmlər Universiteti arasında İMC Transmilli proqramın tərtibi və həyata keçirilməsinə dair bağlanılmış müqavilələrə əsasən 2021-2023-cü illərdə ümumilikdə 899,5 min manat büdcə vəsaiti ödənilib.

- Audit dövründə əhəmiyyətli sayda əməliyyatları əhatə edən 330,0 min manat məbləğində vəsaitlər vahid büdcə təsnifatının tələblərinə əməl edilməyərək funksional və iqtisadi təsnifatın paraqrafları üzrə xərclənməyib.

- Qoruqları İdarəetmə Mərkəzinin müvafiq 4 qoruğunun ərazilərində toplanmış zibil, xəzəl, məişət tullantılarının yığılması, daşınması, ərazilərin süpürülməsi, ağacların əkilməsi, budanması və sair işlərin həyata keçirilməsi ilə bağlı satınalma müqavilələri bağlanılaraq həmin qurumların vəsaitləri hesabına aparılmalı olduğu halda Agentlik tərəfindən auditlə əhatə olunan dövr ərzində 835,5 min manat məbləğində vəsait ödənilib.

- Agentlik tərəfindən "Azərbaycan Turizm Bürosu" və "Qoruqların İdarəetmə Mərkəzi" publik hüquqi şəxslərə 2023-2024-cü illər üzrə vəsaitlərin köçürülməsi ilə bağlı müvafiq müraciətlər



edilməsi və həmin müraciətlərə müvafiq razılıq və ya cavab alınmaması fonunda ümumilikdə auditlə əhatə olunan dövr ərzində 18500,0 min manat məbləğində büdcə vəsaiti ilin sonunda tabelikdəki qurumlara köçürülməklə ilin sonuna bütün xəzinə hesablarının qalıqlarının vahid xəzinə hesabına köçürülməsi ilə bağlı tələbdən yayınıb.

- "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun tələbi pozularaq Agentlik tərəfindən vəsaitlərin akkreditiv hesablarda saxlanılmasına yol verilib. Belə ki, Agentlik tərəfindən bəzi hallarda vəsait büdcəyə qaytarılmayıb. Akkreditiv hesablarda saxlanılmış vəsaitin 3089,7 min manatı 2022-ci ildə, 8789,2 min manatı 2023-cü il ərzində yerinə yetirilmiş iş və xidmətlərə görə bağlanılmış (icra edilmiş), ilin sonuna qalan 965,4 min manat vəsaitdən 921,8 min manatı isə 2024-cü il ərzində yerinə yetirilmiş iş və xidmətlərə görə bağlanılmaqla cəmi 43,5 min manatı büdcəyə qaytarılıb.

- Auditin əhatə etdiyi illərdə Agentliyin mühasibatlığında sabit mühasibat uçotu proqramı mövcud olmamış, dövr ərzində işçilərin əməkhaqqının hesablanması, debitor və kreditorların, anbarın, əsas vəsaitlərin və material ehtiyatlarının uçotunun aparılması, memorial orderlərin işlənilməsi və dövriyyə cədvəlinin hazırlanması müvafiq cədvəl proqramının köməyi ilə həyata keçirilib. Bu, öz növbəsində, maliyyə hesabatlarında təhriflərin də formalaşmasına şərait yaradıb.

- Auditin əhatə etdiyi illərdə yerinə yetirilmiş təmir və bərpa işləri üzrə seçmə qaydada toplanmış audit sübutları ilə smetada nəzərdə tutulmayan işlərin dəyərinin ödənildiyi, bəzi işlərin dəyərinin və həcmlərinin artırılması hesabına podratçıya əlavə vəsait ödənildiyi, eləcə də bir sıra nöqsanlar səbəbindən dövlət vəsaitinin artıq istifadəsinə yol verildiyi müəyyən olunub.

- Respublika səviyyəli tədbirlərin keçirilməsi zamanı bəzi hallarda qüvvədə olan norma və tələblərə əməl olunmayıb, bu və müqavilədə nəzərdə tutulmuş şərtlərin icra edilməməsi artıq dövlət vəsaitinin icrasına səbəb olub.

- Müqavilə öhdəliklərinin icra vəziyyətinə nəzarət olunmaması, eyni zamanda, xarici ölkələrdə təbliğat xarakterli məlumatların yerləşdirilməsi ilə bağlı keçirilmiş satınalmaların, son nəticədə isə bu istiqamətdə fəaliyyətin nəticəliliyinə təsir göstərmiş və vəsaitlərin vaxtında icra edilməsi imkanlarını məhdudlaşdırıb.

*Rüstəm Hacıyev*

## «Nağıl qəhrəmanı» Trampı təhdid etdi



**Bekarçılıqdan başı kompyuter oyunlarına qarışan Rusiyanın keçmiş "podstavnoy" prezidenti, hazırda Təhlükəsizlik şurasının "sədr müavini" kreslosunda oturan Dmitri Medvedev, "X" sosial şəbəkəsində, guya öz aləmində ABŞ prezidenti Donald Trampa xox gəlib.**

**Birləşmiş Ştatların prezidenti dünənki çıxışında Ukraynanın yaşayış məntəqələrini, o cümlədən paytaxt Kiyevi bombaladığına görə, Putindən narazı qaldığını bildirib və ona verilən 50 gün vaxtı, 10 günə endirdiyini bəyan edib.**

**Trampın ultimativ bəyənatı, sosial şəbəkələrin "nağıl qərəmanının" xoşuna gəlməyib və öz səhifəsində bildirib ki, ABŞ prezidentinin bu addımı "onun öz ölkəsi ilə müharibəyə səbəb ola bilər".**

**"Tramp Rusiyaya qarşı 50 gün, 10 gün ultimatum oyunları oynayır. ABŞ prezidenti iki məsələni yadda saxlamalıdır: Birincisi-Rusiya İsrail deyil, heç İranda deyil. İkincisi-hər yeni ultimatum təhdləri müharibəyə doğru atılmış bir addımdır, özü də, Rusiya- Ukrayna müharibəsinə yox, onun öz ölkəsinə qarşı"- deyə Medvedev "X" sosisal şəbəkəsində yazıb.**

**Yadıma bir qohumum düşdü. 15-20 ilin söhbətidir. Maşın sürməyi kompyuterdə öyrənən bu qohumum təzə maşın almışdı. Bir məclisdən çıxanda məni evə aparası oldu. Şəhərdə maşınların arası ilə sağa-sola təhlükəli manevrlər edir, , çoxsaylı qəza vəziyyəti yaradırdı. Dedim, "qaqa çox təhlükəli maşın sürürsən, bir az ehtiyatla sür". Dedi "kompyuterdə hələ mənim maşınımı keçən olmayıb". Yaxşı ki, ev yaxın idi, sağ-salamat evə çatdıq. Lakin, aradan bir ay keçməmişdi, ağır qəza törətdi, maşına ciddi ziyan dəysə də, şükür ki, maşındakılar ciddi xəsarət almamışdı...**

**İndi, Rusiya təhlükəsizlik şurasının "nağıl qəhrəmanı", öz aləmində, ABŞ siahlı qüvvələrini kompyuterdə "əzib keçdiyi Somalinin lox əsgərlərinə" bənzədir və üç il yarımdır Ukrayna ilə müharibədə dolaşıb qalan rus ordusunun ABŞ-ı "əzib keçəcıyini" güman edir.**

**Dmitri Medvedev Rusiya prezidentinin ətrafında toplaşan yeganə "nağıl qəhrəmanı" deyil. Xarici işlər naziri Sergey Lavrov da, ona bənzər bəyənatla çıxış edib. Lavrov, "Teoriya smıslov" (Mənalar nəzəriyyəsi) forumunda bəyan edib ki, "Rusiya Qərblə təkbaşına döyüşür". Rusuya XİN rəhbəri, deyəsən Ukrayna müharibəsində onlarla birgə vuruşan müttəfiqləri, KXDR hərbiçilərini ya unudub, ya da onları saya salmır.**

**"Bizim işimiz as deyil. Əsas işimiz- düşmənə qalib gəlməkdir. Rusiya, tarixində ilk dəfə bütün Qərbə qarşı təkbaşına döyüşür"- deyə rusiyalı diplomat bildirib.**

**Hə, ta Rusiyalı "nağıl qəhrəmanlarının" bu "təhdidlərindən" sonra, inandlğımız haqqı Ağ Evin sahibi Donald Tramp "qorxusundan" yata bilməyəcək...**

# ANAMA azad edilmiş ərazilərdəki yanğınlarla bağlı vətəndaşlara çağırış edib

**Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə son günlər mövsümlə əlaqədar olaraq havaların isti və quraq keçməsi nəticəsində meşə və otlaq sahələrində yanğın hadisələrinin artması ilə bağlı vətəndaşlara çağırış edib.**

Adalet.az xəbər verir ki, çağırışda azad edilmiş ərazilərə vətəndaşların istirahət və ziyarət xarakterli səfərlərinin intensivləşməsi və qayıdış prosesində iştirak edən sakinlərin sayının artması müşahidə olunduğu qeyd edilir.

ANAMA bildirib ki, işğaldan azad olunmuş ərazilərdə olarkən odla davranış qaydalarına ciddi riayət etsinlər:




"Açıq alovdan istifadə zamanı ehtiyatlı davransınlar. Siqaret kötüklərini yerə atmaqdan çəkinsinlər.

Baş verə biləcək genişmiqyaslı yanğın hadisəsi zamanı həmin ərazilərdə atılıb qalan mina və digər partlayıcı sursatlar hərarətin təsirindən işə düşə və yaxınlıqda olan hər hansı bir şəxs və ya şəxslərə ciddi ziyan vura bilər.

Eyni zamanda, qeyd edək ki, Beynəlxalq Minatəmizləmə Standartlarına əsasən süni maneələr və istehkamlar, eləcə də təbii olan bitki örtüyünün heç bir resurslarla təmizlənməsi mümkün olmayan ərazilərdə yandırma fəaliyyəti kimi prosedur mövcuddur. Lakin ANAMA tərəfindən bu kimi fəaliyyət icra edilmir.

İşğaldan azad edilmiş ərazilərdə yanğın və ya mina təhlükəsi halları ilə qarşılaşdıqda dərhal 805, 102 və ya 112 nömrələrinə müraciət etməyiniz tövsiyə olunur. Özümüzü, yaxınlarımızı, təbiətimizi və Vətən torpağını birgə qoruyaq".

# Ev almaq istəyənlərə şad xəbər: Nizamnamə kapitalı artırıldı

**"İpoteka və Kredit Zəmanət Fondunun nizamnamə kapitalı 85.00 milyon manat artırılaraq 1 milyard 153 milyon manata çatdırılıb. Bununla bağlı Azərbaycan Prezidenti fərman imzalayıb".**



Adalet.az xəbər verir ki, bunu iqtisadçı deputat Vüqar Bayramov deyib. O bildirib ki, nizamnamə kapitalının artırılması dövlət büdcəsindən güzəştli ipoteka kreditlərinin maliyyələşdirilməsi üçün 85 milyon manatın ayrılması ilə mümkün olub: Azərbaycan Prezidenti İlham Əliyev hər il İpoteka və Kredit Zəmanət Fondunun nizamnamə kapitalının artırılması ilə əlaqədar müvafiq fərman imzalayır. Dövlət büdcəsindən ayrılan bu vəsaitlər sosial ipoteka kreditlərinin maliyyələşdirilməsi üçün istifadə olunur. Praktik olaraq, hər maliyyə ilində güzəştli ipoteka kreditlərinin verilməsi üçün ayrılmalar olur və həmin ilin payızında vəsait nizamnamə kapitalına əlavə olunur. Bütövlükdə, fondun nizamnamə kapitalı artdıqca daha çox ipoteka kreditlərinin təklifi mümkün olur. Bu eyni zamanda güzəştli şərtlər ilə kreditlərin portfelini də genişləndirir. Deməli, bu daha çox vətəndaşlarımız üçün güzəştli ipoteka krediti götürmək imkanı deməkdir. İndiyədək fond tərəfindən 54 min 918 ipoteka krediti verilib. Verilmiş ipoteka kreditlərinin məbləği isə 3 milyard 560 milyon manatdan çoxdur".

## *Məhkəmə Qabil Məmmədova qiyabi 16 il həbs cəzası verdi*

**Almaniyada yaşayan bloger Qabil Məmmədovun Azərbaycan Cinayət Məcəlləsinin 24 maddəsi üzrə qiyabi məhkəmə araşdırması başa çatıb.**

Adalet.az "Report"a istinadən xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Elnur Nuriyevin sədrliyi ilə keçirilən prosesdə qiyabi hökm elan edilib.

Məhkəmənin hökmü ilə Q.Məmmədovun barəsində 16 il azadlıqdan məhrumetmə ilə bağlı ittihamedici hökm çıxarılıb. Qeyd edək ki, Q.Məmmədov 2015-2017-ci illər ərzində ayrı-ayrı şəxsləri dövlət orqanlarında işə düzəltmək, onlara pensiya və sosial müavinət veriləcəyi adı ilə 10 nəfəri aldadıb. Həmin şəxslərdən 29 597 manat pul alıb.

Həmçinin, Qabil Məmmədov sosial media hesablarından açıq terrorçuluğa çağırışlar edib.

İş üzrə toplanmış sübutların məcmusuna əsasən, ötən il iyulun 17-də Qabil Məmmədova Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 178.2.2, 178.2.4, 182.2.1, 182.2.4, 214.2.1, 214.2.2, 214.2.3, 214-1, 214-2, 32.3, 34.2, 233, 32.3, 34.2, 315, 32.3, 34.2, 186.2.1, 32.3, 34.2, 186.2.2, 32.3, 34.2 və 127.2.1-ci maddələri ilə yenidən ittiham elan edilməsi haqqında qərar qəbul edilib, lakin o, Azərbaycan Respublikası hüdudlarından kənarda olduğundan ona ittiham elan etmək mümkün olmayıb.



Qabil Məmmədova bu ilin yanvarında Binəqədi Rayon Məhkəməsinin qərarı ilə qiyabi həbs verilib.



*İqbal Alısoy*

# Rəhbəri A(a)qil olan "Ə(ə)dalət"in İ(i)radəli baş redaktoru varsa, bu qəzetə zaval yoxdur

**Orijinal bir söyləm var: "Hər bir müəssisə öz rəhbərinə bənzəyər".**

**Zənnimcə, dəqiq təxmin, düzgün müşahidədir. Nəinki hər bir müəssisə, o müəssisədə çalışanlar belə müəyyən mənada müsbət və mənfi tərəfləri ilə öz rəhbərlərinə bənzəyirlər.**

**Mənsə bu illər ərzində ən müxtəlif təşkilatlarda, fərqli düşüncə daşıyıcıları ilə işləmişəm, işləyirəm.**

**Həyatımın ən qaynar çağlarında - 2002-ci ildə - bu gün 35 illiyini qeyd edən "Ədalət" qəzetində fəaliyyətə başladım. Qəzetin ilk səhifəsini vərəqləyəndə onun fəlsəfəsi, kontenti, milli, dövlətçilik mövqeyi və ədalətinə bələd olmaq mümkündür.**

**Qəzetin təsisçisi, hörmətli millət vəkili Aqil Abbası necə tanıyırsınız? Milli, işgüzar, zəhmətkeş, ağsaqqal, ziyalı, baməzə, əliaçıq, ürəyidolu, ədalətli, haqqı nahaqqa verməyən, sözü təkcə sözün deyil, həm də ədalətin gözündən keçirib maraqlı mətn quran, xalqın dilində danışan, xalqın olan, xalqa qalan... Bax, "Ədalət" qəzeti də belədir, bu cürdür.**



Bu bir xalq qəzetidi

ƏDALƏT

www.adalet-az.com

Gündəlik hüquq qəzeti

MİLLİ VALYUTA 1 ABŞ DOLLARINA BƏRABƏR OLACAQ

Azərbaycan prezidenti fərman verib

Mehriban Əliyeva ölkədəki talassemiyalı xəstələri himayəyə götürəcək

RAUF DENKTAŞ "ƏDALƏT"Ə DANIŞDI

"Avropa Birliyi bizə qarşı haqsızlıq etməkdən əl çəksin"

Türkiyədəki xüsusi müxbirimizin Şimali Kipr Türk Cümhuriyyətinin prezidenti Rauf Denktaşla müsahibəsində Kipr probleminin qaranlıq məqamlarına aydınlıq gətirilib. President Rauf Denktaş məsələ ilə bağlı dönməz mövqeyini Azərbaycan oxucularına bu müsahibə vasitəsilə bir daha bəyan edir. Qardaş ölkənin tanınmış şəxsləri ilə müsahibələrini oxucularımıza zaman-zaman çatdıracağıq.

Bugünki meydan isə prezident Rauf Denktaşındır. Onun nə qədər bütöv şəxsiyyət olduğunu bir daha görmək şansınızı qaçırmayın.

XOCALI SOYQIRIMI TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNƏ ÇIXARILACAQ

SAMUX RAYONU İNKİŞAF EDİR

ERMƏNİSTAN BMT-Nİ FİLAN YERİNƏ ALIR Kİ?

**Bu qəzetin hər səhifəsində yuxarıda sadaladığım epitetlərin hər birinə dair mövzu, mətn görmək olar. Çünki "Ədalət" Aqil Abbasın ədaləti, iradəsi və simasıdır. Bu qəzetdən başqa performans da gözləmək olmaz. "Ədalət" qəzetinin tarixi çağdaş Azərbaycanın müstəqlliyi ilə həmyaşıd, hətta böyükdür. Müasir Azərbaycanın hər günü, saatı "Ədalət"in səhifəsində öz təcallasını tapıb.**

**Düzdür, çox qəzetlər, mətbu orqanlar, elektron KİVlər haqqında "Məktəbdir" yarlığı işlədilir, amma "Ədalət" həqiqətən məktəbdir. Özü də bu məktəbdə təlqin olunan tədris heç bir ali təhsil müəssisəsində mövcud deyil. Ali və orta məktəblərdə illik tədris planları olur, "Ədalət"də isə günlük tədris planları var ki, bu da kollektivin, qəzetin intişarı üçün böyük töhfədir. Məsələn, kimsə "Ədalət"in "şinel"indən çıxıb, anti-dövlətçi mövqedə dayanan yazar görə bilməz. Bu gün "Ədalət"dən ayrılıb, ayrı-ayrı təşkilatlarda çalışan onlarla, yüzlərlə tanınan imzalar, mütəxəssislər var. Bu qəzetdə işlədinsə, milli hiss və milli yadaşında qətiyyən boşluq qalmayacaq. Məhz milli dəyərlərin bütün məsələlərin fövqündə dayanması, bu mətbu orqanda milli ideoloji işin yüksək şəkildə təşkili kollektiv arasında da milli ideoloji bağlar yaradır.**

**Bunun nəticəsidir ki, "Ədalət"çilər həmişə milli bağlara sadıq, milli-mənəvi nəsnələrə təşnədirlər. Bu ideologiya kollektiv arasında da mehribanlıq, ismət, və səadət toxumu səpib, səpir.**

**Əlbəttə, bütün bu dəyərlərin qorunmasında, aşılanmasında qəzetin Baş yazarı, Əməkdar jurnalist, publisist İradə Tuncayın da rolu əvəzsiz və danılmazdır. Məhz onun iradəsi və dəsti-xətti sayəsində "Ədalət"çilərin mehribanlığı, peşə etkasına sayğılı yanaşmaları, qəzetçilik ruhunun diri və duru saxlanılmasındakı fədakarlıqları eynəksiz də görünür.**

**Rəhbəri A(a)qil olan qəzetin İ(i)radəli baş redaktoru varsa, bu qəzetə, bu qəzetin işinə, fəaliyyətinə zaval yoxdur.**

**44 günlük Vətən savaşında Azərbaycan Respublikasının 30 illik işğala son qoyub, Qarabağın Azərbaycanın tərkibinə qaytarılmasına dair ədaləti bərpasında "Ədalət" də informasiya cəbhəsində döyüşüb, ədalətin bərqərarında "əlini daşın altına qoyub".**

**Yaşasın "Ə(ə)dalət", var olsun ədaləti bərpa etmiş müstəqil Azərbaycan!**

# FHN: Söndürülməmiş siqaret kötüyü ciddi yanğına səbəb olub

**Siqaretin tam söndürülmədən zibil qutusuna və ya torbasına atılması bariz yanğın təhlükəsi yaradır.**

Adalet.az xəbər verir ki, bu barədə Fövqəladə Hallar Nazirliyinin (FHN) müraciətində qeyd olunub.

Bildirilib ki, hazırda yay fəslinin davam etdiyi qızmar günlərdə tam söndürülməyən siqaretin fəsadları quru hava şəraitində daha ciddi yanğınlara səbəb olur:

"Qeyd etmək lazımdır ki, belə hadisələrdən biri də Bakı şəhəri, Nərimanov rayonu, Aşıq Molla Cümə küçəsi 46 ünvanında baş verib. Adı çəkilən ünvanda Fövqəladə Hallar Nazirliyi Dövlət Yanğın Nəzarəti Xidmətinin yanğın nəzarəti üzrə inspektorları tərəfindən aparılmış ibtidai araşdırma nəticəsində, vətəndaş tərəfindən siqaret çəkilməsi zamanı ehtiyatsızlığa yol verilməsi səbəbindən maddi ziyanla nəticələnən yanğın hadisəsinin baş verdiyi müəyyən edilib. Məlum olub ki, vətəndaş söndürülməmiş siqaret kötüyünü karton qutuların içərisinə atıb, sonradan onun söndürülməsi üçün cəhd göstərsə də, siqaret közünün tam sönməsinə əmin olmadan ərazini tərk etdiyindən nəticədə yanğın hadisəsi baş verib".



Məlumatda qeyd olunub ki, analoji hərəkətlərin digər ərazilərdə də vətəndaşlar tərəfindən təkrarlanma halları istisna edilmir ki, bu da insanların kütləvi toplaşdığı müxtəlif təyinatlı, təhlükə potensiallı, o cümlədən mühüm əhəmiyyətli və həyat təminedici obyektlərdə, meşə və digər təbiət ərazilərində yanğınların baş vermə riskini artırır:

"Təəssüflə vurğulayırıq ki, genişmiqyaslı maarifləndirmə işlərinin aparılmasına baxmayaraq mövcud mənzərə vətəndaşların hələ də səhlənkar davranışlara yol verməsinin nümunəsidir.

Bütün bunları nəzərə alaraq FHN bir daha əhalini xüsusilə havaların isti və quraq keçdiyi yay aylarında yanğın təhlükəsizliyi qaydalarına ciddi riayət etməyə çağırır. Əsas etibarilə açıq ərazilərdə siqaret çəkilməsi zamanı ərazinin yanğına qarşı vəziyyəti düzgün qiymətləndirilməli, söndürülməmiş siqaret kötüyü ətrafa atılmamalıdır. Bəsit bir qayda pozuntusu ciddi və ağır nəticələrə səbəb olan yanğın hadisələrinin başlıca səbəbləridir".

## *Azərbaycanın bir sıra dövlət xadimləri adından saxta açıqlamalar yayılıb*

**Bəzi sosial şəbəkə hesablarında Azərbaycan Respublikasının bir sıra dövlət xadimləri adından "deep fake" texnologiyası ilə hazırlanmış, reallığı əks etdirməyən açıqlamalar yayılıb.**




Bu barədə Adalet.az-a MEDİA-dan məlumat verilib.

"Müəyyən dairələr tərəfindən süni intellektin köməyi ilə hazırlanan və informasiya mühitində yayılan silsilə xarakterli saxta videogörüntülər ictimai rəyi çaşdırmağa yönələn kobud manipulyasiya nümunəsidir.

Cəmiyyəti yalnız rəsmi mənbələrin verdiyi informasiyaya inanmağa, dövlətin rəsmi mövqeyini ifadə edən məlumatları ölkənin informasiya agentlikləri və digər peşəkar media subyektlərindən əldə etməyə çağırırıq.

Azərbaycan vətəndaşlarını, jurnalistləri, ictimai fəalları bu kimi hallara qarşı hər zaman prinsipiallıq nümayiş etdirməyə, saxta və yalan məlumat əsaslı kampaniyaların, "deep fake" texnologiyaları ilə məzmunyaratma tendensiyasının vüsət aldığı bir şəraitdə sayıq olmağa səsləyirik", - məlumatda qeyd olunub.

## *Azərbaycan səhiyyəsi "Kəmər və Yol" forumunda*

**Çin Xalq Respublikasının Sincan Uyğur Muxtar Vilayətinin Urumçi şəhərində keçirilən 6-cı "Kəmər və Yol" Akademik Forumunda Səhiyyə Nazirliyinin Elmi-Tədqiqat Kardiologiya İnstitutunun direktoru Gülnaz Dadaşova və institutun elmi işçisi Vüsal Hacıyev iştirak ediblər.**

Bu barədə Adalet.az-a Səhiyyə Nazirliyindən məlumat verilib.

Forum Çin hökumətinin "Bir kəmər, bir yol" təşəbbüsü çərçivəsində tibbi və elmi sahələrdə beynəlxalq əməkdaşlığın genişləndirilməsinə həsr olunub.

Tədbir, həmçinin Sincan Uyğur Muxtar Vilayətinin 70 illiyi və Çinin 14-cü Beşillik Planının yekun mərhələsi ilə üst-üstə düşüb.

Forumda çıxış edən Gülnaz Dadaşova Azərbaycanda icbari tibbi sığortanın tətbiqindən əvvəl və sonra səhiyyə sahəsində baş verən dəyişikliklərdən bəhs edib. Vüsal Hacıyev isə ürək-damar xəstəliklərindən ölüm hallarının azaldılmasında kardioloji xidmətin rolu ilə bağlı təqdimatla çıxış edib.

Təqdimatlar iştirakçılar tərəfindən maraqla qarşılanıb. Forum çərçivəsində Gülnaz Dadaşova ilə Sincan Xalq Xəstəxanasının direktoru Yan Yin arasında əməkdaşlığa dair memorandum imzalanıb.

Bu sənəd Azərbaycan səhiyyəsinin beynəlxalq nüfuzunun artmasına və əhaliyə göstərilən tibbi xidmətlərin keyfiyyətinin yüksəldilməsinə xidmət edəcək.

## *DTX imtahan şəbəkəsini ifşa etdi - Saxlanılanlar var*

**Ali məktəblərə qəbul imtahanlarında müsbət nəticə əldə etmək məqsədilə bir sıra abituriyentləri xüsusi gizli texniki avadanlıqlar komplekti (mikroqulaqcıq, mikrokamera, mini telefon, naqil, Mi-Fi routeri və s.) ilə təchiz edən şəbəkə ifşa olunub.**

Adalet.az xəbər verir ki, onlar Dövlət İmtahan Mərkəzinin müraciəti əsasında Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən görülmüş tədbirlərlə müəyyənləşdirilərək saxlanılıblar və barələrində DTX-də cinayət işi başlanılıb.

Bu barədə Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüz özünün sosial şəbəkə hesabında paylaşım edib.

Qeyd edilir ki, göstərilən məsələ bəzi abituriyentlərin nəticələrinin ləğv olunması ilə nəticələnib.

## *Səfir: Bakıda yəhudilər özlərini Parisdən daha təhlükəsiz hiss edirlər*

**Bakıda yəhudilər özlərini Parisdən daha təhlükəsiz hiss edirlər.**

Adalet.az xəbər verir ki, bunu diplomatik missiyasını başa vurmadan əvvəl son brifinqi zamanı jurnalistlərə İsrailin Azərbaycandakı səfiri Corc Dik bildirib.

"Mənim üçün Bakıda yəhudilərin özlərini nə qədər təhlükəsiz hiss etdiklərini görmək xoş sürpriz oldu. Hətta Beyrut və Paris küçələrindən daha çox. 2019-cu ildə, Azərbaycan Prezidenti İlham Əliyevlə ilk dəfə görüşəndə, o, bir yəhudinin Bakı küçələrində Parisdən daha təhlükəsiz gəzə bilməsi ilə qürur duyduğunu söylədi. O zaman haqlı idi və bu gün daha da haqlıdır", - səfir vurğulayıb.

Diplomat xüsusilə qeyd edib ki, Azərbaycan mürəkkəb regional vəziyyətə baxmayaraq, ölkə daxilində mehriban qonşuluq və millətlərarası həmrəylik ənənələrini qoruyub saxlayır.

"Azərbaycan mənə İsrailin olduğu vəziyyəti xatırladır: çox mürəkkəb bir regionda, birgə yaşamaq asan olmayan qonşularla yaşamaq. Siz Yaxın Şərq ölkələri arasında vasitəçi kimi çıxış edən, Avropaya enerji təchiz edən və NATO-nun strateji tərəfdaşı olan çiçəklənən bir ölkə qura bildiniz", - Corc Dik bəyan edib.

O vurğulayıb ki, Azərbaycan qeyri-dost qonşularla əhatə olunub, lakin bu, dövlətin tərəqqi və inkişaf yolunda inamla irəliləməsinə mane olmur.

Sonda səfir həmçinin Azərbaycan mətbəxini yüksək qiymətləndirib və artıq turist kimi ailəsi ilə birlikdə Azərbaycana qayıtmaq planlarını bölüşüb.

## *XİN başçısı: İran nüvə proqramından imtina etməyəcək*

**Kimin tələb etməsindən asılı olmayaraq, İranın nüvə proqramından imtina etmək niyyəti yoxdur.**

Adalet.az xəbər verir ki, bu barədə İranın xarici işlər naziri Abbas Araqçi "X" sosial şəbəkəsində yazıb.

"Ağlı başında heç kim öz həyatımızı xilas edən dinc texnologiyamıza böyük sərmayələrin faydalarından imtina etməz - xüsusən ona görə ki, təxribatçı əcnəbilər bunu tələb edirlər", - deyə o bildirib. Nazir İsrail və ABŞ son zərbələri nəticəsində İranın nüvə obyektlərinə ciddi ziyan dəydiyini təsdiqləyib, lakin onun sözlərinə görə, bu, iranlıların dinc nüvə proqramı üzərində işi davam etdirmək əzminə təsir etməyib.

# Ermənistan ixracında fantastik artımlar...

**Bu araşdırma "Qeyri-hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi"nin maliyyə dəstəyi ilə "Ekonomiks" Beynəlxalq İqtisadi Araşdırmalar İctimai Birliyi tərəfindən "Ermənistanın idxal-ixrac əməliyyatlarının iqtisadi təhlili" mövzusunda reallaşdırılan layihə çərçivəsində yazılan üçüncü məqalədir.**

Ermənistanın idxal-ixrac əməliyyatlarının iqtisadi təhlilinə dair ikinci araşdırmamızda biz Rusiya - Ukrayna müharibəsi başladıqdan sonra Ermənistanda idxalın həcminin kəskin şəkildə artımınından geniş söhbət açdıq (https://musavat.com/news/muharibede-uduzan-ermenistan-7-milyardliq-qizil-brilyant-niye-alir-professorun-sensasion-arasdirmasi_1178549.html). Bu araşdırmamızda isə son 5 ildə Ermənistanın xarici ticarət dövriyyəsində ixracın həcminin fantastik artmından bəhs edəcəyik.

Biz Ermənistanın idxalındakı fantastik artımları eynilə bu ölkədən ixracının həcminin artımında görə bilirik. Ermənistan Dövlət Statistika Komitəsinin rəsmi internet saytında apardığımız araşdırma nəticəsində əldə etdiyimiz faktlara müraciət edək. Apardığımız araşdırma göstərir ki, Ermənistanda 2020-ci ildə idxal məhsullarının ümumi dəyəri 2 milyard 537 milyon ABŞ dolları olmuşdusa, bu rəqəm 2021-ci ildə əvvəlki illə müqaisədə 18,9% artaraq 3 milyard 16 milyon dollara, eyni qaydada 2022-ci ildə 79,7% artaraq 5 milyard 419 milyon dollara, 2023-cü ildə 57,8% artaraq 8 milyard 552 milyon dollara, 2024-cü ildə isə 53,6% artaraq 13 milyard 137 milyon dollara çatmışdır. Bir sözlə, son 5 ildə Ermənistanda idxal məhsullarının həcmin 10,6 milyard dollar və ya 518,0% (5,2 dəfəyə yaxın) arta bilmişdi.

Daha çox diqqət çəkən məqam budur ki, 2020-ci illə müqaisədə 2024-cü ildə Ermənistanın ixracında təbii və ya mədəni mirvarilər, qiymətli və ya yarı qiymətli daşlar, qiymətli metallar kimi məhsulların həcmi fantastik səviyyədə arta bilmişdir. Yəni bu məhsulların ixracının həcmi 2020-ci ildə 368,8 milyon dollar təşkil edirdisə, 2024-cü ildə eyni məhsulların Ermənistandan ixracının həcmi 8,0 milyard 42 milyon dollardan çox olmuş, daha doğrusu 5 il ərzində 7 milyard 673 milyon dollar və ya 2180,6% (21,8 dəfə) artmışdır. Sual olunur, əgər Ermənistan iqtisadiyyatında təhlillə



əhatə etdiyimiz 2020 - 2024-cü illər ərzində gerçəkdən yüksək artımlar baş veribdirsə, o halda nədən biz belə artımları Ermənistan iqtisadiyyatının xarici ticarət dövriyyəsindən dollayı digər sahələrində və onun Dövlət büdcəsində müşahidə edə bilmirik?

Göstərilən illər ərzində şişirdilmiş xarici ticarət dövriyyəsinin "köməyi" ilə belə Ermənistan iqtisadiyyatında baş vermiş artımlar bu ölkənin idxal və ixrac əməliyyatlarında baş verən artım templəri ilə müqaisə edilməyəcək dərəcədə aşağı olub.

Bütövlükdə isə bu illər ərzində Ermənistan iqtisadiyyatının bəzi sahələrindəki cüzi artımlar nəzərə alınmasa, ölkənin iqtisadiyyatı durğunluq dövrünü yaşayıb.

Bir daha Ermənistan Dövlət Statistika Komitəsinin rəsmi internet saytından əldə etdiyimiz əlahəzrət faktlara nəzər salaq. Ermənistanın ümumi daxili məhsulu 2020/2024-cü illər ərzində 16 milyard 105 milyon dollardan 26 milyard 556 milyon dollara yüksəlmiş, daha doğrusu, bu illər ərzində 10,5 milyard dollar və ya 64,9% böyümüşüdür. Ermənistan Dövlət büdcəsinin gəlirləri də müqaisə aparılan illər ərzində 4 milyard 58 milyon dollardan 6 milyard 706 milyon dollara qədər yüksəlmiş və ya müvafiq olaraq 2 milyard 648 milyon dollar və 65,3% artmışdır. Lakin bu illər ərzində Ermənistanın xarici ticarət dövriyyəsi 7 milyard 101 milyon dollardan 30 milyard 202 milyon dollara qədər yüksəlmiş və ya müvafiq olaraq 23,1 milyard dollar və 425,3% (4,2 dəfə) arta bilmişdi. Böyük paradoksdu, deyilmi? Belə anormal iqtisadi mənzərəyə dünyanın heç bir ölkəsində rast gəlmək mümkün deyil. Ancaq Ermənistan hökuməti əsassız idxal-ixrac şişirtmələrini bir-birinə calayaraq göstərilən dövrdə belə bir iqtisadi "sıçrayış" əldə edə bilibdir.

Layihə çərçivəsində növbəti araşdırmamızla biz Ermənistan İqtisadiyyatında baş vermiş "bumun" əsasını təşkil edən, onun şişirdilmiş xarici ticarət dövriyyəsinin ayrı-ayrı məqamlarını incələməklə bu ölkənin iqtisadi "sıçrayışının" əsas səbəblərini açıqlayacağıq.

**Fikrət Yusifov**
**İqtisad elmləri doktoru, professor, "Ekonomiks" Beynəlxalq İqtisadi Araşdırmalar İctimai Birliyinin sədri**

# Xaricdə yaşayan İmaməddin Əlimanovla bağlı hökm elan olunub



**Dövlət əleyhinə yönələn açıq çağırışlarda təqsirləndirilən, xaricdə yaşayan bloger İmaməddin Əlimanovun cinayət işi üzrə məhkəmənin yekun prosesi keçirilib.**

Adalet.az xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Hüseyn Hüseynlinin sədrliyi ilə keçirilən prosesdə qiyabi hökm oxunub. Hökmə əsasən, İmaməddin Əlimanova 7 il müddətinə azadlıqdan məhrumetmə cəzası təyin edilib.

Qeyd edək ki, İmaməddin Əlimanov Cinayət Məcəlləsinin 12.1 281.2-ci(dövlət əleyhinə yönələn açıq çağırışlar təkrar törədildikdə) maddəsi ilə ittiham olunur. 2019-cu ilin aprel ayından başlayaraq 2021-ci ilin may ayınadək olan müddət ərzində vahid niyyətlə müxtəlif vaxtlarda "youtube"" sosial media hesabında "Xalq tv" adlı kanal təsis etməklə həmin kanalda, o cümlədən "Osmanqızı tv" və "İnqilab tv" kanallarında yerləşdirdiyi videomüraciətlərində və çıxışlarında digərləri ilə qabaqcadan əlbir olan bir qrup şəxs halında Azərbaycan Respublikasında hakimiyyətin zorla ələ keçirilməsinə, zorla saxlanılmasına, eləcə də Azərbaycan Respublikasının konstitusiya quruluşunun zorla dəyişdirilməsinə yönələn açıq çağırışlar etməsinə və bu cür məzmunlu materialları yaymasına əsaslı şübhələr müəyyən edilib.

**İmaməddin Əlimanov istintaqdan qaçıb Azərbaycan Respublikası hüdudlarından kənarda gizləndiyindən ona ittiham elan edilməsi mümkün olmadığı üçün 27 may 2021-ci il tarixli qərarla barəsində axtarış elan edilib və Bakı şəhəri Binəqədi Rayon Məhkəməsinin eyni tarixli qərarı ilə həbs qətimkan tədbiri seçilib.**

# İrandan PUA ilə Azərbaycana narkotik keçirilməsinin qarşısı alınıb

**İrandan PUA ilə Azərbaycana narkotik keçirilməsinin qarşısı alınıb.**



Bu barədə Adalet.az-a Dövlət Sərhəd Xidmətindən məlumat verilib. Bildirilib ki, iyul ayının 28-də Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Horadiz" sərhəd dəstəsinin xidməti ərazisində aparılmış sərhəd axtarışı və əməliyyat tədbirləri nəticəsində külli miqdarda narkotik vasitənin pilotsuz uçuş aparatı (PUA) vasitəsilə İran İslam Respublikasından Azərbaycan Respublikası ərazisinə keçirilməsinin qarşısı alınıb.

Axtarış tədbirləri nəticəsində sərhədyanı sahədən ümumi çəkisi 12 kiloqram 100 qram narkotik vasitə marixuana və 399 ədəd narkotik tərkibli metadon M-40 həbi aşkar olunaraq götürülüb.

**Səxavət Məmməd**

# Azərbaycanla Rusiya arasında gərginliyin...



**Rusiyanın təkcə Azərbaycanla yox, ümumiyyətlə, Cənubi Qafqaz ölkələri ilə arasında xüsusi bir gərginlik hökm sürür.**

**Bu gərginliyin hər ölkə ilə fərqli səbəbləri olsa da, mahiyyəti Rusiya üçün eynidir - orbitdən çıxan ölkələri geri qaytarmaq, yaxud təsir dairəsində saxlamaq. Məsələyə Rusiya tərəfdən yanaşsaq, vəziyyətin bu həddə olmasında Rusiya səhvi öncə özündə axtarmalıdır. Qarabağ müharibəsi bitər-bitməz Ermənistan öz ərazisinə Fransanı dəvət etdi, ardınca Avropa İttifaqının mülki missiyasını, daha sonra ABŞ hərbçilərini. Rusiya bütün bunlara göz yumdu, yaxud, erməni tərəfinin addımlarını ciddiyə almadı, şıltaqlıq kimi dəyərləndirdi və quru bəyanatlarla ötüşdürdü. Məsələ o həddə gəlib çıxıb ki, artıq adına Zəngəzur dəhlizi qoyduğumuz "Bir kəmər, bir yol" layihəsinin Ermənistandan keçəcək hissəsində ABŞ şirkətinin oturacağı ciddi şəkildə müzakirə olunur. Rusiyada biri çıxıb rəsmi Moskvadan soruşmur ki, prosesin bu həddə gəlib çıxmasına niyə şərait yaratdınız?**

**Ermənistanla Azərbaycan arasında sülh danışıqlarına da eyni yanaşmanın şahidi oluruq. Soçi, Moskva, Vaşinqton, Brüssel arasında var-gəl edən danışıqlar birdən birə Abu-Dabiyə keçirildi. Rusiyanın ədalətli sülhü yaratmaq imkanı var idi? Hesab edirəm ki, ədalətli yanaşması olsa idi, mütləq şəkildə bu sülh müqaviləsi imzalanardı. Ancaq Rusiya nəinki ədalətli yanaşmadı, ümumiyyətlə, bildirirdi ki, sülh müqaviləsinin bağlanması hələ erkəndir. Rəsmi Moskva bunun da cavabını özündən soruşmalıdır. Gürcüstanla da eyni. Rusiya özü şərait yaradır, onun təsir dairəsində olan dövlətlər uzaqlaşır, özünü müstəqil aparır, proses idarəolunmaz həddə çatanda ayılır və ən sonuncu variant olan hərbi müdaxiləni həyata keçirir. Bunu Gürcüstanda, Moldovada da, hazırda davam edən Ukrayna müharibəsində də gördük. İndiki mərhələdə Azərbaycanla da, Ermənistanla da Rusiyanın davranışı oxşarlıq təşkil edir.**

**Azərbaycan Rusiya gərginliyi Ermənistanla Rusiya arasında olan gərginlikdən fərqlənir. Rusiya Azərbaycanla olan gərginliyi nəinki miqrant, hətta öz vətəndaşı olan azərbaycanlılar üzərindən aparır. Rusiyanın Azərbaycan daxilinə yönəlik bəyanatlarına da rast gəlmirəm. Hansısa ekspert, politoloq səviyyəsində səslənən fikirləri bir kənara atıram. Ona qalsa, Azərbaycanda da bəzi politoloq və ekspertlər artıq Rusiyanın bir hissəsini işğal edib. Çox şükür, onları nə Rusiyada, nə də Azərbaycanda ciddiyə alan yoxdur. Rusiya hüquq mühafizə orqanları, demək olar ki, hər gün azərbaycanlılara qarşı əməliyyat keçirir. Bu əməliyyatlar barədə araşdırdıqlarımı, bildiklərimi yazmağın tərəfdarı deyiləm.**

**İnsanlar bezib, malını-mülkünü qoyub ən son variantda öz vətəninə qayıdacaqlar və qayıdırlar da. Rusiya ölkə daxilinə birbaşa olmasa da, dolayı yolla təsir edir. Necə? Rusiyada yaşayan azərbaycanlıların neçə faizi Rusiya xüsusi xidmət orqanları qarşısında öhdəlik götürüb, iltizam sənədinə qol çəkilib? Bunu deyə bilmərik. Onlar Azərbaycanda gəlib hansı addımlar atacaq, əvvəlcədən bunu da proqnoz etmək çətindir. Rusiyanın birbaşa ölkə daxilinə yönəlik addımlar atmaması onu deməyə əsas verir ki, məsələ iki ölkə lideri arasında həll olunacaq cinsdəndir. Ermənistanla bağlı məsələ isə tamamilə fərqlidir. Rusiya birbaşa Paşinyan hakimiyyətini hədəf alıb, kilsəni açıq şəkildə müdafiə edir. Yəni Rusiya Ermənistanda hakimiyyəti devirmək yönündə artıq fəaliyyətə keçib desək, yanılmarıq.**

**Rusiyada bəzi ekspert və politoloqlar hərbi müdaxilə yolunu önə sürürlər. Rusiyanın Cənubi Qafqaza hərbi müdaxilə imkanlar var? Azərbaycan bəzi ekspert və politoloqların dili ilə desək, yoxdur. Çünki onlar əminliklə deyir ki, Rusiya tükənib, ordusu döyüşmək gücündə deyil, döyüşməyə adam tapmır. Qərb proqaqandasının ştatlı, yaxud könüllü nümayəndələrinin nə dediyini qoyaq bir kənara, biz Qərbin özünün hansı işlər gördüyünə baxaq. Demək, Polşa Rusiya təhdidindən qorunmaq üçün ordusunun sayını artırdı, əlavə silah, sursat, aviasiya vasitələri alır. Almaniya Rusiya təhdidinə qarşı ordusunu, müdafiə qabiliyyətini gücləndirmək üçün dəridən-qabıqdan çıxır, Fransa da onun kimi. Böyük Britaniya hətta milyonlarla vəsait xərcləyib Rusiya hücumunun simulyasiyasını belə test etdi. O zaman sual yaranır, dağılan, tükənmiş orduya görə bu qədər hazırlıq nəyə lazımdır? Ya bizim ekspert və politoloqlarımız Avropa ölkələrinin kəşfiyyatından daha ağıllıdır, onların başı xarabdır, ya da bizimkilər özləri dəlidir, bizi dəli yerinə qoyublar.**

**Rusiyanın hərbi müdaxilə imkanları var, bunu danmaq olmaz. Beynəlxalq hüquq, beynəlxalq münasibətlər, hansısa ölkələrlə müttəfiqliyin boş və mənasız bir şey olması Ukraynaya hücumla yerlə bir oldu. 1994-cü ildə Rusiya, Ukrayna, Böyük Britaniya və ABŞ-nin imzaladığı Budapeşt Protokolu ilə rəsmi Kiyevə heç bir ölkənin Ukraynaya qarşı güc tətbiq etməyəcəyi, ölkənin suverenliyinə və mövcud sərhədlərinə hörmətlə yanaşılacağına dair söz verildi. Nəticə göz qabağındadır.**

**Rusiya ilə münasibətlərin niyə bu həddə gəlib çatması barədə çoxlu sayda fərziyyələr irəli sürmək olar. Ancaq rəsmi Moskvanın bəyanatlarında səbəblərdən daha çox iki ölkə arasına başqa bir ölkənin girməsi məsələsi ön plana çəkilir. Rusiya ekspert və politoloqları da bunun üzərindən keçir, elə bizimkilər də. Rusiya dolayısı ilə sanki Azərbaycana "düzgün seçim et" mesajı verir. Azərbaycanla Rusiya arasında gərginliyin uzun müddət davam edəcəyini düşünmürəm. Müstəqillikdən bu yana onsuzda iki ölkə arasında münasibətlər dalğalı olub. Ancaq Ermənistanla bağlı Rusiyanın radikal addımlar atma ehtimalı hər keçən gün artır.**



Faiq QİSMƏTOĞLU
faiqqismetoglu@box.az

# Həkimin də ürəyi...

**Biz uşaq olanda elə bilirdik ki, müəllim çörək yemir... Seyid adamlar ölmür... Həkim xəstələnmir... İllər keçdi, böyüdük və gördük ki, biz heç də düz düşünməmişik; yəni müəllim çörək yeyir, Seyid adamlar ölür, həkimlər xəstələnir... Bilirsiniz, uşaqlıq illərini niyə yada saldıq?! Bir neçə həftə bundan əvvəl dostumuz və qardaşımız, tibb elmləri namizədi Rafiq Yusifli xəstələnmişdi...**

**Və bir balaca ürəyində narahatlıq yaranmışdı. Bu narahatlığı da onun kardioloq dostları qısa zaman kəsiyində aradan qaldırmışdılar. Dostumuzun narahatlığını eşidib, mobil telefonuna zəng vurdum.Telefonu açan kimi dedi ki, narahat olma, yaxşıyam. Səsindən də hiss edirdim ki, durumu pis deyil. Amma buna baxmayaraq, bildirdim ki, sabah gəlib sizi ziyarət edəcəm...**



**Əziyyət olar, - dedi. - Qardaş, nə əziyyət, heç bir əziyyət yoxdu, əziyyəti bizim yolumuzda siz çəkmisiniz! Söhbətimizin səhəri onlara getdik. Qapının ağzında xanımı ilə üzləşdik. Gülərüzlə, doğma insan kimi bizi səmimiyyətlə qarşıladı və evə dəvət elədi. Sonra da üzr istəyərək, həkimə gedəcəyini bildirdi. Rafiq həkim də bizim gəlişimizdən çox sevindi...**

**Mənzilə keçib, əyləşdik. Və başladıq ötən günləri yada salmağa... Uşaqlığından danışdı... Bəhmənlidə keçən uşaqlığından... Axı onun anası Bəhmənlidəndi... Rafiq kəndin köhnə kişilərini yada saldı: Xanlar kişini, dayım Dayanduru, atam Qisməti xatırladı... Həm özü kövrəldi, həm də biz!!! Şükür Allaha, vəziyyəti lap yaxşı idi... Xəstəlikdən bir kəlmə də danışmadı... Amma gözəl söhbət elədi... Övladlarından, nəvələrindən danışdı... Maşallah, həkimin övladları və nəvələri də çox istedadlıdı...**

**Bal kimi şirin söhbətimiz uzun çəkdi... Füzulidə işlədiyi illəri yenidən yada saldı. Həkim dostlarının adını və soy adlarını bir-bir çəkdi, gözləri doldu... Nə isə... Onun durumunun yaxşı olduğunu görüb çox sevindim... Evə qayıtdıqdan sonra ondan bir mesaj gəldi. Mesajda yazmışdı ki, dostlar və xəstələrim məndən soruşurlar ki, axı sən həm kardioloq, həm də şairsən, bəs ürəyin niyə ağrıyır!**

**Mən də onlara cavab yazdım ki, ağrıyan həkim ürəyim deyil, şeir yazan ürəyimdi... Nə gözəl! Rafiq həkim, heç vaxt ürəyiniz ağrımasın, çünki bu ürəkdən minlərlə ürək işıq, güc alıb və bundan sonra da alacaq!!!**

## Yeni Günəşlidə su niyə qəhətə çıxıb?



**Yay gələndə həmişə Bakıda su problemı yaranır. Paytaxtın elə yaşayış sahələri var ki, ilboyu orda ya su qıtlığı yaranır, ya da su verilmir.**

İsti yay günlərində bunun nə demək olduğunu suyu gəlməyən sakinlər daha yaxşı bilir. İndi də göydən " od yağır". Belə bir havada bir çox yaşayış yerlərinə su verilmir. Camaat " su" - deyib yalvarır. İri Şəhərlərin Su Təchizi Xidməti isə bu problemlərin həllinə nail ola bilmir. Yalan vədlərlə, boş sözlərə sakinləri aldadır və " yola verir". Bu isə birmənalı olaraq qanun pozuntusu olmaqla yanaşı, həm də məsuliyyətsizlikdir.

Məsələn, Yeni Günəşlidə on gündən çoxdur ki, əksər binalara su ya verilmir, ya da veriləndə gecə saat 12- də verilir. Bundan da , çox insanın xəbəri olmur və qonşulardan eşidir ki, gecə binaya su verilib. Suyun bir kubmetri bir manata satılır. Təbii ki, bu az qiymət deyil.Qiymətlər qalxanda aidiyyatı qurum deyirdi ki, suyun keyfiyyəti artacaq, xidmət yüksələcək. Amma suyun nə keyfiyyəti yaxşılaşdı, nə də xidmət yüksəkdi.

Görünən odur ki, bu qurum yalan vədlərlə sakinləri aldadacaq, əhalini davamlı olaraq su ilə təchiz etməyəcək! İnsanlar isə mənzillərində suyun verilməsini gözləyirlər.Qoy gözləsinlər görək bu işlərin axırı necə olur. Bəlkə insafları olub su verdilər!!!

**EMİL FAİQOĞLU**

## Sürücülər maarifləndirilməlidir...



**Bu gün Azərbaycanda əksər sürücülərin maarifləndirilməsinə böyük ehtiyac var.**

Çünki onlarla söhbət ediləndə, onlarla ünsiyyətdə olanda bir çox problemlər öz həllini asanlıqla tapır. Amma gərək onlar da bu maarifləndirmə tədbirlərindən nəticə çıxarmalıdır. Yay mövsümünün gəlişi ilə əlaqədar olaraq, nəqliyyat vasitələrində müəyyən texniki qüsurları, problemlər yaranır.Çox təəssüf ki, bəzi sürücülər nəqliyyat vasitələrinin texniki göstəricilərinə diqqət yetirmir, müəyyən olunmuş müddətdə onları texniki baxışa təqdim etmirlər. Heç şübhəsiz ki, bu da qısa zaman kəsiyində mövcud nöqsanları üzə çıxarır.

Belə ki, ya texniki cəhətdən sıradan çıxmış avtomobil yarıyolda qalır, ya da maşında qəfil yanğınlar baş verir. Bu da birmənalı olaraq sürücülərin və orda olan sərnişinlər həyatı üçün təhlükə yaradır. Baş Dövlət Yol Polisi İdarəsinin avtotexniki -müfəttişlik şöbəsinin rəisi, polis polkovniki Xalid Əzimov deyir ki, nəqliyyat vasitələrini texniki cəhətdən saz saxlamaq hər bir sürücünün vəzifəsidir.O, ildə bir dəfə avtomobili texniki baxışa təqdim etməlidir və texniki müayinə zamanı aşkar olunan mövcud nöqsanları, qüsurları sürücü vaxtında aradan qaldırmalıdır. Əfsuslar olsun ki, bəzi sürücülər nəinki bu nöqsanları aradan qaldırır, heç nəqliyyat vasitələrini texniki müayinəyə belə aparmırlar.

Bu barədə biz mütəmadi olaraq sürücülər arasında izahat işləri aparır və onların maarifləndirilməsi diqqət mərkəzində saxlanılır. Son vaxtlarda ya bəzi avtomobillərdə yanğınlar olur, ya da onlar texniki cəhətdən sıradan çıxıb, hərəkətin intensiv olduğu yolda qalır. Bu isə digər nəqliyyat vasitələri üçün qəza şəraiti yaradır. Ona görə də biz belə sürücülər arasında təbliğat və təşviqat işləri aparırıq ki, onlar çətin durumdan çıxa bilsinlər.Havaların isti keçməsi ilə əlaqədar olaraq avtomobillərin mühərrikində , elektrik naqillərində yaranmış texniki nasazlıq zamanı yanğınlar baş verir. Ona görə də sürücülər bu məsələlərə diqqət yetirməli, avtomobillərdə odsöndürən avadanlıq saxlamalıdır.Ən başlıcası isə maarifləndirmə işləri öz nəticəsini verməli, onlar yol polisinin, o cümlədən bizim xəbərdarlıqlarımıza , tövsiyələrimizə əməl etməlidirlər!

## Yeni Günəşlinin bərbad yolları...



**Deyirlər ki, Yeni Günəşli qəsəbəsi paytaxtdan uzaq olduğuna görə, ora bir o qədər də diqqət yetirmirlər.**

Amma bu məsələyə heç də birmənalı yanaşmaq olmaz. Çünki elə sahələr var ki, orda vəziyyət yaxşıdır. Amma bu sözləri Yeni Günəşlinin yolları haqqında demək olmaz . Ən azından ona görə ki, qəsəbənin yollarında çala- çuxur çoxdur. Yolların belə bərbad olması yol- nəqliyyat hadisələrinin baş verməsinə münbit şərait yaradır.Üstəlik də " Ballı market" dən Suraxanı Tibb Mərkəzinə qədər piyada səkisi də yoxdur! Belə də olanda piyadalar yolun hərəkət hissəsinə çıxırlar. Ümumiyyətlə, Yeni Günəşlidə piyada səkiləri çox azdır.Əsas məsələ odur ki, qəsəbənin yolları heç də ürəkaçan deyil. İnanmaq istərdik ki, əlaqədar qurumlar tezlikdə Yeni Günəşlidə avtomobil yollarını əsaslı surətdə yenidən inşa edəcək və mövcud nöqsanları aradan qaldıracaqdır.

## 142 və 96 nömrəli marşrutlar...



**Heç kimə sirr deyil ki, Bakıda bir neçə marşrutda hərəkət edən avtobuslar fiziki və mənəvi cəhətdən köhnəlib, istismar müddətin başa çatdırıb və dayanacaqlara gec çatır. Belə avtobusları gözləyən sərnişinləri isə bezir, vaxt itirir və əsəbləşir.**

Bax sərnişinlərin narazılıq etdiyi marşrutlardan biri də 142 və 96 nömrəli avtobuslardır. Bu avtobuslar istismar müddətin çoxdan başa çatdırıb. Amma buna baxmayaraq, hər iki sahibkar avtobus parkın yenilənmir və yarsız avtobuslardan istifadə edirlər. Hər gün bu marşrutdan istifadə edən sərnişinlər xidmətin səviyyəsindən narazılıq edirlər. Onlar deyirlər ki, bu avtobuslarda kondisioner yoxdur və oturacaqlar bərbad vəziyyətdədir. Bunlara birtəhər dözmək olur. Amma onların dayanacaqlara gec gəlib çatmasına dözmək mümkün deyil. Biz də dünən hər iki marşrutda işləyən avtobusdan istifadə etmək istədik. Amma çox əsəbləşdik. Belə ki, 142 nömrəli avtobusu dayanacaqda düz 20 dəqiqə gözlədik, ancaq gəlib çıxmaq bilmədi. Əlacımız kəsiləndən sonra başqa nömrəli marşrutdakı avtobusa əyləşdik. Sonra gəlib 96 nömrəli avtobusu gözlədik.O da gəlib çıxa bilmədi. Dayanacaqdakı sərnişinlər dedilər ki, 20 dəqiqədir bu avtobusu gözləyirik, gəlib çıxmaq bilmir.Axır ki, biz də onu gözlədik.30 dəqiqədən sonra avtobus gəlib çıxdı. Sərnişinlər isə əsəbini sürücünün üstün tökdü. Sürücü isə dilləndi ki, mən neynim, interval belədir. Mənim hər iki marşrutdan istifadə edən sərnişinlərə lap yazığım gəldi. Biz bir dəfə hər iki marşrutdan istifadə elədim əsəbləşdik. Bax onda görün bu avtobuslardan hər gün istifadə edənlər necə əsəbləşir və nələr çəkir!!!

## Onları gün vurur...



**Son günlərin istisi lap dəhşətdir.Hər yerdə olduğu kimi, Bakıda da havanın temperaturu çox yüksəkdir. Təbii ki, belə hava şəraitində günün altında işləyən adamlar özlərini qorumalıdır.**

Xüsusilə də, mənzil tikintisində çalışan və açıq havada işləyən insanlar bu cür çətinliklərlə üzləşirlər. Mövcud qaydaya görə , müsbət 40 dərəcə isti olarsa, günün altında işlər dayandırılmalıdır. Çox təəsüf ki, bəzi Mənzil Tikinti Kooperativləri isti havada qanunları pozur, fəhlələri günün altında işlədirlər! İyulun 24- də saat 13:15 dəqiqədə Yeni Günəşlidə ( köhnə hərbi hissənin yanında) tikilən çoxmərtəbəli binada fəhlələr günün altında işləyirdilər. Hansı ki, belə bir isti havada, günün altında çalışmaq qanun pozuntusudur! Dövlət Əmək Müfəttişliyi bu qanun pozuntusunu görsə,heç şübhəsiz, qanun pozuntusuna görə, tikinti şirkəti inzibati məsuliyyətə cəlb edər! Hər halda, kimliyindən və hansı şirkət olmasından asılı olmayaraq, bütün hüquqi, vəzifəli şəxslər qanuna əməl etməlidir!

## İlanlar çoxalıb...



**İsti havaları ən çox sevən canlılardan biri də ilanlardır. Və onlar bu isti günlərdə özlərini günə verir, bir yerdə qıvrılıb yatırlar. Təbii ki, ilanlardan da ən çox ziya çəkən insanlardır. İlanların yayda sevdiyi və yatdığı yerlər var.**

Bu yerlər haralardır? Bu yerlər otların, kolların, daşların arasıdır. Ən çox da tarlada, bostan- tərəvəzdə iş görərkən ilanlar adamları çalır. Ona görə də, həmin sahələrə iş görməyə gedərkən uzunboğaz çəkmədən istifadə edilməlidir. Bir dostum deyir ki, bostanda becərmə işləri görürdüm,ayağımda da , uzunboğaz çəkmə vardı.Bir də gördüm ayaqqabımdan bir ilan yapışıb.Əlimdəki kərki ilə ilanın başını əzdim. Əgər uzunboğaz çəkmə geyməsəydim, olan məni vurmuşdu.Bu respublikamızda ən çox gözə dəyən gürzə ilanlardır və ilanlar çox zəhərlidir. Bu təhlükəyə görə də, insanlar özlərin qorumalıdır.Və bir də ilan vuran adama kömək edərkən bunlar yadda saxlanılmalıdır: ilan vuran yeri çərtmək olmaz,sıxmaq məsləhət deyil, sadəcə olaraq həmin yerə yod, ya spirtlə təmizləməli və təcili zərərçəkmişi xəstəxanaya çatdırmaq lazımdır.Heç şübhəsiz , bütün bunlar qabaqlayıcı tədbirlər kimi dəyərləndirilir!!!

## Avtomobildə yanğın baş verirsə...



**Biz yayı çox sevirik, amma bu isti aylarında öz çətinlikləri mövcuddur.Heç şübhəsiz ki, yayda bəzi nəqliyyat vasitələrində havalar isti olduğu üçün texniki nasazlıq səbəbindən yanğınlar baş verir.Bu yanğınlar avtomobilin mühərrikində, elektrik xəttəlrindəki və şinlərdəki texniki nasazlıqdan yaranır.**

Ona görə də, hər bir sürücü bu məsələləri diqqət mərkəzində saxlamalı və maşında nasazlıq hiss etdikdə mövcud texniki qüsurları vaxtında aradan qaldırmalıdır! Dövlət Yol Polisi İdarəsinin ictimaiyyətlə əlaqələr şöbəsinin inspektoru Elvin Hacıyev mövcud nöqsanlarla bağlı sürücülərə öz tövsiyəsin verib.

Elvin Hacıyev əməkdaşımıza bildirib ki, hər bir sürücü nəqliyyat vasitəsini texniki cəhətdən saz saxlamağa borcludur. Son vaxtlar bir neçə avtomobil ya durduğu yerdə, ya da hərəkətdə olarkən yanıb. Bu isə birmənalı olaraq hər bir sürücüyə maddi ziyan vurub. Ona görə də, bütün sürücülər diqqətli olmalı, avtomobili texniki cəhətdən saz saxlamalı, nəqliyyat vasitələrində yanğın təhlükəsizliyi qaydalarına əməl etməli, hər cür tələblərə cavab verən odsöndürən avadanlıq saxlamalıdır. Əgər bu texniki tələblərə əməl edilsə, bu isti yay günlərində avtomobillərdə yanğın baş vermaz!Ona görə də, bir daha sürücülərə tövsiyə edirik ki, onlar bizim dediklərimizi diqqət mərkəzində saxlasınlar, mövcud vəziyyəti vaxtında qiymətləndirsinlər!



**EMİL FAİQOĞLU**



Sədaqət Kərimova,
Əməkdar jurnalist

# QONAQPƏRVƏRLİK - HƏYAT TƏRZİDİR

## (Ləzgilərin etnoqrafiyası)

Şəhər məni sıxanda, tıxaclardan və səs-küydən bezəndə maşınıma minib tək-tənha hər hansı bir kəndə yola düşürəm. Yalnız təbiətin gözəlliklərini ruhuma çəkmək üçün yox, sadə insanlarla tanış olmaq, onlarla söhbətləşmək üçün. Hər dəfə də mənən saflaşıb geri qayıdıram. Məni bu doğma yerlərdə ən çox heyran edən bilirsinizmi nədir? - Qonaqpərvərlik. Ən kasıb ailədə belə bir loxma pendir-çörəyi elə məhəbbətlə adamın qabağına qoyurlar ki, şəhərdə ən zəngin ailədə yediyin plovdan sənə daha ləzzətli görünür.

Bəli, Qafqazda qonaqpərvərlik təkcə nəzakət qaydası deyil. Bu, dağ xalqlarının minilliklər boyu formalaşmış həyat tərzidir. Ləzgilərdə qonaqpərvərliklə bağlı çoxsaylı mərasimlər və ayinlər var. Qonaq - qapıdan içəri girən adi bir insan yox, xeyirxahlıq, xoş niyyət elçisidir, taleyin göndərdiyi qismətdir. O, eyni zamanda ev sahibinin mənəviyyatını əks etdirən güzgüdür.

Qafqazın digər xalqları kimi, ləzgilərin də qonaq qarşılamaq adəti ayrıca bir mərasimdir. Bu, dərin məna kəsb edən, nəsillərin yaddaşı ilə yoğrulmuş, qarşı tərəfə səssiz, lakin dərin ehtiram bəxş edən hörmət əlamətidir. Qonaq qarşılamaq yalnız sevinc deyil, həm də bir sınaqdır, mənəvi borcdur.

Ləzgi qonaqpərvərliyinin kökləri qədim dövrlərə - ev yalnız ailə üzvləri üçün deyil, həm də yoldan ötüb gedən hər bir qərib üçün də tikilən vaxtlara gedib çıxır. Ona görə də bütün evlərdə qonaq üçün ayrılmış ayrıca guşə olardı. Burada qonağın istirahəti, yeməyi və yatmağı üçün hər cür şərait yaradılardı. Sonralar bu guşə ayrıca otaqla əvəz olundu. Ləzgilər ona "tavdin kval" "qonaq otağı" deyirlər. Bu otaq hər bir ləzgi evinin ən yaraşıqlı və zəngin otağı sayılır. Evin ən gözəl xalçaları, ən rahat yorğan-döşək, ən gözəl qablar bu otaqda qonaq üçün saxlanır. Hər evdə qonaq üçün saxlanan ərzaq ehtiyatı olur. Onlardan ailə üzvləri istifadə edə bilməz.

Ləzgilər arasında belə bir məsəl var: "Qonaq gəldi - bərəkət gəldi". Bu, sadəcə gəlişi gözəl sözlər deyil, bu, bir həyat düsturudur. Başqa bir ləzgi məsəlində deyilir: "Qonaqla evə Tanrı da gəlir". Bu, heç də mübaliğə deyil. Ləzgi evlərinin qapısı təkcə qohuma, qonşuya deyil, yolu bu kənddən keçən hər bir qərib insana da açıqdır.

Ev sahibi qonağı xoş üzlə qarşılayır, əl-üz yumaq üçün isti su verir və onu evin yuxarı başına



aparır. Qadınlar dərhal qonaq üçün yemək hazırlamağa girişirlər. Əgər evdə heç nə yoxdursa, un, yağ və qatıqla hazırlanan yemək bişirilir. Əgər ailə oruc tutubsa, bunun qonağa dəxli yoxdur - qonaq istisnadır, ona olan münasibət - ailənin şərəfidir. Əgər qonaq evdə süfrəyə yemək verilən vaxt gələrsə, bütün ailə üzvləri dərhal yerindən durur, ən hörmətli yeri qonağa verir. Qonağın qabağına yemək qoyulana kimi heç kəs əlini süfrəyə uzatmır. Bu zaman evin uşaqları sakitcə oturur, söhbətə qarışmır. Belə tərbiyə ilə böyüyən uşaqlar üçün qonaq ailə şərəfinin rəmzinə çeyrilir.

Qonağın gəlişi ilə evdəkilərin səs tonu da dəyişir - yumşaq, xoş və təmkinli olur.

Ev sahibləri qonağa hörmət əlaməti olaraq tez qonşu otağa keçib əyinlərini dəyişirlər. Kişi çərkəzi geyinir, qadın səliqəli örpək bağlayır. Ləzgilər deyirlər ki, qonağı qəbul etmək - insanın özünə olan hörmətinin göstəricisidir.

Ənənəvi ləzgi cəmiyyətində qonaqpərvərlik heç vaxt dinlə, etnik mənsubiyyətlə və ya sosial statusla bağlı olmayıb. Əksinə, dağ kəndinə yolu düşən hər bir yolçu sığınacaq və qorunma hüququna malikdir. Ev sahibinin vəzifəsi yalnız onu yedirtməkdən ibarət deyil, həm də təhlükəsizliyinə cavabdeh olmaqdır. Bu, şərəf və vicdan məsələsidir. Qonaq - müqəddəs sayılır.

Qədim təsəvvürlərə və xalqın formalaşdırdığı həyat qanunlarına görə, qonaq - düşmən də olsa, qapıdan içəri girən andan etibarən toxunulmazdır.

Belə şəxs, hansı məqsədlə gəlməsindən asılı olmayaraq, qonaq kimi qəbul edilir - onun qabağında yemək süfrəsi açılır, qalması üçün yer verilir. Bütün bunlar sükutla müşayiət olunur. O, bu evdən çıxandan sonra münasibətlər əvvəlki məcrasına qayıda bilər. Amma nə qədər ki, qonaqdır - toxunulmazdır.

Bu adət xalq diplomatiyasının özünəməxsus bir formasıdır: çörək kəsib barışmaq, çay içə-içə qarşılıqlı anlaşmaya nail olmaq buna misaldır.

Kəndlərdə hələ də belə bir qayda mövcuddur: əgər kimsə axşamüstü, ya da pis havada küçə ilə gedirsə - onu mütləq kiminsə evinə dəvət edirlər. Yaşlı və hörmətli şəxslər isə bəzən bir neçə evin "qonağı" sayıla bilər - hər kəs onu qəbul etmək istəyər.

Müasir həyat tərzi kəndlərdə, xüsusilə də şəhərlərdə çox şeyi dəyişsə də, ləzgi qonaqpərvərliyi hələ də milli xarakterin başlıca xüsusiyyətlərindən biri olaraq qalır. Böyük şəhərlərə üz tutmuş gənclər belə, böyüklərin öyüd və nəsihətlərini unutmur: "Nə qədər məşğul olsan da, paylaş, kömək et, qonağı süfrə arxasında oturt".

"Yaran suvar" (Bahar bayramı") və "Tsükerin suvar" ("Çiçək bayramı") kimi ləzgi xalq bayramları bu gün də birgə süfrələrlə, milli rəqslərlə, ənənəvi yeməklərlə keçirilir - iştirak edən hər kəs arzu olunan qonaqdır.

Texnologiyalar dövrü bir çox dəyərləri dəyişib. Amma dağ kəndlərində bu qədim adət hələ də yaşayır. Uzaqdan gələn yolçunu görəndə uşaqlar qışqırışır: "Qonaq gəlir!" Bir neçə dəqiqəyə yerə xalı sərilir, samovar qaynayır, xörək bişirilir. Qonaq hələ çatmayıb - amma artıq onu gözləyirlər.

Ən çox isə bu qonaqpərvərlik xalq bayramlarında özünü göstərir. Açıq havada böyük süfrələr qurulur, kim olduğunun fərqi yoxdur - yerli, ya gəlmə- sən, orada xoş qarşılanırsan.

Qonaqpərvərlik - özünəməxsus ünsiyyət dilidir. Harada ortaq dil yoxdursa - yemək var. Harada ortaq keçmiş yoxdursa - çörək var. Bu qədim ləzgi ənənəsi - təkcə məişət deyil, bir mədəniyyət çağırışıdır. O deyir: "Bir-birimizə hörmətlə yanaşdıqca - biz insanıq".

Dünyada bağlı qapıların çoxaldığı, insanların bir-birindən uzaqlaşması adət halına çevrildiyi indiki zamanda mən teztez Qusardakı evimizi və rəhmətlik atamı xatırlayıram. Olduqca qonaqqaralı olan evimizdə gecə qalan qonaqlar çox olardı. Biz sual vermədən, onların qarşısında süfrə açar, yemək gətirərdik. Atam bizə qonağı ac yatırtmağın günah olduğunu bir dəfə izah eləmişdi, artıq bu, bizdən ötrü qanun idi. Atamın sözləri hələ də qulağımdadır:

Qapını qonağın üzünə xoş üzlə aç;

"Sən kimsən, niyə gəlmisən?" sualını vermə;

"Acsanmı?" - deyə soruşma, yeməyini səxavətlə qonaqla bölüş.

Qonaqpərvərlik - məişətin göstəricisi deyil, - həyat tərzidir. Bu, ruhun dili, insanlığın səsinə çevrilmiş bir dəyərdir. Ləzgilər və Qafqazın digər xalqları bu dəyəri əsrlər boyu cilalayıb. Dünyanın sərtləşdiyi bu dövrdə, ləzgi adəti - qapını açmaq, süfrə salmaq, dinləmək və bölüşmək - unudulmaz və əbədi dəyərlərin işığı kimi qalır.

Məzahir ƏHMƏDOĞLU

# QOÇULUĞUN LEQALLAŞMASI..?



... Bir var qoçaq adam, qoçaqlıq, bir də var qoçu , qoçuluq. Əlbəttə, məna baxımından deyil , ilkin olaraq yazılış və səslənmə baxımından uzaq bir assosiasiyaya oxşarlıq təsiri yarada bilir bəlkə də. Hələ bir "qaçaq" sözümüz də var ki artıq tamam arxaikləşərək folklorumuzun, dastanlarımızın uzaq-uzaq keçmişlərində qalıb eləcə .

Nə isə, Qoçu! Burada ilkin olaraq yadımıza nə düşür? Bəli, dahi Üzeyir bəy Hacıbəyovun " O olmasın, bu olsun" komediyası. Qoçu Əsgər,Bakı qoçuları! Sözsüz ki, başqa yerlərdə də "qoçu" adlandırılanlar və ya özünü qoçu adlandıranlar olubdur.Onları hansı əməllərinə görə qoçu deyə fərqləndirirdilər? Həm də axı qoçu heç də qoçaqlığa sinonim kimi səslənmirdi, qoçu heç də düzgün və gerçək güc balansını tamamlamırdı. Bir zamanlar mentalitetimizdə yaşamağına baxmayaraq tam anlaşılmayan bu qoçuluqlar adi məişət zəminində baş verən hadisələrin ironik təcəssümü idi. Necə ki, bütün bu anlaşılan və anlaşılmayan "özündənqoçu" mental formulunu Üzeyir bəy açıb qoymuşdu ortalığa. Məşədi İbadın , Soltan bəyin, digər sadəlövh adamların üstünə hörüldəyən qoçu Əsgər başqa bir Bakı qoçusunun " qaçma köpəkoğlu" təhqir və ora-bura açılan silah səsləri altında qaçıb arvad hamamına girmək istəyir ("QOÇU !!!). Əlinə keçən çarşabı başına salıb tində Rüstəm bəylə rastlaşır. Daha sonrası hamıya məlumdur...

Qoçu! O tək gəzmir, yan-yörəsində qoçu kimi tanınmaq, özünü göstərmək istəyənlər də var.

Və kulminasiya! Üzeyir bəyin bütövlükdə dünya ədəbiyyatını altından vurub üstündən çıxsan da bənzəri olmayan dahiyanə misraları: " Aç qapını, gələk səni öldürək!.. " Yox-yox , bu nə ironiya deyil, nə yumor , nə satira, nə sarkazm deyil, nəsə bütün bunların hamısından üst qatda dayanan ayrı bir yöndür.Komediya da deyil, heç faciə də deyil!

Dahinin ruhu qarşısında baş əyərək qoçu söhbətinə yekun vurmaq istəyirəm. Əbəs yerə deyilməyib ki, çadırlarda Üzeyir Hacıbəyovlar doğula bilməz... (Aqil Abbas)

İronik səslənməsinə və anlaşılmasına baxmayaraq respublikamızın bəzi yerlərində tək-tük də olsa Qoçu adlı kişilərin yaşaması barədə məlumatlar , faktlar var. Məsələn, mən Göyçay rayonunda vaxtilə Qoçu adlı adamları hətta şəxsən tanımışam. İkisi elə məşhur Bığır kəndindən idi. Hər halda mən elə bilirdim daha bu adda adamlar qalmayıb, heç kəs uşaqlarına bu cür anlaşılmaz ad qoymaz...

Bu yaxınlarda işimlə bağlı gözəl rayonlarımızdan birinə getmişdim. Rayon mərkəzində "saqqallı" bir reklam diqqətimi cəlb etdi.

Aman, bu nə idi belə? " Qoçu Abbas market" ! Bir daha Üzeyir bəyi düşünərək yoluma davam etdim. Yarım saat ərzində "qoçu" sözü ilə başlayan daha üç belə reklama rastlaşdım. İstədim, həmin yerlərin sahibləri ilə görüşüb söhbətləşəm, bunların hardan peyda olduğunu öyrənəm, istədim fotolarını telefona köçürəm, istədim ... Heç nə istəmədim, heç nə də etmədim. Məmməd Oruc demişkən " ... çıxıb getdim , qaardaş".

## Ali məktəblərə ixtisas seçiminin vaxtı məlum oldu



Ali təhsil müəssisələrinə qəbul olmaq üçün ixtisas seçimi bütün ixtisas qrupları üzrə 2025 ci il avqustun 11-dən 19-dək olan müddətdə aparılacaq.

Bu barədə Adalet.az-a DİM-dən məlumat verilib. "Abituriyent" jurnalının 4 saylı buraxılışı, həmçinin "İxtisas seçimi zamanı nələrə diqqət yetirməli" kitabçaları seçim başlanana qədər nəşr olunacaq.



Əbülfət MƏDƏTOĞLU
madatoglua@mail.ru

# Sən Allaha əmanətim

## Həyatımın görünməyən tərəfindən bir not

Yadımdadı, şeirlərimin birində yazmışdım ki, "Şəhər dolu adamdı, Adam axtarıram mən"... Bunu elə-belə xatırlamıram mən. Ümumiyyətlə, ömrün payızında adam daha çox xatırlamalara, xatirələrə üz tutur, olmuşların qapısını döyür, bir az da səmimi desəm, ölmüşləri xatırlayır. Görünür, bu həyatın yazılmamış qanunudu. Axı, hər birimizin bildiyi bir gerçək var. O gerçəyin də canı bundan ibarətdir ki, insan doğulanda iməkləyir, əllərini, dizlərini torpağa qoyur, sonra başlayır yeriməyə. Yəni, qəddini düzəldir və böyüdükcə də boyu da uzanır. Sonra... Sonra insan başlayır əyilməyə, daha doğrusu, onun qəddi əyilir, özü də yavaş-yavaş. Çəliyə, əsaya söykənir və ...

Və yenə qayıdır torpağa tərəf. Əllərini, dizlərini qoyduğu torpağa başını əyir, qəddini qatlayır... Mənə görə bu, torpaqdan ucalıb torpağa dönüşün bəlli marşrutudu, yoludu. Və hər kəs də bu yolu keçir. Ona görə də həmişə səsləndirilən, yeri gəldi-gəlmədi vurğulanan bir sözü, bir fikri mən də bu yazımda xatırladıram. Deyirlər ki, ölümdən qaçmaq olmur. Mən də deyirəm ki, ölümdən nə qədər qaçırsan qaç, amma torpaqdan qaçmaq olmur! Göyərdən, bitirən təzədən qollarını açır özünə çəkir, bağrına basır göyərtdiyini, bitirdiyini. Onun üçün də burda fərq yoxdur. O insan kim olur-olsun, hansı mərtəbəyə qalxır-qalxsın, ünvan, son duracaq torpağın qoynudu...



Bax, bu mənada mən şəhərdə adam axtarıram deyəndə, çevrəmin necə boşaldığını, ətrafımın necə seyrəldiyini hiss edə-edə, görə-görə o hisslərdən ayrıla bilmirəm. Şəhərdə axtardığım adamların çoxu indi son ünvandadı. Ürəyimdə olan adam isə ürəyimin sahibi kimi öz istəyinin, arzusunun, məqsədinin yolunda. Deməli, yenə bu şəhərdə tək qalan və təkliyinin içində də adam axtaran mənəm. Bu təklikdən qurtuluşun yolunu kim harda, nədə görür bilmirəm. Mənsə yalnız dörd divarla, Allahla və bir də Sənlə danışmaqda bir təsəlli tapıram, bir işıq üzü görürəm. Bu təsəlli də, o işıq da bütün hallarda hər şeyi kino lenti kimi gözümdən keçirməklə gəlib yenə qələmdə, vərəqdə dayanır. Bəlkə də bu mənim həyatımın ən böyük təsəllisi, ən böyük özəlliyidi ki, qələm, vərəq var. Mən heç kimə demədiyimi yalnız Sənə və Allaha bəlli olanları qələm vasitəsilə vərəqə köçürürəm və yazıram:

*Barışa bilmirəm, sənsiz günlərin*
*Bütün ağrıları çökür canıma.*
*Mən bir ovuc torpaq, həsrət də bulud -*
*Sıxır leysanını, tökür canıma...*

*Əhvalım pozulub, dincliyim itib,*
*Qarşımda cavabsız suallar bitib...*
*Hayıma qəm gəlib, göz yaşı yetib -*
*Onu da ürəyim bükür canıma...*

*Xəyalım xatirə dalınca gedib,*
*Qələmi vərəqlə həmsöhbət edib...*
*Bilmirəm, hörmətmi, ya töhmət edib -*
*Hakimdi, qor büküb fikir, canıma...*

Bəli, insanın sirr yeri, sirdaşı olanda fikir bölüşməyi də sadə şəkildə desəm, dərdləşməyi də rahat olur. Bölüşülən fikir, qəm, kədər müəyyən mənada iç dünyanı bir az rahatlayır. Özünü bir az həmin o bölüşdüklərindən xilas olmuş kimi hiss edirsən. Bunun da iki səbəbi var. Birincisi, kimsə səni dinlədi, ikincisi də səni dinləyən hansısa bir şəkildə sənə yardımçı oldu. Ya məsləhət verdi, ya təsəlli, ya da heç nə olmamış kimi laqeydlik göstərdi. Bunların hər biri də özü-özlüyündə psixoloji vasitədi. Dərdini bölüşən, fikrini bölüşən həmin o psixoloji sınaqdan keçir. Ondan nə isə götürür, yararlanır və nəticədə də içinə, ürəyinə bir yüngüllük hava kimi dolur, sərinləşdirir onu. Beləcə özü də bilmədən, özü də hiss etmədən gəldiyi kimi də sağollaşıb gedir. Amma gedəndə bölüşdüyünü aparmır. Ona görə ki, sirdaşı onunla həqiqətən sirr bölüşdü, sirrini yarıladı. Və...

Deməli, bu payız günlərinin havası da elə payızın özünə oxşayır. Adamı saralmış yarpağa da çevirir, gözlərində yaz ümidi də oyadır. Ona görə də qərar vermək, hətta geyimini seçmək belə çətin olur. Xüsusi ilə cibində təzyiq dərmanı gəzdirənlər bu havanın dilini öyrənə bilmirlər. O cümlədən də mən. Nəticədə haldan-hala düşmək, özünə yer tapa bilməmək adi bir işə çevrilir. Bu durumun adını qoymaq da çətinləşir. Neyləmək olar. İnsan bütün hallarda dözməyə, dəyanət göstərməyə məhkumdur. Əks halda büdrəmək, yıxılmaq çox asan ola bilər. Mən öz üzərimdə, öz həyatımda yaşadıqlarımı və müşahidələrimi müəyyən dövrdə qeydə almağa maraq göstərmişəm və sonda görmüşəm ki, təbiətlə anlaşmaq, ona qarşı çıxmaq heç də asan deyil. Çünki o bizi əhatə edir, biz onu yox. Bu da sonda daxili rahatsızlığa, hətta bəzən adamın özünün özündən bezməsinə gətirib çıxarır. Baxmayaraq ki, işin də var, evin də var, güzəranın da var. Amma həmin o sağlamlıqla bağlı yaşadığın anlar, streslər bunların hamısından güclüdü. Güclü olan da təbii ki, qalibdi. Bax, mənim gəldiyim son nəticə də məhz bundan ibarətdi:

- Qalib olanın mühakiməsi yadıma gəlmir. Nə kitablarda, nə də həyatda...

İndi, reallığın içərisində, təkliyimin, tənhalığımın güc gəldiyi bu məqamda həmin o qalib olan, mühakimə edilməyən durumun etdiyi diktəyə boyun əyərək bir gözüm təzyiq ölçəni, o birisi də dərman axtarır. İnanın ki, bu, gerçəklikdi. Özü də tez-tez təkrarlanan gerçəklik. Mən özümün nəyə qadir olduğumu, nəyə gücümün çatdığını yaxşı bilirəm. Bu mənada, sağlıqla bağlı yazdığımın mənim gücümdən kənar olduğuna şübhəniz qalmasın. Amma onu da yazmalıyam ki, Allah, O və dörd divar bir çox hallarda köməyimə çatıblar. Hətta onu düşünəndə, içimdə onunla söhbət edəndə qəribə məqamlar yaşanır. Və yazmışam:

*Ürək səndən danışırdı,*
*Sözünün üstünə gəldin.*
*Göz də yaman səyriyirdi -*
*Gözünün üstünə gəldin...*

*Ruhunu ovcuna alıb,*
*Sahildə xəyala dalıb...*
*Gördün ki, ortada qalıb -*
*Özünün üstünə gəldin.*

*Üzünü tutmuşdu göyə,*
*Dönmüşdü dilsiz bir neyə...*
*Alovun söndürüb niyə -*
*Közünün üstünə gəldin?!*

Fikirlərimi, düşüncələrimi kağıza köçürəndə də, bilgisayara diktə edəndə də həmişə ağlıma hakim olan, ürəyimin şah damarında qərar tutmuş bir fikir, bir söz, lap gerçək bir bənd şeir məni divara dirəyir. Yəni, yaşadıqlarıma, yaşantılarıma görə sorğu-sual edir məni. O bənd belədir:

*Alıb fikir qanadında -*
*Hara daşıyırsan məni?!*
*Sən öz gizli həyatında -*
*Belə yaşayırsan məni?!*

Doğurdan da, mənim nə yaşadığım, lap dəqiqi, niyə yaşadığım ətraf üçün o qədər önəmli deyil. Buna əminəm. Ən yaxşı halda onlar üçün sıradan biri kimi olmağım bir tanışın, bir yaxının mövcudluğu deməkdi. Amma Allahım və Sənin üçün niyə, necə yaşamağımın yəqin ki, anlamı başqadı, yozumu fərqlidi. Bu mənim fərdi, özəl qərarımdı. Yaşamımdan, həyatımdan çıxartdığım nəticədi. Ola bilsin ki, yanılıram. Amma bütün hallarda yüzə yüz əminəm ki, mən Allahım və Sənin üçün məhz olduğum kimi olmuşam. Yəni, varlığım həmişə gözümüzün önündə, qarşımızda olubdu. Hələ ki də belədir. Bu məqamda Allahı da, Səni də Allaha əmanət edirəm.



Ayaz Arabaçı

# İndi hər şey mənasız

Bir vaxtlar heç belə düşünməzdim. O qədər işıqlı ümidlər, sonsuz üfüqlər vardı ki..

Adam gənc olanda, həyatın nə qədər qaranlıq, nə qədər sarsıdıcı ola biləcəyini ağlının ucundan belə keçirmir. Fikri-zikri əyləncələrdə, qızlarda olur. Hesab edir ki,heç qocalmayacaq, zaman sadəcə bir axındır, onu da məğrur addımlarla keçib gedəcək. Halbuki zaman sənə hiss etdirmədən səni yavaş-yavaş udan bir timsahdır.

Çöldə hava isti və cansıxıcıdır. Bir yana çıxmağa həvəs yox. Otağım tör-töküntü.. Orda-burda səpələnmiş kitablar..Bir vaxtlar nə zülmlə əldə etmişəm bunları, indi hərəsi bir tərəfdə, biri ağzıüstə, biri dalıüstə..

İndi hər şey mənasız.

Deyəsən kainat da bir boşluğun içində, bir mənasızlığın içində hamı kimi başını girləyir. Dərin fikirlərə qərq olmuş hambalsayağı ağlıma gələn şeylər üşəndirir məni. Deyəsən mənalı sandığımız hər şeyi yalnız yaşamaq üçün uydururuq. Heç bir məqsədimiz yoxdur, ya da varsa biz bilmirik.

Pəncərəni açıram, çöldən isti hava dolur. Kaş bu hava qışda dola deyirəm, çöldən qaz sayğacının ironiyalı qəhqəhəsi gəlir)

Zamanla hər şey dağılır:
İnanmağa Bir şey qalmır,
Sevdiklərin yoxa çıxır,
İçindəki məsum hisslər ölür.

Qalır yalnız səninlə hesablaşmayan bir dünya və hər gün bir az da zəhlən gedən güzgülər.

Və günlər Cəbiş müəllimin arvadının bağrına basdığı tank kimi üstündən keçir.

Pəncərə hələ açıq.. Kondisionerin sərin havasından çölə ərməğan edirəm.

Yoldan bir qırmızı jiquli keçir, necə deyərlər polnu xodda:

Görəsən dünyaya nöş gəlib insan.
Axmaq fikirlərin cilovunu buraxmışam:
-Bəlkə də bu həyat deyil,onun kölgəsidir.

Düşünürəm, bəlkə insan yalnız anlamadığı şeylərlə yaşayır və başa düşdüyü anda hər şey ölür. Uşaqlıq niyə gözəl idi? Çünki heç nəyi anlamırdıq, heç bir şeyi başa düşmürdük.

İndi isə hər şeyi anlayacaq qədər bezmişik.

Və bu əslində ölümə yaxın olan yeganə həqiqətdir..

Bir vaxtlar heç belə düşünməzdim...

Deyirlər ki, həyat bir imtahandır, bir tapşırıqdır onu tamamlamalıyıq. Amma bu mənasız bir yalandır.



Coşqun Xəliloğlu

# MƏCHUL

(YUMOR)

Çoxmərtəbəli binada yaşayırıq. Səhər sübhdən işə gedib qaş qaralanda qayıtdığımdan qonşuların çoxunu düz-əməlli tanımıram.

Bazar günü idi. Həyətimizdə 9-10 yaşlı uşaqla rastlaşdım. O, gülümsünərək;

-Əmi, salam.

Uşağın salam verməyinə çox sevindim.

-Salam.

-Əmi, adınız nədir?

-Adımı neynirsən, bala?

-Anam soruşur.

-Anan adımı neynir?

-Bacımın toyudu, Sizi də çağırmaq istəyir. Deyir ki, sakit adamdı, çağırsaq gələcək.

Qonşuların xeyir-şərində iştirak etmək yaxşı işdir. Amma heç vaxt ünsiyyətdə olmadığım, adımı bilməyən qonşumun - heç mən də onun adını bilmirəm - məni hansı düşüncə ilə toya çağırmaq istəməsini, "Sakit adamdı, çağırsaq gələcək." məntiqini başa düşmədim. Əsəbləşsəm də bürüzə verməməyə çalışdım:

-Adım bu günə kimi Sakit idi. İndi gedirəm, "Asan Xidmət"ə. Adımı dəyişdirib "Məchul" qoyacağam, deyib uzaqlaşdım.

Bəlkə də inanmayacaqsınız. Axşamüstü idi, evə yenicə qayıtmışdım. Qapı döyüldü. Açdım, həmin uşaqdı, mənə dəvətnamə uzatdı. Zəif səslə, mübarəkdi, -dedim, dəvətnaməni alıb, açdım. Məchul müəllimi toya dəvət etmişdilər.

# Hələki Bakıdayam...

**Bu gün Bakının yayı təkcə günəşin yandırması ilə deyil, həm də Bakının asfalt küçələrinin od püskürməsi adamın bütün əhval-ruhiyyəsini alt-üst edir. Lap obrazlı desəm, göydən də od tökülür, yerdən də od qalxır. Belə məqamda bəzilərinin klima, bəzilərinin kondisioner kimi təqdim etdiyi cihazın da sözü boğazında qalır, hayımıza çata bilmir. Amma soyuq su satanların işi başdan aşır. Necə deyərlər, suyu soyutmağa macal tapmırlar. Nə isə...**

İndi öz-özümə fikirləşirəm ki, günün bu günündə, bu saatında, bu anında mənim doğulduğum kənddə, beş barmağım kimi tanıdığım bulaqların başında əyləşsəm nə bu isti yadıma düşər, nə də bu istinin əli gedib oralara çata bilər. Çünki o yerləri, o bulaqları dağlar da, meşələr də, elə Allahın özü də böyük lütflə qoruyur. Ona görə də soyuq bulaqların bumbuz suyu dodaq göynədir və o göynərti adamın təkcə canından deyil, yadından da istini bütünlüklə çıxarır.

Əslinə baxanda isti, ılıq anlayışları həm gərəklidi, həm də müəyyən bir zərurətdi. Çünki adamın evi, ocağı isti olanda, ətrafında ılıq münasibət olanda və o bu istiliyin, bu ılıqlığın içərisində yaşayanda həyat da mənalı olur, onun həyatı da. Çünki onu anladıqları kimi o da anlayır, onu duyduqları kimi o da duyur. Və sonda ortaya mükəmməl bir insan həyatı qoyulur. Elə bir həyat ki, onun hər anında yaşamın, sevginin cizgiləri, eləcə də zamanın ştrixləri özünü göstərir. Bunu yaşayan da əlini ürəyinin üstünə qoyub rahatlıqla arxada qalan günlərin təkcə təəssüfünü yox, həm də təəssüratını yaşayır. Deməli, böyük Səməd Vurğunun dediyi kimi, "çörək bol olarsa, basılmaz vətən" çağırışını müasirləşdirsək, zamana uyğunlaşdırsaq, lap elə bu yazının yazıldığı anın notlarına köklənsək, onda deyə bilərik ki, "istilik bol olarsa dözümümüz də artar. Axı biz dözümlü xalqın nümayəndəsiyik!"

Söhbət dözümdən düşərkən qoy imkandan istifadə edib bir az özümü tərifləyim. Zarafat deyil, həm bu istiyə dözürəm, həm bu istinin yaratdığı problemlərə. Üstəlik bu istidə həm yazı yazıram, həm yazı oxuyuram, həm də ən vacibi iç dünyamdakı səni sevirəm. Deməli, mənim dözümüm digərlərinin dözümündən ən azı 20dəfəçoxdu. İndi özün hesabla dözümümün həcmini. Sən onu hesablayana kimi mən sənə bir şeir deyim:

***Səndə sevgi oyananda***
***Məni torpaq isidəcək...***
***Gözlərinin oxşadığı -***
***Quru yarpaq isidəcək!..***

***Nə çəkirəm Allah bilir***
***Kipriyimi külək silir...***
***Daş da səndən tez isinir -***
***Düşsə qor, bax isinəcək...***

***Bir insaf et, düşün məni***
***Bil, mən varam - düşünməli!..***
***Toparlasan düşüncəni -***
***Soyuq gorgah isinəcək!..***

Bu isti havada adam bəzən telefona da cavab verməyə ərinir. Ən dəhşətlisi iş və ev telefonlarıdı. Çünki orada nömrə görünmədiyindən zəngin kimdən gəldiyini təxmin edə bilmirsən və məcbur olub dəstəyi qaldırırsanq Və bütün problem də elə bundan sonra başlayır...

Hansısa bir uzaq qohum, tanış, lap elə qapı qonşu telefonun o biri ucunda əsnəyə-əsnəyə havalardan başlayıb dənizdən keçib bütün şəhəri, bütün ölkəni dolaşandan sonra axırda soruşur ki, müəllim, sən bilərsən, bu istilər nə qədər davam edəcək? Bax belə bir məqamda dişini dişinə sıxıb dinlədiyin bu adama deməyə söz tapmırsan. Hətta əsəbi bir şəkildə hərdən zarafat da etmək istəyirsən. Məsələn belə:

- Bağışla qonşu, Allahın telefon nömrəsini itirmişəm. Öyrənən kimi soruşub sizə məlumat verərəm.



Bəli, bu mənim demək olar ki, hər gün eşitdiyim sualın qarşılığında tək-tək adamlara verdiyim cavabdı. Amma neyləyəsən ki, həmin anlayışlı adamlar da bir az keçəndən sonra yenə həmin o mövzuya qayıdırlar. Bax onda mən tam şəkildə əmin oluram ki, Bakının, yəni Bakının yayının istisi bizi altdan-üstdən qaynadır. Elə "qaynadığımıza" görə də yaddaşımız əriyir. Eyni sualı, eyni sözü təkrar edirik. Özü də necə gəldi. Yenə nə isə...

Hə, günəşin bütün gücü ilə od səpdiyi bir məqamda şəhərin bir ucundan o biri ucuna gedirəm. İnsafən bu yollarda maşınların sayı o qədər də çox deyil. Amma tək-tək maşınların ya bütün şüşələri qaldırılıb, içəridə klima işləyir, ya da bütün şüşələr endirilibvə maqnitofon bütün gücü ilə bağırır. Bax, mənə elə gəlir ki, həmin o maqnitofonu "bağırdan" bu üsulla maşının içərisindəki istini qovur, özünü sərinlədir. Əks halda, adam gərək kar ola ki, o səsi, o bağırtını eşitməyə. Bu da şəhərimizin bir özəlliyidi. Əgər nə vaxtsa, kimsə şəhərimizin yay özəlliklərindən yazmaq istəsə, bundan da istifadə edə bilər. Tam səmimiyyətlə hər kəsə bu fikri istifadə etmək haqqını bağışlayıram...

Deməli, şəhərdə yaşadığım Masazır ərazisində hərdən elə bürkü olur ki, necə deyərlər, yarpaq da tərpənmir.

Onda məcbur olub kənd məzarlığına üz tuturam... Çünki burada sükut və hava axını var... Üstəlik şair Məmməd Aslan da burada uyuyur...Onunla anlaşmaq mənə bir rahatlıq gətirir...Xəyalım qanadlanır...Dərələrdən...təpələrdən sel kimi...yel kimi... ruh kimi keçib gedirəm -üzü Qarabağa! Yönü Tuğa doğru... Bu əslində getmək yox, qaçmaqdı, uçmaqdı! Kaş ki gerçək olaydı... kaş ki!!! Axı indi o yerlər cənnətdi...

***Bu kənd uşaqları yaman dəcəldi***
***Ağaca dırmaşır, daşa dırmaşırg***
***Yapışıb qartalın caynaqlarından -***
***Zirvədə səs yetməz qaşa dırmaşır...***

***Gah qoyun otarır, quzu səsləyir***
***Dərəni düz keçir, düzü səsləyir...***
***Dünənə boylanıb bizi səsləyir -***
***Yanında xatirə - qoşa dırmaşır...***

***Şəlalə altında yuyunub çıxır***
***Ən hündür budağa yüyürüb çıxır...***
***Böyük qarşısına buyurub - çıxır!***
***Gizlənmir, nə də ki, başa dırmaşır...***

***Əbülfət gördüyün, bildiyin yazır***
***İllərin yadından sildiyin yazır***
***Haradan haraya gəldiyin yazır -***
***Hərə də seçdiyi tuşa dırmaşır!..***

Bütün yazı boyu təbiətlə necə deyərlər, vuruşduq, əlbəyaxa olduq. Günəş gücünü göstərdikcə artıq qan-tərə batdığımı özümdən başqa hamı da gördü. Hətta kiminsə özümə zülm etdiyimi düşünüb mənə çox rəhm dolu bir nəzərlərlə baxdığını, hətta o baxışlarla "özünə yazığın gəlsin!" dediyini anladım. Amma yenə səmimiyyətlə etiraf edim ki, vallah-billah Bakının bu istisində rəhm də heç bir işə yaramır. Ən yaxşı rəhm sərin bir yer tapmaq, cibə beş-üç manat qoyub Bakını tərk etməkdi. Təəssüf ki, bu da xəyaldı, arzudu. Düşünürəm ki, daş üstündə ot bitirən Tanrı nə vaxtsa bizim qəbildən olanların da istəyini çin edər. Yəni biz də yol çantamızı atarıq çiynimizə və deyərik - Getdik eee!!!!

Hə, hələki getməmişəm. Hələki Bakıdayam...

**Hə, isti öz işini gördü. Biz də, yəni mən və bilgisayar yazarımız Gülər xanım düşündüklərimizi birtəhər sizə çatdırdıq. Xoşunuza gəlsə**

**Əbülfət MƏDƏTOĞLU**

# FİKİRDƏ PARÇALANMA - CƏMİYYƏTİN SƏSSİZ FACİƏSİ



*Adilə NƏZƏR*

**Bugünkü Azərbaycan cəmiyyətində bir çox zədə var, - desəm hamı deyəcək ki, sosial-iqtisadi fərqlər var, məmur özbaşınalığı, işsizlik və s. Amma əsas zədə yalnız bunlar deyil. Ən dərin zədə düşüncə sistemimizdədir. Loru dillə desək, cəmiyyətin az qala yarısı "rusqafalı", "farsqafalı" olub. Yəni milli dəyərlərlə deyil, yad zehniyyətlə düşünən, danışan, hətta millilərə nifrət edən bir kütlə formalaşıb. Onlar ana dilində danışanı "kəndçi", milli mövzularda danışanı "geridəqalmış", xalqını sevəni "populist" adlandırır.**

**Bu təbəqə elə belə formalaşmayıb, bu, o təbəqədir ki, onlar tarixini rusdan, farsdan öyrənir, ədəbiyyatını onların süzgəcindən qiymətləndirir, şəxsiyyətini yad identikliyə əsasən qurur. Düşünür ki, rusca danışmaq savad əlamətidir, fars poetikası ilə yaşamaq zövq göstəricisidir. Amma sual olunur: bəs öz dilin, öz tarixindən doğan şüurun, öz xalqının keçmişi nəyin göstəricisidir?**

**Ən təhlükəlisi isə bu düşüncənin artıq aqressiv bir formaya çevrilməsidir. Milli kimliyini qoruyan, ana dilində düşünən, təmiz türk soylu ideyaları müdafiə edən insanlar bu "yadqafalı" kütlənin hücumuna məruz qalır. Sosial şəbəkələrdə, ictimai müzakirələrdə bu adamlar ya etinasızlıqla, ya təhqir və təhdidlə qarşılanır. Kim ki, rus mədəniyyətinə səcdə etmir, fars təsirinə bələnmir,- dərhal "bayağı", "radikal", "ayrıseçkilik edən" damğası vurulur.**

**Bu, artıq sadəcə fərdi düşüncə deyil, cəmiyyətin dərin təbəqəsinə sirayət etmiş düşüncə işğalıdır. Bax bu, bizim əsil milli təhlükəsizlik problemimizdir. Tanklarla yox, ideologiyalarla, dildə yox, düşüncədə bizi işğal edən bir düşmən var: özgələşmiş beyinlər.**

**Bu problem bir gün yox, illərlə formalaşıb. Sovet mirası hələ də bir çox ailələrin şüurunda yaşayır. Uşaqlara Azərbaycan nağılları yox, rus cizgi filmləri göstərilir, xalq dastanı yox, Moskvanın çəkdiyi seriallardan danışılır, Məmməd Araz yox, Puşkin əzbərlədilir. Və nəhayət, "milli" sözü bu insanların qulağında "köhnə", "maraqsız", "təhlükəli" səslənir.**

**Əgər bir xalq öz dilini, öz düşüncə sistemini, öz şüur mərkəzini itirirsə, o xalq siyasi sərhədlərlə deyil, içindən dağılır. Və biz hazırda bu təhlükənin içində yaşayırıq.**

**Bu zehniyyət xəstələrindən biri dostlardan birinin paylaşımına yazdığım rəyə öz müalicə olunmaz xəstəliyinin artıqlarını töküb.**

**Mövzu budur:**

**"Rusiyalı bloqer Naxçıvanı "Yer üzündəki ən mənasız yer" adlandırdı. ...Bura inanılmaz dərəcədə kədərli bir yerdir, sadəcə fantastik dərəcədə. Necə nail olduqlarını belə anlamıram", - deyə Lebedev bildirib."**

**Mən də bu paylaşımın altında belə bir rəy yazmışam: "Lebedev Naxçıvana gələndə yəqin özü kədərli olub. Ruslar indi elə pörsüblər ki, öz kədərlərində boğulurlar. Naxçıvan isə Şərqin Qapısı kimi hazırda daha önəmli yerdir və bu, rusların gözünə batır."**

**İndi gəlin görün ki, bəzi rusqafalar buna necə aqressiya göstərirlər.**

**Cəmiyyətin ayıq kəsimi - müəllimlər, yazıçılar, jurnalistlər, gənc fəallardır və belə durumlarda susmamalıdır. Susmaq - təslim olmaqdır. Biz sözümüzü deməsək, sabahkı nəsildə danışmağa, işləməyə fikir, milli ruh olmayacaq.**

**Əgər Azərbaycan cəmiyyəti sağlamaq istəyirsə, əvvəlcə şüurunu təmizləməlidir. Yad zehniyyətlə deyil, öz kökü ilə düşünməyi öyrənməlidir. Rus olmaqla rusun qapısında qul olarsan, fars olmaqla farsın süfrəsində qonaq. Amma özün olmaqla bir millətin gələcəyi olarsan.**

## *İsti hava ilə bağlı şəkər xəstələrinə xəbərdarlıq*




**İsti hava şəkərli diabet xəstələrinin sağlamlığı üçün ciddi risklər yaranır.**

Adalet.az-ın məlumatına görə, rusiyalı endokrinoloq Anas Əlfərrac TASS-a verdiyi açıqlamada bildirib ki, isti hava və günəş altında qalmaq orqanizmdə şəkərin səviyyəsini həm yüksəldə, həm də kəskin şəkildə endirə bilər.

Həkim izah edir ki, yüksək temperatur şəraitində insan orqanizmində kapilyarlar genişlənir, nəticədə də insulin daha sürətli ifraz olunur. Bu vəziyyət xüsusilə insulin qəbul edən xəstələrdə hipoqlikemiya (şəkərin kəskin düşməsi) riskini artırır.

Eyni zamanda, istidə orqanizmin susuz qalması (dehidratasiya) bəzi hallarda şəkərin səviyyəsinin 15-20 mmol/l-ə qədər qalxmasına səbəb ola bilər.

Əlavə təhlükə isə ondan ibarətdir ki, istiyə bağlı simptomlarla hipoqlikemiyanın əlamətləri üst-üstə düşə bilər, yəni başgicəllənmə, tərləmə və halsızlıq həm günvurma, həm də şəkərin düşməsi ilə əlaqəli ola bilər.

Endokrinoloq aşağıdakı tədbirləri tövsiyə edir:

- Gündə ən az 4-6 dəfə qlükozanın səviyyəsini yoxlayın
- Əgər mümkündürsə, davamlı qlükoza monitorinq sistemlərindən istifadə edin
- İnsulin dozasını iqlim və həyat tərzinə uyğun tənzimləyin
- İnsulin pompası istifadə edənlər üçün infuziya dəstini hər 2 gündən bir dəyişmək tövsiyə olunur
- İynə vurulan nahiyələrə diqqət yetirin, istidə kapilyarların genişlənməsi insulinin təsirini sürətləndirə bilər.

Həkimlər yay mövsümündə diabet xəstələrinin sağlamlığını daha yaxından izləməyi və hərarət, tərləmə və halsızlıq hallarını ciddiyə almağı tövsiyə edirlər.

# Tanıdığım on yaxşı kişidən biri – Nəbi Muxtarov



*Faiq ŞÜKÜRBƏYLİ,*
*Azərbaycan Jurnalistlər Birliyinin üzvü*

**Nəbi Muxtarovun kimliyi barədə əlavə şərhə ehtiyac qalmır. Çünki onun Qarabağ boyda adı var. O, Azərbaycanda da kifayət qədər tanınır. Həssas oxucular söhbətin kimdən getdiyini dərhal hiss etdilər. Bəli, düz tapmısınız, bu həmin Nəbi Muxtarovdur ki, ağlı söz kəsəndən bəri həmişə demokratik ənənələrə sadiq qalıb. Orta məktəbdə oxuyanda da, tələbəlik illərində də düzlüyü, doğruluğu, mənəvi saflığı həyatının mənası hesab edib. Haqsızlığa, ədalətsizliyə qarşı barışmaz mövqe tutub. Gənc yaşlarından tay-tuşları arasında, sonralar isə el-oba içində böyük hörmət sahibi olub. Hörməti isə böyük olana deyil, insan olana göstərirlər. Nəbi müəllim hər kəsi özü kimi görən bir ürəyin sahibidir.**

**Mən gerçəkliyin hamı üçün bəlli olması, həqiqətin hamı tərəfindən bilinməsi naminə bu məqaləni yazdım.**

**Mən o kişidən yazdım ki, o, şərəfini və ləyaqətini həmişə uca tutub. Mərdanəliyi, alicənablığı ilə ad alıb-san qazanıb. Həmişə haqqın tərəfində olub. Yıxılana hay, imkansıza pay verib. Mən o kişidən yazıram ki, o sərt yox, mərd olub, zəhmətdən yox, minnətdən qorxub. Doğulduğu yerin qədrini bilib,**

**Mən o kişidən yazdım ki, o, həmişə yaşı minilliklərlə hesablanan, ağır-azman karvanlar qarşılayıb yola salan, qılıncı və qələmi ilə Azərbaycanın ictimai-iqtisadi, siyasi, mədəni həyatında rol oynayan, Azərbaycan xalqının tarixində, taleyində iz buraxan şəxslərə önəm verib. Vətəni üçün, eli-obası üçün xeyirli və yararlı işlər görüb.**

**Çöldə biləyi, eldə çörəyi ilə tanınan, qarnını deyil, adını gözləyən kişilər bir qayda olaraq əməlisaleh işlərindən qalmayıblar-onlar körpü salıblar, yol çəkiblər, su çəkiblər, ağac əkiblər, ac qarınları doyurublar-Nəbi müəllim kimi.**

**Nəhayət, mən o kişidən yazdım ki, bu "qüdrətdən səngərli, qalalı" kişi ilə gənc nəsil də tanış olsun. Bilsinlər ki, kişi elə anadan olandan kişidi.**

**Tanış olmaq istəyirsinizsə, irəli oturun, bu yazını oxuyun.**

**Muxtarov Nəbi Muxtar oğlu-Füzuli rayon İcra Hakimiyyətinin sabiq başçısı (1993-2011), dövlət xadimi. 1948-ci ildə anadan olub. 1966-cı ildə Xocavənd rayonundakı beynəlmiləl orta məktəbi qızıl medalla, 1969-cu ildə isə Azərbaycan Pedaqoji İnstitutunun riyaziyyat fakültəsini müvəffəq qiymətlərlə bitirib. 1969-cu ildə Füzuli rayon komsomol komitəsinin ikinci katibi, 1971-ci ildən isə birinci katibi vəzifəsində işləyib.**

**1974-75-ci illərdə sovet ordusu sıralarında xidmət edib.**

**1975-ci ildə Füzuli rayon partiya komitəsində təlimatçı, 1976-cı ildə Füzuli rayon Həmkarlar İttifaqı Şurasının sədri vəzifələrində çalışıb.**

**1978-1980-ci illərdə Bakı Ali Partiya Məktəbində oxuyub. 1980-ci ildə Füzuli rayon Partiya Komitəsində şöbə müdiri, bir neçə ay sonra isə rayon Aqrar Sənaye Kombinatının baş direktoru vəzifəsində işləyib.**

**N.Muxtarov 1983-cü ildə Azərbaycan Respublikası Üzümçülük və Şərabçılıq Komitəsinin sədr müavini vəzifəsinə təyin edilib. Bir qədər sonra o, Respublika Aqrar Sənaye Komitəsində idarə rəisi, Qaçqınların və Məcburi Köçkünlərin İşi üzrə Dövlət Komitəsində sədr müavini vəzifələrində çalışıb.**

**N.Muxtarov 1993-ücü il avqust ayının 18-də Füzuli rayon İcra Hakimiyyətinin başçısı vəzifəsinə təyin edilib və 2011-ci ilə kimi bu vəzifəni ləyaqətlə icra edib.**

**Nəbi Muxtarov hansı vəzifədə çalışmasından asılı olmayaraq, tapşırılan işə vicdani münasibət bəsləyib, xeyirxah əməlləri ilə fərqlənib, Vətəninə, Xalqına sədaqətlə xidmət edib. Bunu onun keçdiyi şərəfli yol, nüfuzlu şəxslərin Nəbi müəllim haqqında söylədikləri xatirələr, barəsində yazılan çoxlu sayda məqalələr bir daha təsdiq edir.**

**Nəbi müəllimi yaxşı tanıyan şəxslərdən iqtisadçı Kərəm Qurbanovun dediklərindən: "Nəbi müəllim həmişə ağlının qüdrəti və amalının vəhdəti ilə hərəkət edib. Millətini, dövlətini varlığı kimi sevən, qəlbində insanlara, cəmiyyətə, xalqına qarşı əbədi sevgi, sonsuz məhəbbət gəzdirən bu insanın ürəyi cəmiyyətin saflaşmasına, düşüncələrin ülviliyinə, bəşəriyyətin inkişafına köklənib".**

**Sabiq sovxoz direktoru Sehran Əliyev: "1992-93-cü ilər aclıq və yoxsulluq məqamları hamımızın gözlərimizin qarşısındadır. Hələ bu azmış kimi bir tərəfdən də Füzuli rayonu 1993-cü ilin avqustunda təcavüzkar Ermənistan ordusunun və onların havadarlarının köməkliyi sayəsində işğal olundu. Rayonun sakinləri respublikamızın müxtəlif rayon və kəndlərinə səpələndilər. Nəbi Muxtarov belə bir çətin durumda rayona başçı göndərildi.**

**1994-cü ilin ilk günlərindən Azərbaycan ordusu Horadiz istiqamətində əks hücuma keçərək bir neçə günün içərisində Füzuli rayonunun 20-dən artıq kəndini, o cümlədən strateji əhəmiyyətli Horadiz qəsəbəsini (hazırda Horadiz şəhəri) işğaldan azad etdi. Azad olunmuş kəndlərimizdə düşmən düşmənliyini bildirmişdi. Evlər dağıdılmış-yandırılmış və yerlə yeksan edilmişdi. Kommunikasiya xətləri sıradan çıxarılmışdır.**



**1995-ci ildə azad edilmiş yaşayış məntəqələrinin sakinləri doğma ocaqlarına qayıtmağa başladılar. Burada insanlar hər şeyi sıfırdan başlamalı oldular. Füzuli rayon camaatının bəxti onda gətirdi ki, rayona Nəbi Muxtarov kimi səriştəli, bacarıqlı və insaflı bir adam rəhbər göndərildi.**

**Rayon İcra Hakimiyyətinin başçısı Nəbi Muxtarovun səyi nəticəsində həyat öz axarına, məhvərindən çıxan çaylar məcrasına dönməyə başladı. Sakinlər tədricən öz güzəranlarını bərpa etdilər".**

**Nəbi müəllim milli-mənəvi dəyərlərimizə sahib çıxaraq dədə-babalarımızdan bizlərə miras qalan yüksək keyfiyyətləri uca tutub, əsl türk kişilərinə xas olan bəşəri əməllərə hörmətlə yanaşıb. Vətənin müsəlləh əsgəri kimi qanunlarımızın keşiyində dayanıb. Kamil bir kişi ömrünü, şəxsiyyət və zaman ucalığında dayanan samballı bir kişinin həyat salnaməsini bir qəzet yazısına sığışdlrmaq mümkün deyil. Ömrü boyu yaxşılığından qalmayan, insanların qəlbində sabaha inam toxumunu cücərdən bu kişidən nə qədər yazsan, yenə də azdır.**

**"Bütün xidmətlərdən üstün olan tək bir xidmət var: Vətənə xidmət! Bu tək olan Allaha xidmətə bərabərdir!"- kəlamı sanki N.Muxtarov üçün deyilmişdir. Ona görə ki, Nəbi müəllim Vətəninə bağlı insandır. Ana yurdun yaxşılarını yaşatmış, yaxşılara nümunə olmuşdur. O, həm ictimai xadim kimi, həm də adi vətəndaş kimi bir çox xarici ölkələrdə səfərdə olub. Harda olubsa, Vətənini tərənnüm edib, ölkəsinə başucalığı gətirib. Hara səfər edibsə, sinəsində göz-bəbəyi kimi sevdiyi Azərbaycanımızın portretini gəzdirib. Harda olubsa, yalnız Azərbaycanı düşünüb. Yüksək kürsülərdə etdiyi alovlu çıxışlarının əvvəli də, sonu da Azərbaycan olub. Elə uğurlarını da Vətənini düşünəndə qazanıb.**

**Bu məqaləni yazmaqda mənim məqsədim tərənnüm-filan deyil, heç Nəbi müəllimin də buna ehtiyacı yoxdur. Mənim məqsədim bir yaxşı kişi haqqında, görüb-götürdüklərimi, suyu dəhnədən-çörəyi təhnədən götürən, ağır oturub batman gələn kişilərdən eşidib bildiklərimi, soruşub öyrəndiklərimi təndürüst edib səliqə-sahmanla qələmə alaraq gənclərə çatdırmaqdır. Onsuz da yaşlı və orta nəsil Nəbi müəllimi çox gözəl tanıyırlar. O, elədiklərini milləti üçün, eli-obası üçün edib. Bax, elə buna görə də Nəbi müəllim ictimaiyyət arasında şax gəzir, şux yeriyir. İndi belə insanlar barmaqla sayılırlar.**

**Şərəf və şəxsiyyəti arasında harmoniya olan bu insanın özünə və fəaliyyətinə hansı prizmadan yanaşırsan yanaş, fərq eləməz, göz önündə möhtəşəmliyi ilə diqqəti cəlb edən bütöv, kamil bir kişi obrazı canlanır.**

**Kimliyindən asılı olmayaraq müraciət edən insanların problemlərini diqqətlə dinləyib, imkanı daxilində onlara yardımçı olmağa çalışmaq, yenilikçi, islahatçı, tələbkar bir rəhbərin fəaliyyətinin hər bir anı, arxada qalan illərinin hər bir günü gənc rəhbər işçilər üçün örnək ola bilər. Nəbi müəllimin yaşadığı ömrün hər bir anı gənc nəsillər üçün öyrəniləsi bir məktəbdi, oxunulası bir salnamədir. Onun respublikamızın ictimai xadimləri sırasında özünəməxsus tərzdə qərar tutması da məhz yüksək keyfiyyətlərinin təzahürüdür.**

**Dünyanın əzəlliyini özündən, gözəlliyini gözündən keçirən Nəbi Muxtarov hazırda təqaüddədir və füzulilərin sevimlisi kimi yaşayır.**

**Yeri gəlmişkən deyək ki, Nəbi Muxtarov ensiklopedik bilik sahibidir. O, dünya xalqlarının ədəbiyyatını, tarixini, etnoqrafiyasını, coğrafiyasını çox gözəl bilir. Təsadüfi deyil ki, Nəbi müəllimi Füzuli rayonunun timsalında Qarabağın canlı tarixi olan şəxslərindən biri kimi dəyərləndirirlər. O, Qarabağın bugünkü tarixi ilə fəxr edir. Bu tarixi yaradan Azərbaycan Prezidentinin, Azərbaycan Dövlətinin qarşısında baş əyir.**

**Gözəl insan, görkəmli ictimai xadim, qayğıkeş ailə başçısı, qeyrətli vətəndaş-tanıyanlar Nəbi Muxtarovu belə qiymətləndirirlər. Mən də deyilənlərlə tam şərikəm. Əziz dostum, qardaşım Nəbi müəllimə möhkəm can sağlığı arzulayıram.**

## *"Google" 10 milyon insanı zəlzələ barədə xəbərdar etməyib*

**"Google" etiraf edib ki, onun zəlzələ haqda erkən xəbərdarlıq sistemi 2023-cü ildə Türkiyədə baş verən təbii fəlakət zamanı insanları dəqiq xəbərdar edə bilməyib.**

Adalet.az xəbər verir ki, bu barədə BBC-yə "Google" şirkətindən məlumat verilib.

Təxminlərə görə, episentrdən 158 km radiusda olan təxminən 10 milyon insan "Google"dan ən yüksək xəbərdarlığı - sığınacaq axtarmaq üçün 35 saniyəyə qədər vaxt verəcək "Tədbirlər görün" bildirişini ala bilərdi. Lakin belə bir bildiriş yalnız 469 nəfərə çatıb.

Şirkətin bildirdiyinə görə, təxminən yarım milyon istifadəçi yüngül təkanlar üçün nəzərdə tutulmuş daha az ciddi xəbərdarlıq alıb.

Bu xəbərdarlıq yüksək səslə müşayiət olunmur və "Narahat etməyin" rejimini söndürmür. Əvvəllər Google sistemin "yaxşı işlədiyini" iddia etsə də, indi ilk təkanın gücünün düzgün qiymətləndirilmədiyi etiraf edilib - 7,8 maqnitudası əvəzinə sistem 4,5-4,9 qeydə alıb. Android cihazlarında (Türkiyədə 70%-dən çox) işləyən "Android Earthquake Alerts" (AEA) sistemi səhər saat 4:17-də - əksər insanların yatdığı vaxtda işləməli idi. Zəlzələlər yer üzərində nisbətən yavaş yayıldığı üçün xəbərdarlıq göndərmək mümkündür. Yalnız istifadəçinin telefonunda yüksək səsli siqnal işə düşən ciddi "Tədbirlər görün" xəbərdarlığı istifadəçiləri oyada və həyatları xilas edə bilərdi, lakin bu baş verməyib.

Həmin gün daha sonra baş verən ikinci böyük zəlzələ də düzgün qiymətləndirilməyib, çünki bu dəfə sistem 8 158 telefona "Tədbirlər görün" və 4 milyona yaxın istifadəçiyə "Məlumatlı olun" bildirişləri göndərib.

Zəlzələdən sonra Google tədqiqatçıları alqoritmi dəyişdirərək ilk zəlzələni yenidən modelləşdiriblər. Bu dəfə sistem 10 milyon ciddi xəbərdarlıq və episentrdən daha uzaqda yaşayanlar üçün əlavə 67 milyon xəbərdarlıq yaradıb. Google vurğulayır ki, onun sistemi yalnız dövlət erkən xəbərdarlıq sistemlərinə əlavədir, lakin alimlər bəzi ölkələrin hələ tam sınaqdan keçirilməmiş texnologiyalara həddindən artıq güvənməyə başlaya biləcəyindən narahatlıq ifadə edirlər. 6 fevral 2023-cü ildə Türkiyənin cənub-şərqində baş verən iki dağıdıcı zəlzələdə 55 000-dən çox insan həlak olub, 100 000-dən çox insan yaralanıb.

## *Uşağınızın qorxusu mənasız olsa da...*

**"Bir çox valideynlər uşaqlarında müxtəlif qorxu və fobiyaların olduğunu qeyd edirlər".**

Adalet.az xəbər verir ki, bu fikirləri 93 FM dalğasında yayımlanan "Sağlam radio"da Səhiyyə Nazirliyi 2 nömrəli Klinik Psixiatriya Xəstəxanası Baş həkimi Leyla Bəşirova açıqlayıb.

Onun sözlərinə görə, uşaq qaranlıqdan, heyvanlardan və yad insanlardan qorxa bilər:

"Valideynlər uşağa kömək etmək üçün həm anlayışlı, həm də mərhələli bir yanaşma tətbiq etməlidilər. Bu tip qorxu uşaq yaşlarında, xüsusilə 3-8 yaş aralığında normal inkişaf mərhələsi kimi görülə bilər. Lakin çox intensiv və uzunmüddətli olduqda, müdaxilə tələb olunur. Valideyn ilk növbədə övladının qorxusunu anlayıb, ona etibarlı davranmalıdır, onu qorxusu ilə tək buraxmamalıdır, mühakimə etməməlidir, uşağın qorxularını kiçiltməməlidir. "Nədən qorxursan?", "Bundan da qorxarlar?", "Artıq böyük uşaq oldun", "Bundan qorxmağa dəyməz" kimi ifadələr əvəzinə "Mən sənin narahatçılığını anlayıram", "Mən səninləyəm, yanındayam", "Mən də sən yaşda olanda qorxurdum" kimi ifadələr demək lazımdır və uşaqların hisslərini dinləyib, qorxularına hörmətlə yanaşmaq lazımdır".

L.Bəşirova qeyd edib ki, qorxunu aradan qaldırmaq üçün uşağınızı dinləyin, onunla vaxt keçirin, ona daha çox diqqət yetirin, birlikdə oyunlar oynayın, özünə inamın inkişafına kömək edin:

"Uşağa qarşı sərt davranmayın, ona qışqırmayın, mümkün qədər sakit olmalısınız. Uşağınızın qorxusu mənasız olsa da, onun yanında olduğunuzu hiss etdirməlisiniz. Qorxu anlarında onları qucaqlayın, əzizləyin, sərt davranaraq, onlarda başqa qorxuların yaranmasına səbəb olmayın. Əgər qorxular uşağınızın həyatına mane olursa və uzun müddət davam edirsə, mütləq mütəxəssislərə müraciət edin. Əks halda daha ciddi fəsadlar, uzun sürən fobiyalar yarana bilər".

# SÖZ ALLAHDAN ƏMANƏTDİR




*Mirtacir Xurşudov,*
*fololoq, publisist -yazar*


**Qarşımda çağdaş şeirimizin nümunələri olan, nəfis tərtibatlı üç şeir kitabı var. Müasir ədəbiyyatımızın Yardımlı ədəbi mühitinin yetirməsi olan həmyerlimiz..Onun yaradıcılığı və şəxsiyyəti barədə bir az sonra, öz əsərlərinin şahidliyi ilə söz açacağıq. İdris Babayevin ardıcıl nəşr edilmiş əsərləri və hələ kitab halına salınmamış bir sıra ən müasir şeirləri...**

Öncədən onu deyim ki, bu kitabları mən yetərincə mütaliə etmişəm və ruhum, təfəkkürüm bu könül dünyasının incilərinin aurasının təsiri altındadır. Onu da qeyd edm ki, kitablara ən yüksək səviyyələrdə ön sözlər yazılmış, onların bədii-poetik məziyyətləri barədə təhlillər, şərhər və rəylər yazılmışdır.

Şeirləri bircə-bircə oxuduqca bir oxucu kimi təfəkkürümün süzgəcindən keçirdikcə, bu sadə kənd adamının sadəliyinə, təvazö dolu mənəvi dünyasına, bir vətəndaş kimi, Vətənin dərdinə, sərinə, sevincinə, kədərinə alışıb-yanan ürəyinin hərarətinə heyran olmaya bilmirsən.. Allahın bəxş etdiyi şair təbiətindən əlavə,həyata,reallıqlara yanaşma tərzi, zamanın gedişatına fərdi, intellektual münasibət özəlliyi, fitri müşahidə qabiliyyəti , qeyri-adi erudisiyaya söykənən poetik zəka tutumu elə ilk anlardan oxucunu özünə cəlb edir.. Bu ali məqamlardan ən qabarıq, özünü anbaan büruzə verən isə onun hər şeydən əvvəl özünü bir Allah sayaraq o Qüdrət sahibinin əzəli və əbədi hakim olduğunu dərk edərək ona tapındığını ərzi-hal ilə dilə gətirməsidir;

***Nə əmimdir, nə dayımdır, nə atam,***
***Görən niyə çox sevirəm Allahı?!***
***Diqtə edir mən yazıram, rahatam,***
***Bol veribdir qəm-kədəri, həm ahı,***
***Görən, niyə çox sevirəm Allahı?!***
***Deyim sizə, siz də sevin, a dostlar,***
***Hara getsəm, harda qalsam, orda var.***
***Hökmü ilə Günəş çıxar, Ay doğar,***
***Dünyamızın haqq-ədalət padşahı,***
***Ona görə çox sevirəm Allahı.***

Müəllifin haqlı olaraq gəldiyi nəticə budur ki, Allahını tanıyan, Ona itaət edən əsl müsəlman hər cür pisliklərdən, şər əməllərdən uzaqdır.Əxlaqın, tərbiyənin İlahi bünövrəsi Yaradanı dərk etməkdir. Axı elə yaradılış fəlsəfəsinin İlahi teoremi də bu deylmi?! "Yaradanın dərkolunmazlığını dərk etmək dərrakənin ən yüksək formasıdır!" Zamanın bütün parametrlərindən, baxış bucağından bu pozulmaz fəlsəfi reallıq seyr edilərək inkaredilməz bir həqiqətə çevrilmişdir.

İdris Babayev müraciət etdiyi janrdan, üslubdan asılı olmayaraq hər bir misrasında, hər addımda həmişə səmimi və təvazökardır;

***Bir ömür yaşadım, yazdım, yaratdım,***
***Dedim izim qalsın qayada, daşda.***
***Dərs aldım hər ildə bir müəllimdən,***
***Heç nə öyrənmədim sevməkdən başqa.***

Huş-guşla , diqqətlə fikir versək, şair hər misrasında, hər kəlməsində sanki özünü, öz varlığını əks etdirir, hər sətrin arxasından səmimi , məhzun gözlərlə boylanır, oxucunu öz ülviyyətinə, səmimiyyətinə inandırır; çünki bu səmimiyyətdə, etirafda riya, hiylə, kələk yoxdur.. Şair bu nəcib xisləti ilə öz misralarına, öz ruh dünyasına sanki ülviyyətdən , təvazödən tikilmiş parlaq, Mələklərə xas bir don geyindirmiş olur ki, bu da fitrətən Şair doğulanların tinətinə xas olan keyfiyyətdir..

İdrisin lirikasında məhəbbət, sevgi mövzusu da fərqli, özünəməxsusluğu ilə seçilir.Şairin ilham pərisi, vəsf etdiyi gözəl pedantçılıqdan, cılız-çılpaq platonik "məhəbbət" cizgiərindən uzaq, pak məhəbbətə layiq, əsl real həyati gözəldir. Şair-aşiq onu bütün səmimiyyəti, varlığı ilə sevir, ondan da özünə qarşılıqlı sevgi, səmimiyyət, ülv məhəbbbətinə inam, etibar umur.Şairin vəsf etdiyi gözəl sadə, abır-həyalı, spesifik azərbaycanlı qızına xas olan qiyafəli, saf qəlbli bir gözəldir və elə bu saflığı ilə şairin könül dünyasını ovlayır, onu məftun edə bilir;

***Ay qaşı hilalım, ay beli incəm.***
***Döndər sən həftəyə, günə ili, gəl,***
***Həsrətin gözünə çəkib mili, gəl ,***
***Dərmanım səndədir, götür hili, gəl,***
***Hazıram verdiyin "zəhər"i içəm,***
***Ay qaşı hilalım, ay beli incəm.***

***Baharda qaranquş, qışda sərçəm ol,***
***Səpələn ruhuma, sinəmdə cəm ol.***

Şair-aşiq sevdiyi gözəldən umduğu inam-etibarı çox uğurlu lirik ricətlərlə tərənnüm edə bilir; "Baharda qaranquş, qışda sərçəm ol" . Məncə, sevən qəlbin səmimiyyətinə bundan gözəl, dürüst bədii ifadə tapmaq, axtarmaq yersizdir.

Ana məhəbbəti.. Xilqətin mövcudiyyətindən bəri ən uca, ən ali məhəbbət Məhəbbətin, sevginin ən kövrək hisslərin möhtac olduğu, hərarətinə qızındığı, ruh alıb pərvazlandığı məhəbbət! Bu məhəbbət İdris poeziyasının leytmotivini, əsas xəttini təşkil edir desək, əsla yanılmarıq.Şairin lirikasının sanbalı, hüsnü, təravəti ürəyinin, qələminin mənəvi qüvvəti, təpəri bu məhəbbətin yorulmaz şahpəri, misilsiz təntənəsi üzərində öz varlğını büruzə verərək toxtayır sanki.. Antik türk əsatirlərindən birində Ana- dünyanın yaradıcısı kimi təqdim olunur.Yaranışdan öncə dünya sular səltənətinə qərq olubmuş. Gündoğar tərəfdən -Şərqdən nəhəng bir qadın-Ana silueti baş qaldırır. Bu Ana Günəşdən qabaq zühur edir və öz möhtəşəm, sehrli nuru, şəfəqi ilə dünyamızı işıqlandırır.Tanrı elə bu zaman müqəddəs varlığın-Ananın xatirinə dünyaya həyat bəxş edir. Ömrünün müdrik çağında "Anasızlıq" ağrı-acısını yaşayan şairin iniltisinə qulaq verək;

***Ayrı salma gəl sən məni anamdan,***
***Göz yaşından alar hər gün öc ağlar.***
***Tələsirəm nə vaxt gedib çataram,***
***Qolun açıb anam məni qucaqlar.***

Anasızlıqdan qəlbi pörşələnən, varından yox olan şair-övladın iç sızıltısını, ürəyinin qanuna çulğaşan göz yaşının sızıltısını sanki hiss edirsən, duyursan.

Vətən həsrəti... Güneyli-Quzeyl, ikiyə bölünmüş, sinəsi paramparça olmuş Vətən həsrəti, yanğısı. İdris qardaşımın yaradıcılığının aparıcı mövzularından biri Özünəxas sənətkarlıqla, mükəmməl bədii boya və obrazlarla, yana-yana, qovrula-qovrula qələmə aldığı bu silsilə şeirlərində də şair son dərəcə novatordur, "Özü"dür. Bu səpkili şeirlərindən birini göz yaşlarını tuta bilmədən oxuyuram;

***Həsrətin acısı qılıncdan iti,***
***Onun ağrısına dözməkmi olur?!***
***Zəlitək yapışıb sinəmə mənim,***
***Ha dart ikiəlli, üzməkmi olur?!***

***"Gülüstan" kəndinin həndəvərində,***
***Naşıya oxşatdı, ya xama məni.***
***Bu qədər millətin, xalqın içində,***
***Gəldi qıyıq sancdı yaxama mənim.***

***Qəlbi tən bölünən, odlar yurdumun,***
***Arzusu yol gəlir, yetişmir hələ.***
***Tikanlı məftilin şıram çəkdiyi,***
***Yarası qan verir, bitişmir hələ.***

Sətirləri heç vəchlə biganə oxumaq olmur. Sanki hər bir sətrin, kəlmənin arxasında müəlliin için-için, yana-yana ağlayan məhzun çöhrəsini görürük. Ayrılıq, hicran dərdindən qan-yaşla dolmuş gözləri, sanki üfüqə,

Nəhayət, 2023-cü il 19-20-də qalib ordumuzun şanlı "Antiterror" əməliyyatı ilə düşmən tör-töküntülərini məhv edib, əzəli torpaqlarımızın qalan hissəsini də azğın düşmənlərdən xilas etməsi, qədim, ulu türk diyarı olan Xankəndi və digər bölgələrdə Azərbaycan qanunlarının bərpası, düşmənin tamamilə, birdəfəlik məğlubiyyəti əsl vətəndaş-şair kimi İdrisi də bütün varlığı ilə sevindirmiş, sevincindən bu möhtəşəm Qələbəyə şeirlər həsr etmişdir;

Şair Vətən Şəhidlərini yaranışın fövqündə, ən uca məqamda Göylərdə təsəvvür edir, haqlı olaraq onları, Vətənin varlığını, mövcudluğunun məhvəri, sütunu hesab edir. Onlar Allahın ən sevimli bəndələrididirlər; şərafət, ləyaqət, sücaət.. ən ülvi, müqəddəs adlar- ŞƏHİD adının törəmələri, yavrularıdırlar;



***Vətənindən ötrü sən keçdin candan, Şəhidim,***
***Sənin sevdiyin isə sənə görə verdi can.***
***Bu müqəddəs sevgidən yarandır bütöv Vətən,***
***Nə qədər bu sevgi var, yaşayar Azərbaycan!***

***Üçrəngli bayraq oldu əbədi toy libasın,***
***Sinəndə parıldadı səkkizguşəli ulduz.***
***Nə sən onu unutdun, nə o səni unutdu.***
***Ancaq fərqli geyindi canına qıyan o qız.***

Şairin son şeirlərinə nəzər salsaq, mübaliğəsiz demək olar ki, mövzu dairəsi,həyatı əksetdirmə, ümumiyyətlə,bədii dəyər, sanballılıq baxımından əvvəlki silsilə şeirlərinin nəinki davamıdır, deyərdm ki, daha da inkişafı və zirvəsidir. Şair çox sərrast, unikal, özünəxas fərdi müdaxilə manerasının gücü, sehri ilə dövrün, çağdaş zamanımızın sanki canlı maketini yaradaraq, onu bir rəssam, nəqqaş, arxitektor dəqiqliyi ilə "müayinə" edib ona layiq olan "libası" geyindirir, oxucuya həqiqəti çılpaqlığı ilə göstərməyə nail olur. Bu baxımdan şairin ən uğurlu əsərlərindən biri olan "Sel aparmasın" şeirindən bir bəndə nəzər yetirək;

***Bu yerdə kəfən də,torpaq da baha,***
***Məni daşa bükün, yel aparmasın.***
***Buludun üstündə dəfn edin məni,***
***Yağanda qəbrimi sel aparmasın.***

Məncə, müasir oxucunun, çağdaş insanlığın təfəkkürünə, ruhuna rahatca hopan, müəllif ideyasının, fikrinin belə rahatlıqla həzm edilməsi, dərk olunması üçün bundan gözəl, dürüst bədii ifadə, lirik ricət tapmaq sadəcə qeyrı-mümkündür.Torpaq oğlunun, torpağının bir ovucu üçün canından keçməyə hazır olan Vətən oğlunun mənəvi-xəyali "nəşi"nin dəfni üçün Ana Torpaq yox, buludların qoynu son mənzil seçilir.

Yuxarıda bəhs etdiyimiz kimi, İdris qardaşımızın poeziyasında ən aparıcı keyfiyyətlərdən biri də təvazökarlıqdır. Bu keyfiyyət onun yaradıcılığına, təbii ki, özünün xarakterindən, qanından-iliyindən hopub, sirayət edib. Yurd, Vətən, doğma el-oba, ata ocağı həsrəti İdris poeziyasının ən aparıcı, daim göz yaşlarıyla müşayiət olunan mövzulardan biridir. Nədənsə, şairin bu səpkidə şeirlərini oxuyarkən mənim özümü də romantik hislər çulğayır, ülvi bir xəyallar aləminə düşürəm sanki.

Şairin şeirləri içərisində "Yardımlı" şeiri də çox gözəl, diqqətəlayiq və uğurludur. Şair öz doğma diyarı ilə bir yandan fəxr edir, onun axar-baxarını, igid oğullarını, tarixi bir diyar kimi möhtəşəmliyini vəsf edir, bir yandan da onun dərdinə şərik olur, sanki doğma anasının sinəsinə sığınıb için-için ağlayır, göz yaşı tökür:

***Qəlbinə qan vuran Viləşin çağlar,***
***Yetim qalan İdris dərdinə ağlar.***
***Üzüksə boynuna dolanan dağlar,***
***Sənsən parıldayan qaşı, Yardımlı.***

Yuxarıda qeyd etdiyimiz kimi, şairin çağdaş dövrümüzə həsr olunmuş silsilə şeirləri mövzu rəngarəngliyinə, çoxçeşidliyə malikdir. Müasir həyatımızın, cəmiyyətimizin inkişafını əngəlləyən, insanlığın ən təhlükəli virusu, düşməni olan rüşvətxorluq, zəhmətsiz, haram qazanca olan hərislik, bu iyrənc "peşə"nin" "xadimləri" də şairin sarkazm, satira atəşindən yayına bilmir, ona hədəf olurlar; "Qai çıxır" satirik şeirindən bir bənd, fikrimizcə, dolğun sübutdur;

***Gah sağından, gah solundan,***
***Qələm qalmır yazmağından.***
***Hacıların sandığından,***
***Yetimlərin payı çıxır.***

Ruhunun, qəlbinin, ülvi amallarının əsiri olan hər bir söz xiridarında olduğu kimi, İdris Telavarlının da şair ürəyində zamandan, fələkdən umubküsdüyü, lakin qəlbinin dərinlyində artıq dəf etdiyi "güvənc yerlərindən" bir inciklik, küskünlük hakimdir. Ancaq bu küskünlük İdrisin təfəkkür-təxəyyül dünyasında özünəməxsus bir fəlsəfi dona bürünür, bənzərsiz və təkrarsızdır; şairin son yaradıcılıq bəhrələrindən olan "Zayı silinmir" şeirini ürəyin çırpınmadan, həyəcansız oxuya bilmirsən:

***Fələk də bir yandan durdu qəsdimə,***
***Sevinci əlimdən alıb gizlətdi.***
***Elimdən, obamdan didərgin salıb,***
***Mənimçün şəhəri Vətən düzəltdi.***

Hansı mövzuda, hansı janrda yazmağından asılı olmayaraq İdris qardaşımızın poetik aləmində, yaradıcılığında misilsiz bir səmimilik, paklıq inamla deyərdim ki, insanlığın ən pik nöqtəsi olan vicdan, mənlik qüruru, həqiqət hakimdir. Şeirlərində axıcılıq, lakoniklik, doğma dilin məziyyətlərinə sadiqlik, şirinlik də öz yerində

Beləcə,şair dostum İdris Telavarlının (Babayev) söz-sənət aləminə etdiyimiz kiçik səfər sona çatır. Onu da deyim ki, bəhs etdiyimiz bu nümunələr şairin növbəti, mübarək şeir kitabının səhifələrini bəzəyəcəkdir. Varlığımla əminəm ki, müəllifin bu kitabı da oxucuların , onu sevənlərin ürəyini ovsunlayacaq, onları əsl poeziya aləminin əsrarəngiz guşələrinə aparacaq, sevindirəcəkdir. Məhz belə də olmalıdır; axı bu poeziyada ülvilik, qürur, ləyaqət, saflıq, həqiqət, nəhayət, .əsl ALİ İNSANLIĞA ÇAĞIRIŞ hayqırtısı vardır.

**Ancaq bu da son deyil. Şairin poetik dünyasına etdiyim bu kiçik müdaxiləm, deyərdim ki, onun kiçik bir hissəsini işıqlandırmağa yetərli oldu. Gələcək irəlidədir. Şair dostumuzun düşünən beyni, daim qanadlanıb ucalara can atan şair təxəyyülü, tükənməz eşqlə döyünən ürəyi, yorulmadan yazan, heç bir zaman mürəkkəbi qurumayan QƏLƏMİ əminəm ki, hələ çox xariqələr yaradacaq, oxucularına ərməğan edəcəkdir. Ona da möhkəm əminəm ki, bu İlahi nurun haləsinə bürünəcək gələcək şeiriyyət, poeziya dünyasında görüşümüz daha davamlı, daha təntənəli olacaq. Axı bu, söz dünyasıdır. Allahın bizlərə əmanət etdiyi SÖZ!**

## *Kondisioner niyə bəzi insanlara pis təsir edir?*

**İsti havalarda kondisioner rahatlıq və sərinlik versə də, bəzi insanlar üçün xoşagəlməz təsirlərə səbəb ola bilər.**

Adalet.az bildirir ki, bu hallar bir neçə amillə bağlıdır.

Kondisionerin yaratdığı süni hava axını nəfəs yollarını qıcıqlandıra bilər. Xüsusilə sinusit, astma və allergiyası olan şəxslərdə burun tutulması, boğazda quruluq və öskürək kimi şikayətlər arta bilər. Sərin hava eyni zamanda nəfəs borusunun daralmasına və bəzən bronx spazmına da yol aça bilər.

Kondisioner olan mühitdə hava quruyur, bu isə dəridə quruluq və gözlərdə yanma hissi yarada bilər. Uzun müddət belə mühitdə qalmaq göz quruluğu sindromuna səbəb ola bilər.

Kondisionerin temperaturu çox aşağı olduqda və ya tez-tez isti-soyuq keçidlər baş verdikdə, orqanizm adaptasiya çətinliyi çəkir. Bu da baş ağrısı, əzələ tutulmaları və ümumi halsızlıqla müşayiət oluna bilər.

Bundan başqa, texniki baxımı düzgün aparılmayan kondisionerlərdə mikroblar və kif göbələkləri toplanaraq hava ilə birlikdə yayılır. Bu da tənəffüs yolu infeksiyalarının yayılmasına zəmin yarada bilər.

Mütəxəssislər kondisionerdən istifadə zamanı temperatur fərqini 6-8 dərəcədən çox etməməyi, havanı tez-tez dəyişməyi və filtrin təmizliyinə diqqət yetirməyi tövsiyə edirlər.

## *Sürücülərin yuxulaması səbəbindən 21 qəza baş verib*

Son günlər respublika əhəmiyyətli magistral yollarda baş verən yol-nəqliyyat hadisələrinin əksəriyyəti sürücülərin sükan arxasında yuxulaması ilə bağlıdır. Təkcə son bir ay ərzində bu səbəbdən ölüm və xəsarətlə nəticələnən 21 yol-nəqliyyat hadisəsi qeydə alınıb.

Adalet.az xəbər verir ki, bu barədə DİN-in Baş Dövlət Yol Polisi İdarəsinin sürücülərə müraciətində deyilir.

"Hadisələrin təhlili göstərir ki, isti hava şəraitində səhhətində problemi olan, yuxu gətirən dərman preparatları qəbul edən, yaşı 60-dan yuxarı olan, gecə və uzun növbəli iş rejimində çalışan, uzaq məsafələrə fasiləsiz səfər edən, yuxu pozuntularından əziyyət çəkən, xroniki yorğunluğu olan, eləcə də alkoqol qəbulundan sonra psixofizioloji baxımdan hələ tam bərpa olunmamış sürücülər arasında sükan arxasında yuxulama hallarına daha tez-tez rast gəlinir. Belə vəziyyətdə avtomobil idarə etmək qəza riskini dəfələrlə artırır və nəticələr çox zaman ağır olur.

Baş Dövlət Yol Polisi İdarəsi sürücüləri

- yorğun və yuxusuz halda sükan arxasına əyləşməməyə,
- soyuducu sistemi olmayan nəqliyyat vasitələri ilə günün daha sərin saatlarında yola çıxmağa,
- uzaq məsafələrə səfər zamanı hər 2 saatdan bir qısa müddətli fasilə verməyə,
- alkoqoldan istifadə etmiş sürücülərin, bədənlərində qalıq təsirlər davam etdiyi müddətdə avtomobil idarə etməməyə çağırır.

Unutmayın: sükan arxasında bir anlıq yuxululuq - bir ömürlük peşmançılığa səbəb ola bilər".

Ələmdar MƏMMƏDOV



# Mən bu zamana sığmazam

## Zirvəyə doğru: İlyas - İlahi qüvvə, köməyə gələn

**(əvvəli qəzetin ötən sayında)**

**Nəhayət 1970-ci ildə İlyas müəllimi prokurorluqda işə dəvət edirlər. Amerikalı filosof Levinin "Həyat sənə nə təklif edirsə qəbul et, son nəticədə razı qalacaqsan, çünki, həyat ədalətlidir" konsepsiyasının təsiri altında prokurorluqda işləməyə razılıq verir.**

İki il Respublika prokurorunun köməkçisi vəzifəsində işlədikdən sonra 1972-ci ildə Azərbaycan KP MKnin inzibati orqanlarla iş şöbəsində təlimatçı vəzifəsinə təyin olunur. İşə qəbul olunmamışdan əvvəl onu Mərkəzi Komitənin 1-ci katibi Heydər Əliyev qəbul edir və xeyli söhbət edirlər. İlyas müəllim deyirdi ki, mən qapıdan çıxanda Heydər Əliyevin şöbə müdirinə: "Bizə belə kadrlar lazımdır", - dediyini eşitdim.

1978-ci ildə İ. İsmayılovu Respublika prokurorunun müavini vəzifəsinə təyin edirlər. O, həm də kadrlar şöbəsinin rəisi hesab edilirdi. Respublika Prokurorluğunun kadrlar şöbəsi işgüzarlığı və sanbalına görə digərlərindən fərqlənirdi

Şöbə rəisinin müavini - uzun illər hərbi tribunalda hakim işlədikdən sonra təqaüdə çıxmış əqidəli hüquqşünas kimi tanınan, hamının böyük hörmətlə yanaşdığı qayğıkeş insan, Ədliyyə polkovniki Fərrux Gəray oğlu Vəkilov idi. Şöbənin böyük prokuroru prokurorluq orqanlarına gəlməmişdən komsomol və partiya orqanlarında həyat yolu keçmiş Fikrət Daşdəmirov, söbənin prokurorları Azər Köçərli və Bəhruz Mahmudov gənc olmalarına baxmayaraq, nüfuzlu prokurorluq işçiləri hesab olunurdular. Təsadüfi deyil ki, Azər Köçərli Baş Prokurorun müavini vəzifəsinə qədər yüksəldi. Sonralar o, xidmətini SSRİ Baş prokurorluğu və Rusiya Federasiyası Baş prokurorluğunda davam etdirərək Azərbaycanımızı layiqincə təmsil etdi. Bəhruz Mahmudov bir neçə rayonda prokuror vəzifəsində işlədikdən sonra Baş prokurorluğun Kadrlar İdarəsinin rəisi vəzifəsinə təyin edildi və uzun illər - təqaüdə çıxana qədər həmin vəzifədə çalışdı. Prezidentin sərəncamı ilə ona III dərəcəli Dövlət Ədliyyə Müşaviri rütbə dərəcəsi verildi.

İlyas müəllim Respublika Prokurorunun müavini vəzifəsində işləyərkən son söz sahibi olmasa da, kadrların seçilməsi, yerləşdirilməsi və qorunmasına xüsusi diqqət yetirirdi.

Keçən əsrin 80-ci illərinin əvvəllərində DQMV prokurorluğunda baş müstəntiq işləyən Əli Ömərovu prinsipial mövqeyinə görə ermənilər cəzalandırmaq - Sov.İKP sıralarından çıxarmaq is-təyirdilər. Həmin dövrdə partiya sıralarından xaric olunma həm də prokurorluq orqanlarından qovulmaq demək idi. Hadisəni bilən İlyas müəllim Əli Ömərovun iş yerinin dəyişdirilməsi barədə məsələ qaldırır və onun Gəncə Şəhər Prokurorluğuna baş müstəntiq vəzifəsinə təyin olunmasına nail olur.

1983-cü ildə Əli Ömərov məhz İ.İsmayılovun dəstəyi ilə Gəncə Nəqliyyat prokuroru vəzifəsinə təyin edildi.

Əli Ömərov sonralar Respublikanın Baş prokuroru olarkən İlyas müəllimin bu yaxşılığını kollegiya iclasında xüsusi qeyd etmişdi.

Başqa bir misal: Prokurorluğun adının çəkmək istəmədiyim yüksək vəzifəli şəxslərindən biri haqqında imzasız məlumat daxil olur. Həmin məlumatda göstərilirdi ki, "N" gənclik illərində talama cinayətinə görə məhkum olub və tərcümeyi-halında bu məsələni gizlədib. Məlumatın yoxlanması həmin vaxt Respublika prokurorunun müavini işləyən İ.İsmayılova tapşırılır. İlyas müəllim həmin şəxsi dəvət edib söhbət edir. "N" bərk həyəcanlanır və hər şeyi etiraf edir. Belə ki, atasız böyümüş "N" 18 yaşında çoban işləyərkən, hesabında 2 baş qoyun əskik gəlir. Kolxoz sədrinin təkidi ilə həqiqətən həmin şəxsi məhkum (şərti) olunur. Sonradan o, hərbi xidmətə gedir, orada partiya sıralarına daxil olur və hərbi xidməti başa vurduqdan sonra ADU-nun hüquq fakültəsinə daxil olub, sonda prokurorluq orqanlarına təyinat alır və yaxşı işçi kimi fəaliyyətini davam etdirir. İlyas müəllim ona kömək edir və bu fakt işıq üzü görmür. Halbuki həmin dövrün qaydalarına görə "N" ağır partiya cəzası almaqla, orqandan xaric edilməli idi. Lakin o, ömrünün sonuna kimi prokurorluq orqanlarında xidmətini müvəffəqiyyətlə davam etdirdi.




...Hələ Respublika Prokurorunun müavini olarkən İlyas müəllimin yüksək ranqlı bədxahları əmələ gəlmişdi. 1984-cü ilin əvvəllərində İlyas müəllimin kurasiyasında olan cəzaçəkmə müəssisələrində qanunların icra vəziyyəti SSRİ Baş Prokurorluğu tərəfindən yoxlanılır. Yoxlamanın nəticəsi SSRİ Baş Prokuroru Rekunkovun yanında müzakirə olunurdu. Qərəzli tərtib olunmuş arayışda bütün çatışmazlıqlar İlyas müəllimin adına yazılmış, ona şiddətli cəza verilməsi nəzərdə tutulmuşdu. İlyas müəllim faktlarla və məntiqin gücü ilə bu sahədə prokurorun yeri və vəzifələri barədə danışır, arayışdakı qərəzli fikirləri alt-üst edir. SSRİ Baş Prokuroru Rekunkov deyir: "İlyas İsmayılovu cəzalandırmaq lazım deyil!".

Bir neçə aydan sonra Voronej şəhərində SSRİ Baş Prokuroru Rekunkovun iştirakı ilə müttəfiq və muxtar respublika prokurorları müavinlərinin müaşavirəsi keçirilirdi. Rekunkov müşavirədə çıxış edənlərin demək olar ki, hamısına iradını bildirir və kəskin formada tənqid edirdi. Çıxışçılar siyahısında olmasa da, Baş Prokuror İlyas müəllimi tribunaya dəvət edir. İlyas müəllimin çıxışından sonra ona heç bir irad tutulmur. Bu, onu göstərirdi ki, Rekunkov yüksək səviyyəli hüquqşünas kimi İlyas müəllimə böyük rəğbət bəsləyirdi.

Həmin ilin sonunda İlyas müəllim ehtiyatda olan respublika prokurorlarının bir aylıq kursuna dəvət olunur. Kursda olarkən Rekunkov iki dəfə onu qəbul edir və nəhayət, 1985-ci ilin yanvar ayında İlyas İsmayılov Respublika Prokuroru vəzifəsinə təyin edilir.

**Haşiyə:** A.M.Rekunkov 1988-ci ildə vəzifədən çıxandan bir müddət sonra İlyas müəllim SSRİ Baş Prokurorluğunda işləyən Azər Köçərli ilə onu yoluxmağa gedir. Söhbət əsnasında Rekunkovun ona olan xoş münasibətinin səbəbini soruşur. Rekunkov belə cavab verir: "1939-1940-cı illərdə Tiflisdə Topçular məktəbində oxuyarkən Allahverdiyev soyadlı azərbaycanlı dostum olub. Həmin vaxtdan mən azərbaycanlılara qarşı həmişə xüsusi rəğbət bəsləmişəm".

Qeyd etmək yerinə düşər ki, Qdlyanlar və İvanovların Respublikamıza gəlişinin qarşısının alınmasında A.M.Rekunkovun Azərbaycana və şəxsən Respublika prokuroru İ.İsmayılova olan səmimi münasibətinin rolu çox olmuşdur (bu barədə geniş söhbət açacağam. Ə.M).

İlyas müəllimin Respublika prokuroru vəzifəsinə təyinatı bir çoxlarının ürəyincə deyildi. Belə ki, bu məsul və şərəfli vəzifəyə yeddi nəfərin namizədliyi var idi. Onların hamısı altmış yaş üstündə böyük həyat təcrübəsi olan insanlar idi. İlyas müəllimin üstünlüyü isə prokurorluqda iş təcrübəsi və savadlı olması idi. Bu təyinatla əlaqədar Azərbaycanın Əməkdar hüquqşünası, prokurorluq orqanlarında qırx yeddi il iş təcrübəsi olan və on iki Baş prokurorla işləmiş İdris Əsgərov "Ömür salnaməmin acılı-şirinli səhifələri" kitabında yazır: "Respublika prokuroru vəzifəsinə təyin edilmiş şəxslər arasında İlyas Abbas oğlu İsmayılovun üstünlüyü onunla şərtləşirdi ki, o, prokurorluq orqanlarında sıravi şöbə prokurorunu vəzifəsindən başlayaraq, Respublika prokuroru vəzifəsinədək, elm sahəsində Elmlər Akademiyasının Fəlsəfə və Hüquq institutunun kiçik elmi işçisi vəzifəsindən hüquq elmləri doktoru alimlik dərəcəsinədək şərəfli bir yol keçmişdi. Bu yüksəliş yollarında o, praktiki işin bütün təfərrüatlarını, hüquq elminin bütün incəliklərini mənimsəyərək, kamil bir hüquqşünas kimi formalaşmışdı. Praktiki səriştə və elmi hazırlıq İlyas İsmayılova xas olan ali insani keyfiyyətlərlə birlikdə ona Respublika prokuroru kimi məsul bir və-zifəni layəqətlə yerinə yetirməkdə təminatçı amillər olmuşdu. İstər prokurorluğun işinin təşkili, istərsə də cinayətkarlıqla mübarizə, cəmiyyətin maraqlarının, insanların hüquq və azadlıqlarının müdafiəsi ilə bağlı məsələlər üzrə İ.İsmayılovun qəbul etdiyi qərarlar həm praktiki, həm də elmi baxımdan ədaləti təcəssüm etdirən vahid düzgün qərarlar olurdu.

İlyas İsmayılovun qanun və ədalət naminə fədakar fəaliyyəti, ciddi çətinliklərin olmasına baxmayaraq zəruri qərarların qəbul edilməsi və onların icrasının təmin edilməsi, qanunsuzluqlara qarşı barışmaz prinsipiallıq göstərməsi haqqında ətraflı məlumatlar bir qədər əvvəl, xüsusilə Respublikanın həyatında baş vermiş fövqəladə hadisələr, o cümlədən 20 yanvar qırğını, Sumqayıt fitnəkarlığı, Qarabağ hadisələri, cəmiyyətdə baş verən qarşıdurmalar haqqında yazılarda verilmişdir. Müşahidələrim göstərdi ki, İ.İsmayılova xas olan vətənpərvərlik hissləri bu qanlı faciələrin təsiri altında vətən yanğısına çevrilmişdi və onu bu cinayətlərin günahkarlarına qarşı barışmaz və mübariz mövqe sahibi etmişdi".

Əslində, İlyas müəllimi böyük çətinliklər gözləyirdi. Söhbətlərinin birində etiraf etdi ki, ilk aylar təyinatına görə peşmançılıq keçirirmiş. Bunun səbəbləri var idi. İlyas müəllim "hamı necə mən də elə" prinsipi ilə yaşayıb işləyə bilməzdi. Onun daxili dünyası və ağlı "hamının qanun qarşısında bərabərliyi"ni həyat normasına çevirmək idi.

Xitam etməmək əl-ayağı təmizliyin, ciddi cəza istəmək prinsipiallıq və partiyalılığın əlaməti hesab edildiyi, məhkəmələrin fəaliyyətinə həbs faizinə görə qiymət verildiyi bir vaxtda əlbəttə İlyas mü-əllimin hərəkətləri qıcıq doğurmaya bilməzdi.

Qanunla heç bir yerli orqandan asılı olmasa da, partiyalılıq deyilən bir məsələ də prokurorluğun tam fəaliyyət göstərməsinə mane olurdu. Fikrimi konkret misallarla izah etmək istəyirəm:

Kecən əsrin 60-cı illərinin əvvəllərində üç nəfər gənc vətəndaş "Valyuta əməliyyatı haqqında qaydaları pozma" ilə məsuliyyətə cəlb edilirlər. Həmin dövrdə bu əmələ görə 8 ilə qədər azadlıq-dan məhrum cəzası tətbiq olunurdu. Bu məsələ sovet rəhbərliyini narahat etdiyindən, iş üzrə istintaq aparıldığı vaxt - 1961-ci ilin may və iyul aylarında RSFSR Cinayət Məcəlləsinin müvafiq maddəsinin, o cümlədən, Azərbaycan SSR Cinayət Məcəlləsinin 81-ci maddəsinin sanksiyası artırılaraq əvvəlcə 15 il, daha sonra ölüm cəzası həddinə çatdırıldı. Məhkəmədə dövlət ittihamını müdafiə edən SSRİ Baş prokuroru R.A.Rudenko hər üç müttəhimə ölüm cəzası təyin edilməsini xahiş etdi. Məhkəmənin hökmü ilə hər üç müttəhim ölüm cəzası ilə cəzalandırıldı və hökm icra olundu.

Ədalət mühakiməsinin "qızıl qaydası" sayılan və iki min il əvvəl Qədim Roma dövlətində qanunvericilikdə öz təsbitini tapan "Ağırlaşdırıcı halda qanunun geriyə qüvvəsi yoxdur" prinsipi kobud şəkildə pozulmuşdu.

Başqa bir misal: Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin hər hansı birgə qərarı, məsələn, "Möhtəkirliyə qarşı mübarizə tədbirlərini daha da gücləndirmək haqqında" elan olunan kimi SƏDM (Sosialist Əmlakının Dağıdılması ilə Mübarizə İdarəsi) əməkdaşları üç-beş ayaqqabı, on-on beş dəstə göyərti satanların hərəkətini protokollaşdırır, istintaq orqanı da məcbur qalıb cinayət işi başlamalı olurdu. Buradan o nəticə cıxır ki, hətta ən yüksək səlahiyyətlərə malik prokurorluq da sistemə qarşı çıxa bilmirdi.

**"Toxunulmazlıq" mövqeyində olan yerli təşkilatların birində ümumi nəzarət qaydasında yoxlama aparılırdı. Yoxlama başlayandan bir gün sonra Respublikanın rəhbəri, MK-nın 1-ci katibi K.Bağırov telefonla İlyas müəllimlə yüksək səslə danışır. İlyas müəllim işdən çıxması barədə ərizə ilə K.Bağırovun yanına gedir və ona izah edir ki, prokurorla belə danışmaq olmaz. Tezliklə Kamran Bağırov kimin-kim olduğunu bilir, İlyas İsmayılov şəxsiyyətini dəyərləndirir, ona önəm verir və bu hissləri ömrünün sonuna qədər saxlayır.**

**(ardı var)**

### 10-12 gün sonra dünyada nə baş verəcək?

**ABŞ Prezidenti Donald Tramp Rusiya ilə bağlı verdiyi 50 günlük müddəti qısaldıb. O, Şotlandiyada Britaniyanın baş naziri Kir Starmerlə keçirdiyi mətbuat konfransında Rusiyaya 10-12 gün vaxt verib.**

"Mən artıq danışıqlarla maraqlanmıram", - deyə Tramp Putinə ünvanladığı sərt açıqlamasında bildirib. Onun sözlərinə görə, Rusiya prezidenti ilə dəfələrlə danışmasına baxmayaraq, Ukraynaya hücumlar davam edir və bu, artıq "kifayətdir".

ABŞ lideri bu vaxta qədər Putinə qarşı "çox səxavətli" olduğunu, 50 günlük zaman tanıdığını, lakin bu müddət ərzində real addım atılmadığını vurğulayıb. Yeni bəyanatla o, 10-12 gün ərzində sülh istiqamətində irəliləyiş baş verməyəcəyi təqdirdə Rusiyanın ticarət tərəfdaşlarına qarşı sərt 100%-lik tariflər tətbiq ediləcəyini xatırladıb.

Rusiya tərəfi hələlik Trampın bu yeni və daha sərt ultimatumuna reaksiya verməyib. Kremlin sözçüsü Dmitri Peskov ötən gün Putinin Trampla görüşə hazır olmadığı mesajını verib, belə bir hazırlığın aparılmadığını qeyd edib.

Ukrayna Trampın bəyanatını yüksək qiymətləndirib, Volodimir Zelenski ona təşəkkür edib. Avropa İttifaqının xarici siyasət rəhbəri Kaya Kallas da Trampın sərt ritorikasını alqışlayıb, lakin əvvəlki 50 günlük müddətin çox uzun olduğunu bildirmişdi.

Bölgədə diplomatik gərginliyin artdığı bir vaxtda Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Putin və Tramp arasında mümkün görüşü İstanbulda təşkil etməyə hazır olduğunu bəyan edib. Amma hələlik tərəflərdən konkret razılıq gəlməyib.

Adalet.azModern.az-a istinadən xəbər ki, Trampın Putinə münasibəti son aylarda tədricən sərtləşib. İkinci prezidentlik dövrünün əvvəlində Rusiya haqqında danışmaqdan çəkinən Tramp indi "Vladimir, dayan!" çağırışları ilə çıxış edir.

Apreldən bu yana Tramp Rusiyanın hücumlarından narahat olduğunu gizlətmir və artıq Ukraynaya hərbi texnika göndəriləcəyini də açıqlayıb.

10-12 gün sonra nə baş verə bilər?

Ekspertlər bir neçə ehtimal irəli sürüb:

ABŞ Rusiyaya ticarət embarqosu tətbiq edə bilər;

NATO və Avropa dövlətləri yeni sanksiyalar dalğasına qoşula bilər;

Rusiya-ABŞ münasibətləri daha da gərginləşə bilər;

Ukraynaya hərbi yardımlar genişlənə bilər;

Türkiyənin vasitəçiliyi ilə yeni sülh platforması formalaşa bilər.

Ancaq hələlik bütün sualların cavabı 10-12 gün sonra bəlli olacaq.

## *“Bakcell”in dəstəyi ilə YAŞAT yay məktəbi Londonda*

**İnnovasiya və sürət lideri ”Bakcell”in dəstəyi və ”YAŞAT” Fondunun təşkilatçılığı ilə Londonda üçüncü ”YAŞAT” yay məktəbi başlayıb. Yay məktəbində ölkə üzrə 9-cu sinif buraxılış imtahanlarında yüksək nəticə göstərmiş 10 şəhid övladı iştirak edir.**

Adalet.az xəbər verir ki, proqramın əsas məqsədi şəhid övladlarının dünyagörüşünü genişləndirmək, dil biliklərini artırmaq, fərdi bacarıqlarını inkişaf etdirmək və beynəlxalq mühitdə aktiv iştiraklarına imkan yaratmaq, eləcə də asudə vaxtlarının səmərəli təşkilinə dəstək göstərməkdir.

İyulun 20-dən avqustun 3-dək davam edəcək ”YAŞAT” yay məktəbi London Universitet Kollecində təşkil olunub. Proqram müddətində iştirakçılar hər gün 3 saatlıq intensiv ingilis dili dərslərində iştirak edir, şəhər ekskursiyaları, tarixi abidələrə və muzeylərə maraqlı səfərlərlə zəngin bir təcrübə yaşayırlar.

”Bakcell” bu təşəbbüslə cəmiyyətin davamlı inkişafına töhfə verən korporativ sosial məsuliyyət (KSM) və dayanıqlılıq strategiyasını uğurla davam etdirir.

Gənclərin dəyişən dünyada innovativ düşüncə tərzinin formalaşmasına və fərdi inkişafına yönəlmiş sosial layihələrə dəstək şirkətin əsas prioritetlərindəndir.

”NEQSOL Holding”in tərkibinə daxil olan ”Bakcell” ”YAŞAT” Fondu ilə birgə şəhidlərin ailə üzvlərinə və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə sosial dəstək layihələrini davamlı olaraq həyata keçirir. Bu əməkdaşlıq ”NEQSOL Holding” və ”YAŞAT” Fondu arasında imzalanan Anlaşma Memorandumu çərçivəsində həyata keçirilir.

”Bakcell” Azərbaycanın ilk və ən böyük özəl telekommunikasiya şirkətidir. Hazırda şirkət üç milyondan çox müştərini yüksəkkeyfiyyətli və sürətli telekommunikasiya xidmətləri ilə təmin edir. Ölkə iqtisadiyyatının qeyri-neft sektorunun ən böyük investorlarından biri olan ”Bakcell” süni intellekt əsaslı innovativ həllərlə Azərbaycanın dayanıqlı inkişafına töhfə verir.

”Bakcell” müxtəlif ölkələrdə telekommunikasiya, enerji, yüksək texnologiyalar və tikinti sahələrində fəaliyyət göstərən ”NEQSOL Holding” beynəlxalq şirkətlər qrupunun tərkibinə daxildir.

## *Uşaqların bu yaşda dənizdə çimməsi təhlükəlidir - Həkimdən xəbərdarlıq*

**Açıq su hövzəsində çimmək uşaqlarda müxtəlif infeksiyalara yoluxma və hipotermiya ilə nəticələnə bilər.**

Adalet.az xəbər verir ki, bu barədə Rusiya Dövlət Təhsil Universitetinin Tibb fakültəsinin uşaq xəstəlikləri kafedrasının dosenti Aleksandr Batrakov danışıb.

Həkim körpə və ya məktəbəqədər yaşda uşağın su hövzəsində çimməsinin uşaqların sağlamlığı üçün təhlükəli olduğu barədə xəbərdarlıq edib. Onun sözlərinə görə, bu yaşda immunitet sistemi hələ də inkişaf edir və tam qorunma təmin etmir, ona görə də açıq suda üzməyi 2-3 il qədər təxirə salmaq daha yaxşıdır.

”Unutmayın ki, əgər körpə üzgüçülüklə məşğul olmayıbsa, lakin valideynlər və ya digər ailə üzvləri varsa, uşaq məsələn, su yolu ilə keçən rotavirus infeksiyasına yoluxa bilər. Ona görə də həyatının birinci ilində olan uşaqları çimərliyə getməzdən əvvəl rotavirus infeksiyasına qarşı peyvənd etmək daha yaxşıdır”, - Batrakov bildirib.

Mütəxəssis əlavə edib ki, uşaqlar da qumun dadını tez-tez hiss etdikləri üçün çimərlikdə onlara da ciddi nəzarət edilməlidir. Həkim bildirib ki, yoluxma riski ilə yanaşı, qum tənəffüs yollarına daxil olduqda aspirasiya riski yaradır və boğulma ilə nəticələnə bilər.

## *Yuxusuzluqdan əziyyət çəkənlər nə etməlidir? - Dietoloqlardan məsləhət*

**Ağlınız sakitləşmədikdə və bədəniniz rahatlaşmadıqda yatmaq çətindir. Amma bir sakitləşdirici içki içsəniz, yuxunuz sakit və yaxşı ola bilər. Ekspertlərin sözlərinə görə, bu içki albalı şirəsidir.**

Adalet.az xəbər verir ki, bu barədə tibb elmləri doktoru Samantha DeVito danışıb.

”Albalı şirəsi melatonin və triptofan ehtiva edir - bu, yuxu-oyanıqlıq dövrünü tənzimləməyə və yuxunun keyfiyyətini yaxşılaşdırmağa kömək edən iki əsas birləşmədir”, deyə həkim bildirib.

Mütəxəssislər vurğulayır ki, albalı təbii formada melatonin ehtiva edən nadir qidalardan biridir.

”Melatonin yuxu-oyanıqlıq dövrünü tənzimləməyə kömək edən hormondur”, deyə tibb elmləri doktoru, fəlsəfə doktoru Lauren Manaker izah edib.

Bədəniniz özü melatonin istehsal etsə də, bir neçə amil onun təbii istehsalını pozula bilər: işığın təsiri, nizamsız yuxu qrafiki, spirtli içkilər və kofein qəbulu.

”Turş albalı şirəsi qəbul etmək melatonin səviyyəsini yumşaq şəkildə artıra bilər. Bu, müəyyən yuxu dərmanları və qidalar əlavələri ilə əlaqələndirilən yuxulu vəziyyət hissi olmadan, yatma müddətini və yuxunun ümumi keyfiyyətini yaxşılaşdırmağa kömək edə bilər”, deyə materialda vurğulanır.

Həmçinin, ekspertlərə görə, bu içki yuxunu yaxşılaşdırmaqda və beyin sağlamlığında mühüm rol oynayan güclü antioksidantlar ehtiva edir.

”Turş albalı şirəsi antosianinlərin - daha dərin və sakit yuxunu təşviq edə bilən antioksidant birləşmələrin təbii mənbəyidir”, deyə DeVito bildirib.

Materialda əlavə edilir ki, antioksidantlar yuxunun keyfiyyətinə və effektivliyinə mənfi təsir göstərə bilən oksidativ stressi və iltihabı azaltmağa kömək edir.

**”Turş albalı şirəsi kimi antioksidantlarla zəngin qidaların qəbulu ilə oksidativ stressin azaldılması həm bərpaedici yuxunu, həm də uzunmüddətli kognitiv sağlamlığı dəstəkləyə bilər”, deyə materialda qeyd olunur.**

**VAQİF YUSİFLİ**
**Filologiya elmləri doktoru**

# ƏDALƏT ƏSGƏROĞLUNU UNUTMURUQ



**Ədalət Əsgəroğlu (Məmmədov Ədalət Əsgər oğlu)1957 -ci ildə Göyçay şəhərində anadan olmuşdur. Orta məktəbi bitirəndən sonra BDU-nun filologiya fakültəsində (axşam şöbəsində) təhsil almışdır.Bir müddət müxtəlif zavodlarda (neft-qaz, kimya) çalışmışdır. Ədəbi fəaliyyətə keçən əsrin səksəninci illərində başlamış, ”Yaz ilən gələn sevda”, ”Göyçaydan başlanan ömür yolu”, ”Mən sənə aşiqəm, dünya!”, ”Özüm qürbətdə, gözüm Vətəndə”, ”Sabahını itirməyən adamlar”, ”Məmləkətim -canım mənim”, ”Yaşamağın dadı”, ”Dərdimizin qan rəngi” şeir və publisistika kitabları işıq üzü görmüşdür. Azərbaycan Yazıçılar Birliyində mətbuat şöbəsinin müdiri vəzifəsində çalışmışdır. 2015-ci ildə vəfat etmişdir.**

**Ədalət Əsgəroğlu elə ilk şeirlərindən öz fərdi yazı manerası, deyim tərzi, poetik düşüncə tərzi, hər hansı əşyanı, cizgini mənalandırmaq xüsusiyyəti ilə diqqəti cəlb etdi. O, məlum mövzulara öz poetik naxışını vurmağa çalışır, şeirdə təzə söz demək üçün bədii təsvir vasitələrinə üz tuturdu.Onun ”Anama məktub yazıb dedim ki..” şeiri bir çox kitabında birinci şeir kimi verilir. Bu şeir anaya məhəbbətin, Oğul-Ana sevgisinin poeziyada örnək nümunələrindən biri sayıla bilər:**

*Yaşı ötmüş,*
*Müqəddəs göyləri üzünə çəkmiş,*
*Çiçək-çiçək ömür sürmüş,*
*dünya görmüş*
*Anam qarı.*
*Dünyamın eyni açılmayıb hələ,*
*Çiçəklərim çırtlamayıb hələ.*
*Qardaş eylə, oğul eylə özünə*
*Sabahını itirməyən adamları,*
*Küçəmizdəki yaşıl, nəhəng çinarlar.*

**Ədalət Əsgəroğlunun şeirlərində Çinar obrazı ilə tez-tez qarşılaşırıq. Təbii ki, Göyçayda doğulan, bu şəhəri bürüyənona təbii gözəllik bəxş edən çinarları vəsf etməyə bilməzdi. Amma onun Çinar obrazı təkcə vəsf xarakteri daşımır,Çinar obrazı daha geniş mənaya malikdir.**

**”Ulu çinar, dədə çinar, xan çinar” şeirində o, ustad şair Rəsul Rzanın ”Belə məğrur dayanmağa haqlıyam, Mən kökümlə bu torpağa bağlıyam” misralarına üz tutur, kökü torpağa bağlı Çinarla Rəsul Rza ömrü arasında assosiasiya yaradır.**

**Çinarları azadlıqordusunun əsgərləri kimi mənalandırır, Rəsul Rza da ”ağ günlərin azadlıq şairi” adlandırılır.**

**Ədalət Əsgəroğlunun ən yaxşı şeirlərindən biri ”Gülöyşə qarının gülöyşə narı”dır. Bu şeirdə Ə.Əsgəroğlu bir insanın-Gülöyşə qarının obrazını yaradır, Nar obrazı ilə onun ömrü arasında vəsilə yaradır. Onun həyatində oğlunun əkdiyi nar ağacı durur.**

*Payız çiçəyidir Bənövşə qarı,*
*Oturub sakitcəbaxırdı çölə.*
*Tökülür yarpağıgülöyşə narın,*
*Üstündə meyvəsi dururdu hələ.*

*Küçədə oynayan dəcəl uşaqlar,*
*Bu gülöyşə nara sataşırdılar.*
*O mələk uşaqlar, çiçək uşaqlar,*
*Ağac atırdılar, daş atırdılar.*

**Şeirin sonunda Gülöyşə qarının niyə kədərli olması, oğlundan qalan yadigar nar ağacını görəndə qəm=qüssəyə dalması belə mənalandırılır:**

*Hələ yaşanmamış günlər içindən,*
*Hələ deyilməmiş sözlər içindən,*
*Hələ dərilməmiş, hələ dəyməmiş,*
*Meyvələr içindən,*
*Baxır bu qarı-Qarabağ adlanan həsrətə sarı.*



**Qarabağ mövzusu da Ədalət Əsgəroğlunun şeirlərində öz əksini tapır, o, ”Qarabağlı partizan qız” şeirində bir vətənpərvər azərbaycanlı qızının ölümünü təsvir edir. İyirmi yaşında əsir düşən bu partizan qız hər şeyi unudur-”Vətənindən başqa hər şeyi”! Onu güllələyirlər:**

***Əmr verdi;***
***Güllələnsin!***
***-Güllələndi-***
***Hava işıqlaşanda,***
***dağların arxasından***
***hamilə qadın kimi***
***nazlı- nazlı qalxanda günəş.***
***Güllələndi-***
***ürəyində ataş,***
***başında sevda,***
***dilində mahnıf.***
***Xalça üzərində***
***göz oxşayan bir naxış kimi***
***qızardı torpaqda qanı.***

**Ədalət Əsgəroğlunun ”Dərdimizin qan rəngi” poeması Xocalı soyqırımının on beş illiyinə həsr olunub.**

**Poema konkret bir möazuya həsr olunsa da, hədəf daha genişdir. Burada Azərbaycan məmləkəti DƏRDİMİZİN QAN RƏNGİ obrazında metaforikləşib. Qan burada Xocalıdan bütün dünyaya yayılan fəryadın ahın, kədərin simvoludur. Qan burada tarixdir-bir məmləkətin təklənməsi, səsinin, fəryadının boğulması, öz içində qərq olmasıdır. Ədalət Əsgəroğlu qan kəlməsinin doğurduğu bütün mənalara, metaforik çalarlara üz tutur.**

***qanla dolu***
***lap ləbələb***
***nə əcəb,***
***dərd deyirlər buna?..***
***Yox, oğlum, dərd deyil bu!***
***Bu, müqəddəs bir can!***
***can, can, can,***
***Bir də, bir də Azərbaycan!***
***Ortalıqda dumduru qan,***
***axır, axır, axıracan.***
***Xocalıdan Bakıyacan,***
***Qan boyalı villalardan***
***Cana doymuş çadıracan.***

**Bu təsvirdən sonra Ədalət Əsgəroğu poetik gücü zəiflətmədən publisistik ahəngi qüvvətləndirir. Dərdimizin iyə qan rənginə boyanmasının səbəblərini açıqlayır. Aşıb-daşan sərt etiraslar gəlir, bu etiraslar, əslində, ittihamlardır. Poeziyanın, bir şair ürəyinin etirazları.**

***Milli Sərvət-***
***-qanım mənim***
***gah tıncıxan,***
***gah üzülən canım mənim.***
***Bu boyda qan..***
***bu yolda can***
***niyə olmur sənə qurban***
***Azərbaycan!***
***Sənə qurban Azərbaycan.***

**Bu misralar poemanın sonluğudur. Müəllif bir-iki xarakterik səhnə ilə əsrin fəciliyini artıran çalarları gücləndirir. Qızıl gülə bənzəyən bapbalaca qızcığaz ”qan-qan” deyib qışqırır. ”Bu qızıl gül qönçədir hələ, sinəsindən qan fışqırır”. O bapbalaca qız xəyallarda böyüyür, qaniçindəöz qanının arxasınca baxır, gəlib on beş yaşına çatır.İllər keçir, Xocalı şəhidləri Qan Qiyafəsində qapımızı döyürlər, bizi qisasa çağırırlar.**

**Ədalət Əsgəroğlu Azərbay can poeziyasında yaşanan Qan obrazınayeni qan verib desək, yanılmarıq. O, dərdimizin qan rəngini=Xocalı faciəsini poeziyamızın qan rənginə çevirə bilib.**

*Dərdin qan rəngi...*
*qan, qan, qan!*
*Boya göy üzünü,*
*Göy üzü bölünənəcən,*
*Bürü yer üzünü*
*bu sevda ölənəcən!*
*Dünya yenidən doğulanacan!*

**Ədalət Əsgəroğlu ömrünün son illərində Yunis İmrənin, Mövlana Ruminin ürfani şeirlərindən təsirlənib özü də ürfani məzmunda şeirlər yazırdı. Əlbəttə, müasir poeziyada Akif Səməddən, Məmməd Dəmirçioğlundan sonra Ədalət Əsgəroğlu da bu sahədə az-çox diqqəti cəlb elədi, Tanrı məhəbbəti, həqiqətə -Allaha qovuşmaq mərhələsi onun şeirlərində də əksini tapdı. ”Yetiş imdadıma, gəl Xudam dedim”.**

**Ədalət Əsgəroğlu bir şair kimi öz sözünü dedi və getdi.. Amma unudulmadı.**




# BAYAT

№ 48 (908)




# Bir qırıq da ümid var ...qayıdacaq haçansa...




Aqşin Yenisey


## Sənə məktub yazıram

Sənə məktub yazıram
Yazıram ki,
bağışla...
Burda hava pis keçir
Ara vermir yağışlar

Tək yatıb tək durmaqdan
Bezdirmişəm otağı
Bilirsən...
pinti olur
Yalqızların yatağı

Yalqızlar az yuyunur
Gəlir yalqızlardan iy
Çayları soyuq olur
Yeməkləri alaçiy

Çirkli ayaqqabılar...
Dibi yanmış qazança...
Bir qırıq da ümid var
...qayıdacaq haçansa...

Yalqız sabaha baxmır
Arzulayır keçmişi
Çox miskin mənzərədir
Ev yığışdıran kişi

Hələ bunun gecələr
içib ağlamağı var,
saçın daramamağı
saqqal saxlamağı var

Üstəgəl pəncərədən
Gözünü yola dikmək
Gəlməyini gözləmək
Qadın həsrəti çəkmək

Dərd ağır, hava da pis
Ara vermir yağışlar
Sənə məktub yazıram
Yazıram ki,
Bağışla...

## Gedək,içək

Bu sevgim də daşa dəydi
Bəxtəvər daşın başına.

Qarımış göy üzü kimi
Asta-asta qar yağıram
sağ əlim qışın başına.

Daha dostlar da qocalıb
Mənim Parisim dağılıb
Bütün səfillər yığılıb
Yenə Qavroşun başına.

Bəs o kimdi göydən baxdı
Baxdı...baxdı... yoxa çıxdı.
Bir şimşək də güllə çaxdı
Yağan yağışın başına.

Bu sevgim də daşa dəydi
Daş düşsün daşın başına!

## Üzün tanınmaz halı

Yenə səhər
Yenə həmin gün şüası
Evdəki tozu göstərir.
Yenə axşam
Qaranlıq boş çarpayını
Saat doqquzu göstərir.

Nə mənası,
Ölmüşəmmi, qalmışammı?
Heç yadına düşürəmmi?
Kimə lazım,
Təkəmmi, qocalmışammı?
içib miskinləşirəmmi?

Aman-güman
Məndə cəmi bir şəklin var
Baxıram əynin köhnəlib.
Həyatdı da
Ömür var, şəkilnən keçir,
İnsan var, şəkildə ölür.

Yenə şəhər
Yenə həmin insan seli
Kölgələr əyilir camda.
Bəlkə də, biz
Ayrı-ayrı evdən çıxıb
Yan-yana itkin düşürük,
Hər gün eyni izdihamda.

## Bakıda son səhər

Pəncərədən baxanda
bir televizor kimi açılır səhər.
Səhnəyə birinci aparıcılar çıxır;
Göyərçinlər və süpürgəçilər.
Göyərçinlər zövqlə yeriyir boş səkidə
yerimək uça bilənlərin xoşbəxtliyidi!
Süpürgəçilər həmişəki kimi acıqlı:
- hanı bəs, axı süpürgələr də uça bilirdi?..

## Nəsiminin vəsiyyəti

Can məhkum evidir, cəza ver, təki,
Günahı savabdan məhrum eyləmə!
Min dəfə soruşum, bircə yol hay ver,
Sualı cavabdan məhrum eyləmə!

Əzabdan həzz almaq nə sirdir eşqdə?!
Min yara bəslərəm, hər biri eşqdən!
Asini, aşiqi, kafiri eşqdən
Mömini kitabdan məhrum eyləmə!

Qulun küfründə də gizli iman var!
Necə ki, ilanın zəhrində can var.
Nə qədər məkan var və laməkan var,
Sufini şərabdan məhrum eyləmə!

***

Boş səhrada qapı döyən hürufi
Yeri öpən, göyü söyən hürufi
Üzündə tanrı var deyən hürufi,
Gəlsə görər un satanda ac məni

Nəfsi zatın iradəsin qul eylər
Eşq - dağları aşiqinə yol eylər
Dərviş dərdin suya deyib gül eylər
Küfr içində tək qoyar Həllac məni.

Elə ölər, ölüm bulmaz asini
Öz içində kimsə bilməz asini
Nə gözlərsən gedərgəlməz asini?
Bizdənsənsə bat günaha, quc məni!

## Kənd

çaylar axar ağacların içindən, içindən,
quruyarlar budaqlar öz ucundan, ucundan,
quşlar qorxar buludların köçündən, köçündən,
şimşək çaxar göydən qaçar yağışlar, yağışlar.

doluşar ot tayasına sərçələr, sərçələr,
sərçələr ot tayasında gecələr, gecələr,
yorğun sürü axşam kəndə gec gələr, gec gələr,
gün batınca kəndə enər yoxuşlar, yoxuşlar.

gövşəyərək köks ötürər inəklər, inəklər.
boylu gəlin yuyub sərər köynəklər, köynəklər,
süfrə üstə pıçıldaşar bəbəklər, bəbəklər.
sükut çökər, fikrə gedər baxışlar, baxışlar.

səhər günəş qonşu kənddən ucalar, ucalar,
oyanmamış hələ həyət bacalar, bacalar,
sübhdən qalxıb namaz qılar qocalar, qocalar,
diz çökərlər, allah bizi bağışla, bağışla.

***

Yollar ölümə aparır
Ya gec, ya tez, yolum, yeri
O ağac bizim ağacdı
Otum yeri, kolum yeri.

O dağda bir çən görünür
Çəndə bir itən görünür
Qarşıda vətən görünür
Dizim yeri, qolum yeri.

Bu o kənddir, bu o koma
Bir əl yox gözümü yuma
Çatdır məni son arzuma
Qəlbim, qurban olum, yeri.

## Unudulmuş edam

Ölüm hökmü oxuyublar, amma öldürməyiblər
Kiminsə umrunda deyil, varlığınla, yoxluğun.
Hətta günahkar kimi də daha gərək deyilsən
Heç səni də düşündürmür.
İndi burda kimdən ötrü, nədən ötrü olduğun.
Sözlər yaddan çıxmamaq, unudulmamaq üçün
Susub özün öldürür, fikir olmaq istəyir.
Təbiət ruhdan düşür şəhər axşamçağında.
Göylər eybəcərləşib kifir olmaq istəyir.
Tarix heykələ dönür, daşın boyun ucaldır
Tamah gizlənmək üçün girir qızıl küpünə,
Mənsə köhnə sobanın dibində, soyuq evdə
Sitayiş eləyirəm, sönməməsindən ötrü
son bir kibrit çöpünə.

## Evdə təkəm

Evdə təkəm,
şəkilinə baxıram
Zəng eləyir arvadımın xalası
Yağış yağır çəkdirdiyin şəkildə
Bir it də var,
arsız həyət tulası
Yağış yağır çəkdirdiyin şəkildə
Hətta bir az külək əsir, sazaqlı
Sol yanında hüzünlü bir uzaq var
Şəkillərdə yaxşı düşür uzaqlıq
Bir kişi də keçir arxa tərəfdən
Heç baxmırsan,
gözün elə məndədir
Həyata bax, necə gözəl yalandı
Gecə keçir,
ömür qalır,
gün gedir
O kişidən mənim gözüm su içmir
O kişini tanımırıq sən, ya mən.
O kişini evdən qova bilmirəm
Neçə ildir, bizdə qalır şəkilnən
Gecə hərdən hürür həyət tulası
- Ay it! Ay it!
Çımxırıram şəkilə
Bu şəkildə özündən də gözəlsən
Necə edim bu şəkilə çəkiləm?
Bir uşaq da bərk-bərk tutub əlindən
Sağın uşaq,
sol tərəfin uzaqlıq
Mən bilirəm,
şəkillərə çəkilib
Qocalıqdan daldalanır uşaqlıq
Bilirəm ki, yorulmusan şəkildə
Necə alım əlindəki səbəti
Necə öpüm yanındakı uşağı
Necə qovum
o kişini, o iti
Necə qovum,
kişi bəlkə ərindir
Uşaq sizin,
it də evin tulası
Evdə təkəm,
şəkilinə baxıram
Zəng eləyir arvadımın xalası.

## Sevgi ən axırda ölür

Yəqin sən də gedəcəksən
Hamının getdiyi yerə.
Mən öz yerimə sadiqəm,
Necə ki, sadiq olurlar,
Ağaclar bitdiyi yerə.

uzun ömür, can sağlığı.
Bağışla bu uşaqlığı.
Ayrılmaqçün gəl görüşə
Sevginin itdiyi yerə.

Koram, gözüm əllərimdi
ümidlərdən tuta-tuta,
Arxanca gəlib çıxmışam
Məni tərk etdiyin yerə -
Hamının getdiyi yerə.

***

Demə, insan görkəmində,
Özümüzə qorxuymuşuq.
Biz ən böyük qorxumuzun
Adını Allah qoymuşuq.

Birimizin ömrü gödək,
Birimizin bəxti qırıq.
Biz Allahdan qorxa-qorxa,
Qorxumuza sığınırıq.

Elə ki tək qalır insan,
Ömür, gün düyünə düşür.
Hamı Allahın altında,
Allahın üstünə düşür.

**Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük "Vətən Müharibəsi"ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

№ 28 (2451) 1 avqust 2025-ci il

# HƏLƏ ÖMRÜMÜZ BOYU BELƏ SEVİNMƏMİŞDİK



**Əlbəttə, insanın sevincli anları ilə yanaşı, kədərli məqamları da çox olur. Məcburi köçkünlərin kədərli anları o idi ki, onlar öz dədə-baba yurdlarından 30 ildən çox ayrı düşdülər. Çoxlu sayda qohumlarını, əzizlərini Qarabağ müharibəsində itirdilər. Bir tərəfdən Vətən həsrəti, bir tərəfdən də itirdiklərinin dərdi. Heç şübhəsiz, bunu çəkmək elə də asan deyildi. Ən azından ona görə ki, gərək ürəyin polad kimi möhkəm olmalı, iradən dəmir kimi bərk olmalı idi. Və onlar günlərin bir günündə bu həsrətə, bu kədərə son qoydular.**

Ulu Öndər Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlişiylə demək olar ki, insanlarda çox böyük inam və ümid yarandı. Bu inam və ümid ondan ibarət idi ki, Azərbaycan xalqı Heydər Əliyevə inanır, ölkəmizi çətin vəziyyətdən yalnız onun xilas edəcəyini düşünürdülər. Təbii ki, xalq belə düşünməkdə haqlı idi. Çünki ondan əvvəlki dövlət rəhbərləri zəiflik göstərmiş, ölkəmizi beynəlxalq aləmdə nüfuzunun yüksəlməsi, eləcə də işğal altında olan torpaqlarımızın azad edilməsi üçün ciddi bir addım ata bilməmişdilər. Bütün bu ağır yük Ulu Öndər Heydər Əliyevin çiyninə düşmüşdü. O, isə hakimiyyətdə olduğu dövrdə ölkənin siyasi-istisadi, hərbi problemlərini qısa zaman kəsiyində yoluna qoymağı bacardı. Azərbaycan yüksək istisad inkişaf mərhələsinə qədəm qoydu. Və hərbi sahədə böyük irəliləyişlərə nail oldu.

Heydər Əliyevin siyasi kursu Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildi. Belə ki, cənab İlham Əliyevin 20 illik hakimiyyəti dövründə ölkəmiz siyasi-istisadi və hərbi cəhətdən çox böyük yüksəlişə nail oldu. Belə bir durumda isə ermənilər yenə sərhədboyu kəndlərdə tez-tez atəşkəsi pozur, yaşayış məntəqələrinə fasiləsiz olaraq ağır artilleriyalardan zərbələr endirir və bu zəbələr zaman şəhidlərimiz və yaralılarımız olurdu. Üstəlik də yaşayış məntəqələrinə xeyli ziyan dəyirdi. 2020-ci il sentyabrın 26-a qədər ölkəmiz bu hücumlara dözdü. Amma daha dözmək mümkün deyildi. Ona görə də Ali Baş Komandan, Prezident İlham Əliyev Azərbaycan ordusuna əks hücuma keçməək barədə əmr verdi. Bu əmr 2020-ci il sentyabrın 27-də icra edilməyə başlandı. Bir neçə gündə qüdrətli Azərbaycan Ordusu əks hücuma keçərək, Füzulinin və Cəbrayılın 8 kəndini erməni işğalından azad elədi. Azərbaycan Ordusu 30 illik sükuta son qoydu. "Ohanyan səddi" deyilən müdafiə sistemləri möhtəşəm və qüdrətli Azərbaycan ordusunun gücü hesabına darmadağın edildi. Çünki ermənilər 30 il idi ki, Füzuli və Cəbrayıl istiqamətində, eləcə də digər işğal olunmuş yaşayış məntəqələrimizin ərazisində keçilməz müdafiə xətti qurmuşdular. Onların səngərlərindən əvvəl, yəni qarşıda tankların keçməsinin qarşısını almaq üçün böyük dərələr qazılmış, yolla minalanmış, hətta tikanlı məftillər belə yerləşdirilmişdir. İlk baxışdan bu səddi keçmək olduqca çətin bir məsələ idi. Amma Azərbaycan ordusunun istehkamçıları, mina təmizləyənləri əsgərlərimizin hücumu zamanı bütün bu təhlükəni qanları, canları, həyatları bahasına təmizləmiş və zərərsizləşdirmişdilər. Əgər bu təhlükə və müdafiə sistemləri vaxtında zərərsizləşdirilməsəydi, onda canlı qüvvə, texnika sarıdan böyük itkilərimiz ola bilərdi. Məhz buna görə də hərbi əməliyyat başlamamışdan öncə generallarımız bu barədə çox ətraflı götür-qoy eləmiş və nəticədə onların qurduğu taktika və həyata keçirdiyi əməliyyat uğurlu olmuşdu.



Azərbaycan ordusunun gücü və qüdrəti tək onun hərbi arsenalından ibarət deyildi. Azərbaycan ordusunun gücü NATO standartlarına uyğun böyük məktəb keçmiş və təcrübə toplamış zabitlərdən, əsgərlərdən ibarət idi. 44 günlük İkinci Qarabağ savaşında Azərbaycan əsgəri aslan kimi, şir kimi döyüşdü. Onlar nə ermənilərin keçilməz müdafiə səddindən qorxdular, nə də ən müasir döyüş texnikalarından. Çünki Azərbaycan əsgərinə güc, qüvvət və ruh verən ayağının altında olan Vətən torpağı və bir də Vətən torpağının havası idi! Erməni əsgəri heç vaxt Azərbaycan əsgəri kimi döyüşə bilməzdi. Çünki Qarabağ və eləcə də işğal altında olan digər yaşayış məntəqələrimiz onların Vətəni deyildi. Vətəni olmadığına görə də burda ölmək istəmir və qaçıb aradan çıxmağa can atırdılar. Ölməmək üçün çoxu elə qaçdı da! Ermənilərin öz mətbuat orqanları 44 günlük İkinci Qarabağ savaşında yazırdı ki, onların 10 mindən çox döyüş mövqeyindən qaçan fərari əsgərləri var.

Amma bir Azərbaycan əsgəri 44 günlük müharibədə silahını atıb, geri çəkilmədi. Üstəlik də respublikanın bütün rayonlarında Hərbi Səfərbərlik İdarələrinin qarşısında 10 minlərlə gənc könüllü olaraq cəbhəyə döyüşməyə getmək üçün növbəyə durmuşdular. Hardasa 100 minə yaxın belə gənclərimiz növbə gözləyirdilər. Onların çoxuna növbə çatmasa da, bu onu göstərirdi ki, Azərbaycanda 7-77-ə qədər hamı silaha sarılıb Vətən torpağını işğaldan azad etmək istəyirdi. Onsuz da bizim 100 minə yaxın döyüşən əsgərimiz var idi. Onların yarısı 44 günlük İkinci Qarabağ savaşında erməni ordusunu darmadağın etməyə bəs elədi. Bu ordunun gücü ilə Cəbrayıl azad olundu... Hadrut azad olundu... Füzuli azad olundu... Qubadlı azad olundu... Zəngilan azad olundu... Və ən nəhayət, noyabrın 8-də Azərbaycanın ürəyi olan Şuşa azad olundu... Azad olunan bütün yaşayış məntəqələrinə Azərbaycan bayrağı sancıldı!..

Bütün bunlar onu göstərdi ki, Ali Baş Komandan, Prezident İlham Əliyev Azərbaycan Ordusuna əks-hücuma keçmək barədə vaxtında və düzgün əmr vermişdi. 44 günlük möhtəşəm savaş Prezident, Ordu və Xalq birliyi simvoluna çevrildi. Çünki bu üç qüvvə bir yerdə olmasaydı, biz möhtəşəm qələbə qazanıb yeni bir tarix yaza bilməzdik. Və ermənilər məcbur olub 2020-ci il noyabrın 10-da üçtərəfli bəyanata təslim olmaq haqqında imza atmazdı. Üstəlik də ermənilərin Baş naziri Nikol Paşinyan 3 rayonun - Ağdamın, Laçının, Kəlbəcərin razılaşmış vaxtda boşaldılmasına qol çəkmişdi.

**"Yurda qayıdanda hələ ömrümüzdə indiki kimi sevinməmişdik". Bu sözləri bizə 30 ildən sonra öz doğma ocağına qayıdan insanların hamısı dedilər. Onlar dedilər ki, bizim həyatımızda kədərli və sevincli anlar çox olub. Amma torpağı itirmək qədər kədərli və Vətənə dönmək qədər sevincli anlar yaşamamışıq. Bütün bunlar Ali Baş Komandan, Azərbaycan prezidenti İlham Əliyevin və Ordumuzun gücü hesabına mümkün oldu. İndi öz yurdumuzda, evimizdə çox rahat yaşayırıq və hər gün Allaha şükür edirik ki, doğma Vətənimizə qayıtdıq.**

**EMİL FAİQOĞLU**

AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ

# ŞƏHİDLİYİ ƏBƏDİ ÖMÜR SEÇƏNLƏR

## (Qafar Cəfərli və Xatirə Xatunun Lənkəran şəhidlərinə həsr olunan "Payızın 44 anı" kitabı ətrafında düşüncələr)

**Yeni kitab alanda çox sevinirəm, oxumağa tələsirəm. Düşünürəm ki, kitabxanam dah da zənginləşir, söz xəzinəm çoxalır, kəsə yeni söz eşitdim,yeni fikir, yeni təfəkkür.**

Mən təzə kitablardan bahar ətirli, yaz duyğulu nəfəs alıram.Poetik dillə, publisistik ruhla, fəlsəfi dərinliklə yazılan yazılar, istər iri həcmli olsun, istərsə də lirik parçalar- həssas qəlbli, incə duyğulu, geniş təxəyyüllü, istedadlı qələm sahiblərinə məxsus olanda qiyamət olur. Bu dəfə Qafar Cəfərlinin mənə bağışladığı iri həcmli "Payızın 44 anı" kitabı bahar duyumlu olmasa da oxudum, fikrə daldım, kədərli notlarla yükləndim. Altmış üç qəhrəman şəhidin şücaətinə, qeyrətinə ,vətən sevgisinə,pak düşüncəsinə,vətən torpağını azad etmək diləyinə həsr olunmuş bu nəfis kitab şəhidlərə deyilmiş elegiyadır və bənzərsiz bir istəkdir, şəhidlərin ömrünü yaşatmaqdır, onları əbədi olaraq yaddaşa yazmaqdır. Yazmaq dedik, ər biləkli, saf diləkli fədakar şəhidlərimiz mərdlik yolu keçərək elə bir uca zirvəyə ucalırlar ki, misli bərabəri yoxdur. Vətəni, xalqını, yurdunu dərin məhəbbətlə sevən, yurdunun qeyrətini çəkən, döyüş anında ölüm qorxusunu tərk edən qəhrəmanların hər addımını söz-söz , sətir-sətir yazan müəlliflərdən başqa müəlliflərə nəsib olmayan yaşantılar, duyum, təmkin, istedad, ifadə tərzi tələb olunur. Və belə keyfiyyətləri bu kitabı oxuyarkən hiss etdim.

"Payızın 44 anı " kitabını oxuduqca həm sevindim, həm də kədərləndim. Özümü bir anlıq ata-anaların gözləri yol çəkən uşaqların ata-anaların yerində hiss etdim. Kitabın həmmüəllifləri Qafar Cəfərli və Xatirə Xatunun ürək çırpıntılarını, həyacanlarını, dözümünü və iradəsuini gördüm. Otuz ilə yaxın bir dövrdə yağı tapdağı altında qalan elləri, obaları, Qarabağın azadlığı uğrunda can əsirgəməyən qəhrəman oğullarımızın Vətənə, yurda qırılmaz tellərlə bağlı olduğunu, bənzərsiz, şücaətini, onlara sevgisini gördüm.

Kitabda 63 nəfər Lənkəranlı şəhidin qəhrəmanlığı təsvir edilmişdir. "Şəhadətin çağırdığı ünvan" adlı ilk oçerkdə 22 yaşında o uca zirvəyə ucalmış Murad Abbasovun cəbhədə göstərdiyi qəhrəmanlığa güzgü tutulur. Xatirə Xatunun şair kimi iti qələmi, cəsarəti onun yazdığı oçerklərdə də hiss olunur. Onun qələmə aldığı oçerkdə Muradın yaşadığı həyat yolu ilə bizi tanış edir, vətənpərvərliyini, cəsarətini, qələbə soraqlı arzularını diqqətə çatdırır. Yazır ki, Murad və onun kimi igidlərimiz ona görə vətənin səsinə səs verib ayağa qalxaraq ölümün gözünə dik baxdılar ki, üstümüzdən "torpağı işğalda olan xalq" adı götürülsün.

Murad kimi oğullar ona görə şəhid olurlar ki, bu gün ataların beli qəmdən bükülsə də sabah balaları alnı açıq, üzü ağ yaşasınlar. Bu amal, bu əqidə uğrunda dünyadan gedənlər kim deyir ki, ölə bilər. Onlar ölmədi, yer üzündən ürəyimizə köç elədilər...

Şəhidləri xatırladan elegiyadır kitabdakı yazılar. Hər bir yazı onların keçdiyi döyüş yoluna, qəhrəmanlığına yazılmış kiçik dastandır,bitib tükənməyən dastandır, fədailəri yaşadan xronikalardır.

Yazıçı dramaturq, Azərbaycan Yazıçılar Birliyi Lənkəran Bölməsinin sədri Qafar Cəfərli Qarabağın azad olunmasını tərənnüm edən çoxlu bədii və publisistik əsərlər yazıb çap etdirmişdir. Yazıçı Vətən müharibəsinin qəhrəmanlarının, onların Azərbaycan sevgisini, vətənpərvərliyini, torpaq uğrunda cəsarətlə vuruşaraq şəhadətə qovuşmasını böyük ilhamla qələmə alır.

"Payızın 44 anı" kitabında yazıçının bir neçə sanballı oçerki əksini tapıb. Vətənə qurban getmiş İqbal Bayramova həsr etdiyi "Şəhid komandir" adlı oçerki maraqlı olduğu qədər oxucuya gerçək təsir bağışlayır. 1977-ci ildə Lənkəranın Hirkan qəsəbəsində doğulmuş İqbal Azərbaycan Dövlət Neft Akademiyasını "leytenant" hərbi rütbəsi ilə bitirdikdən sonra Ağdam, Tərtər istiqamətindəki cəbhə bölgəsində tağım komandiri kimi xidmətə başlayıb. 2001-ci ildə "baş leytenant" rütbəsi ilə ehtiyata buraxılıb. 2004-cü ildən DİN-nin Daxili Qoşunlarında xidmətə qəbul olunub. Hərbi hissələrdə bölük komandirinin müavini, bölük komandiri, qərargah rəisinin müavini, qərargah rəisinin döyüş təlimi üzrə müavini vəzifələrində xidmət edib. Bir neçə medala layiq görülən İqbal Bayramov 2018-ci ilin fevral ayında "mayor" rütbəsi ilə ehtiyata buraxılır. Tovuz hadisələrindən sonra könüllü olaraq hərbi xidmətə keçmək istəməsi barədə müva-




fiq quruma müraciət edir. SHXÇ DX-nin Lənkəran Şöbəsinə ərizə yazaraq 26 sentyabr 2020-ci ildə Müdafiə Nazirliyi sistemində hərbi xidmətə qəbul olunur. 5 oktyabr 2020-ci ildə Zəngilan istiqamətində şiddətli döyüş zamanı şəhadətə yüksəlir. Bütün bunlar İqbalın hərbi işə bağlılığını, Vətənin işğal altındakı ərazilərini azad etmək üçün canını belə əsirgəmədiyini göstərir.

Kitabda yer alan digər şəhidlər: Zaur Ağalı, Ülfət Babazadə, Hüseyn Bəşirzadə, Valeh Əkbərzadə, Ramid Əliyev, Əflatun Fərəcov və onlarla qeyriləri barədə Qafar Cəfərlinin yazdığı oçerklər də məzmunu, əhatəliyi, səmimiliyi ilə oxucu qəlbinə yol tapır, onlarda şəhidlərin ölməz ruhuna hörmət və ehtiram hisslərini daha da yüksəldir.

Kitabda Ağamir Cavadın yazdığı "Su ömrü", Əlisəfa Həsənovun qələmə aldığı "Murov qartalı", Pərvanə Əliyevanın "Şəhidlik zirvəsindən Vətən görünür", Esmira İsmayılovanın "Hay ver mənə, cənab leytenant!" və s. adlı yazılarını həyacansız oxumaq mümkün deyil.

Kitabın diqqət çəkən ən mühüm cəhəti, eyni məzmunlu digər kitablardan fərqləndirən əsas fərqi ondadır ki, burada şəhidlərin yalnız tərcümeyi-halı deyil, onların anadan olandan şəhid olana kimi həyatlarının ən önəmli halların, hadisələrin, həmçinin səngər yoldaşlarının, ailə üzvlərinin, dostlarının da fikir və düşüncələrinin qələmə alınmasıdır ki, bu da kitabı daha oxunaqlı, daha yaddaqalan edir.

Kitabda əməkdar jurnalist, şair Elçin Mirzəbəyli "Qarabağda qovuşan qan" adlı girişdə qeyd edib ki, qəhrəman oğullarımız müqədəs savaşa getdilər və zəfərlə qayıtdılar, tarix yazdılar, tarixə yazıldılar:

***Keçilməz yollardan vurub keçdilər,***
***O qaya igidlər, o dağ igidlər.***
***Üçrəngli bayrağa könül bağlayan,***
***Bayraqla ucalan bayraq igidlər.***

Mənim şəhid kitablarımın birində mərhum şair publisist Allahverdi Məmmədli "Ölsəm, inanma!" kitabıma son söz əvəzində yazıb ki, o (yəni İ.Ş) Azrbaycan adlı andımızı yaşatmaq üçün can fəda edən oğullara qələm kağızla nəfəs vermək, onları gələcək qəhrəmanlarımıza tanıtmaq üçün çox gərəkli bir missiyanı yerinə yetirir.

Kitabın müəllifləri şəhidlik zirvəsinə ucalanların yarımçıq ömrünü tamamlamaq, sona çatdırmaq istəmiş, bununla da son dərəcə əhəmiyyətli bir vəzifəni yerinə yetirmişlər. Qəhrəmanların yolunu gələcək nəslə həvalə etmişlər.

**Şəhidlərimizi Qafar Cəfərlinin və Xatirə Xatunun kitabda oxuculara olan müraciəti ilə bitirmək istəyirəm: "-Əziz dostlar! Inanırıq ki, əlinizdə olan kitabı səbirlə oxuyub şəhidlərimizin ömür yolundan xəbər tutacaq, dünənə kimi ətrafımızda gördüyümüz, bu gün isə ən uca məqamda qərar tutan həmyerlilərinizlə fəxr edəcəksiniz. İnanırıq ki, şəhidlərimizin işıqlı xatirəsinə həsr olunmuş bu kitab şəhid ailələrinə bir təskinlik olacaq, övladlarının ölməz xatirəsinin əbədiləşdirilməsində açar rolunu oynayacaqdır."**

**İDRİS ŞÜKÜRLÜ**
**Azərbaycanın əməkdar jurnalisti,**
**yazıçı publisist**

---

# Türkiyənin 22-ci UNESCO İrsi: Sardis və Bintepə

**Türkiyə mədəni irsinin qorunması və davamlı şəkildə gələcək nəsillərə ötürülməsi istiqamətində həm milli təşəbbüslərə dəstək verir, həm də beynəlxalq əməkdaşlıqları uğurla genişləndirir.**

Adalet.az-ın məlumatına görə, bu istiqamətdə atılan ən son və mühüm addımlardan biri, 2025-ci il 6-16 iyul tarixlərində Fransanın paytaxtı Parisdə keçirilən UNESCO-nun Ümumdünya İrs Komitəsinin 47-ci sessiyasında reallaşıb. Hələ 2013-cü ildən etibarən UNESCO-nun Gözləmə Siyahısında yer alan Sardis və Bintepə Lidiya Tümülüsü, bu toplantıda rəsmi olaraq Ümumdünya İrsi Siyahısına daxil edilib.

Beləliklə, bu qərarla birlikdə Türkiyənin UNESCO siyahısındakı mədəni irs nümunələrinin sayı 22-yə çatıb. Siyahıya yeni əlavə olunan bu ərazi ölkənin qərbində, Manisa vilayətində yerləşir. Qədim dövrlərdə Lidiyalıların paytaxtı olmuş Sardis, dəmir dövrünün ən qüdrətli sivilizasiyalarından biri kimi tanınır. Xüsusilə zənginliyi və ilk metal pul sikkələrinin dövriyyəyə buraxılması ilə tarixə düşən bu şəhər, Anadolunun zəngin tarixi keçmişinin canlı şahidlərindəndir. Sardisin yaxınlığında yerləşən Bintepə Kral Nekropolu isə dünyanın ən iri tümülüs qəbir komplekslərindən biri sayılır. UNESCO bu sahəni III saylı meyara əsasən Ümumdünya İrsi elan edib - bu meyar, Lidiyalıların yerli mədəniyyətini əks etdirən bənzərsiz arxeoloji və memarlıq sübutların mövcudluğunu nəzərə alır. Bu son qərarla Türkiyə UNESCO-nun Ümumdünya İrsi Siyahısındakı mövqeyini bir qədər də möhkəmləndirmiş, özünün bəşəri dəyərə çevrilmiş zəngin tarixi və mədəni irsini dünya ictimaiyyətinə daha geniş miqyasda tanıtmağa davam etmişdir. Tarixi e.ə. V-ci əsrə qədər uzanan Sardis, xüsusilə e.ə. VI-cı əsrdə Lidya Krallığının paytaxtı kimi tarixə adını qızıl hərflərlə yazdırıb. Lidiyalılar Anadolu mənşəli xalq olmaqla yanaşı, özlərinə məxsus dil və dini sistem formalaşdırmış, ilk qızıl və gümüş sikkələri dövriyyəyə buraxaraq dünya iqtisadiyyatında yeni bir mərhələnin əsasını qoymuşlar. Bu qədim şəhəri əhatə edən və o dövrdə Paktolos çayı kimi tanınan Sart çayı, ətraf



əraziləri zəngin qızıl yataqları ilə bəxş etmiş, bunun nəticəsində isə Kral Kroisosun (Karunun) sərvəti dillərə dastan olmuşdur. Əfsanəyə görə, toxunduğu hər şeyi qızıla çevirən sehrli gücə malik Frigiya kralı Midas da bu gücdən xilas olmaq üçün məhz bu çayın sularında əllərini yuyaraq lənətdən azad olmuşdur. UNESCO-nun rəsmi məlumatında bildirilir: "Sardis möhkəmləndirilmiş divarlar, terraslar və fərqli funksiyalara malik zonalardan - yaşayış sahələri, müqəddəs yerlər və qəbiristanlıqlardan - ibarət olan unikal şəhərsalma quruluşuna malik idi."

Bu qədim şəhər öz memarlıq üslubu və mədəni irsi ilə seçildiyi halda, yaxınlığında yerləşən Bintepə Lidiya Tümülüsü isə dünyanın ən böyük qədim nekropollarından biri sayılır. Təxminən 7.500 hektarlıq geniş ərazini əhatə edən bu sahədə 119-dan çox kurqan tipli qəbir abidəsi yerləşir. Bu məzarlar təkcə arxeoloji dəyəri ilə deyil, həm də Lidiyalıların inanc və dəfn mədəniyyətini araşdırmaq baxımından əvəzsiz mənbədir. E.ə. VI-cı əsrdə Lidya Krallığının süqutundan sonra da Sardis öz əhəmiyyətini qoruyub saxlamış və Əhəmənilər, yunanlar, romalılar və şərqi romalıların (Bizansın) hakimiyyəti dövründə də mühüm şəhər olaraq inkişaf etmişdir. Bu gün qədim şəhər ərazisində mükəmməl şəkildə qorunub saxlanılmış Roma dövrünə aid abidələr mövcuddur. Onların sırasında hamam-idman kompleksi, akropol və Artemida məbədi xüsusilə diqqət çəkir.

Sardisin seçildiyi başqa bir vacib xüsusiyyət isə onun dini əhəmiyyətidir. Burada qədim dünyanın ən böyük sinaqoqu yerləşir. Eyni zamanda, bu şəhər Anadolu ərazisində yerləşən Müqəddəs Vəhyin Yeddi Kilsəsindən birinə də ev sahibliyi edir. Bu kilsələr xristian dünyasında erkən dövr inancının yayılmasında mühüm rol oynamış, həm də Türkiyədəki ən vacib dini ziyarət marşrutlarından birinə çevrilmişdir.

**Müqəddəs Kitabın Vəhy bölümünə görə, bu yeddi kilsəyə Müqəddəs Yəhya tərəfindən məktublar ünvanlanıb. Məktublarda icmalar mənəvi yenilənməyə çağırılır. Sardis kilsəsinə yazılan məktubda isə burada yaşayanlar zahirdə "canlı" görünsələr də, ruhən ölü olmaqda tənqid olunurlar.**


Təsisçi və baş məsləhətçi: Aqil ABBAS
Baş redaktor: İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h
Müxbir hesab: 0137010001994
S.W.I.F.T. Bik: AIIBAZ 2xhesab N: 38070019411100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 534-55-98 Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 1500
Sifariş: 239
Çapa imzalanmışdır: 31.07.2025